# Ağ yalan və tərsliyin imitasiyası



**Azərbaycan Prezidenti İlham Əliyevin rusiyalı telejurnalist Dmitri Kiselyova müsahibəsində səsləndirdiyi fikirlər, etdiyi xəbərdarlıqlar Ermənistan rəsmilərinin, yerli medianın və ekspertlərin qızğın müzakirə mövzusuna çevrilib.**

Yaqin onlar üçün videoyazısını izlədikləri müsahibədə cənab Prezidentin rəsmi İrəvana və onun himayədarlarına ünvanladığı mesajlara Kiselyovun razılıqla başını tərpətməsini "həzm eləmək" xüsusilə çətin olub. Bakıdan səslənən sərt xəbərdarlıqlara "cavab vermək" fikrinə düşən hayların baş naziri Nikol Paşinyan tezbazar "Armenpress"in müxbirini iqamətgahına dəvət edib. Amma biz onun dilindən təzə heç nə eşitmədik. Köhnəlmiş mülahizələr, "sınıq val" üslubunda qulağımızı yağır etmiş, yalan və riyakarlıqla bəstələnmiş bayağı "havalar".

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan İslam dünyasına daha dərindən inteqrasiya edir

***Ölkəmizin D-8 təşkilatına qoşulması üzv ölkələrlə əməkdaşlığı daha da möhkəmləndirəcək***

**D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının yaranması ilə bağlı təşəbbüs ilk dəfə olaraq 1996-cı il oktyabr ayının 22-də adıçəkilən qurumun İstanbulda keçirilən birinci toplantısında səsləndirilib.**

Bundan bir il sonra – 1997-ci il iyunun 15-də isə həmin şəhərdə gerçəkləşən dövlət və hökumət başçılarının Zirvə görüşündə adıçəkilən format təsis edilib.

*(ardı 11-ci səhifədə)*


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 282 (30686) 21 dekabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Kəssə hər kim tökülən qan izini...

## *Qlobal müharibəyə qarşı Azərbaycanın vasitəçiliyi*



**Prezident İlham Əliyevin dekabrın 17-də "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalının "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsi dünyanın ekspert dairələrinin diqqət mərkəzindədir. Bu diqqəti şərtləndirən bir çox xüsusiyyətlər var.**

Əvvəla, müsahibə, kifayət qədər, əhatəli məzmun daşıyırdı, orada vurğulanan məsələlər bütövlükdə müasir dünya düzəninə, beynəlxalq müstəvidə baş verən proseslərə nəzər salınması baxımından əhəmiyyətli idi. Ancaq ekspert dairələrinin üzərində dayandığı başlıca məqam Prezident İlham Əliyevin lider obrazıdır. Yəni, hansı məsələlərə diqqət yetirməsindən asılı olmayaraq, bu obrazın yanaşma tərzində fərqlilik və məxsusilik var. Fərqliliyi səciyyələndirən xüsusiyyətlərin çevrəsi isə olduqca zəngindir.

Bəli, dövlətimizin başçısı hazırda dünyanı düşündürən məsələlərə köklü yanaşır və onun lider obrazındakı ən böyük məzsusilik də elə budur. Bu obraz nəyi, nə zaman bildirməyin və deməyin vacib olduğunu hamıdan dəfələrlə yaxşı bilir. Başəriyyəti düşündürən başlıca məsələ isə Rusiya – Ukrayna müharibəsi fonunda Qərb-Rusiya ziddiyyətlərinin Üçüncü dünya müharibəsi reallığına doğru getməsidir.

*(ardı 4-cü səhifədə)*

## Çin–Azərbaycan münasibətləri yeni şəraitdə uğurla inkişaf edir

*Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə*



**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Son illər bizim birgə rəhbərliyimizlə intensiv yüksəksəviyyəli təmaslar, möhkəm siyasi qarşılıqlı etimad və beynəlxalq aləmdə səmərəli əməkdaşlıq ilə səciyyələnən Çin–Azərbaycan münasibətləri uğurla və ardıcıl şəkildə inkişaf etməkdə davam edir. Tərəflər "Bir kəmər, bir yol" təşəbbüsünün yüksək səviyyədə reallaşdırılmasında mühüm nəticələr əldə ediblər. Bu ilin iyulunda biz ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bəyan etdik və bununla da Çin-Azərbaycan münasibətlərinin inkişafı tarixində yeni səhifə açdıq.

Mən Çin ilə Azərbaycan arasında əlaqələrin inkişafına böyük əhəmiyyət verirəm və iki ölkənin xalqlarının rifahı naminə yüksəksəviyyəli ikitərəfli münasibətləri yeni başlanğıc nöqtəsindən daha da inkişaf etdirmək üçün Sizinlə birlikdə səy göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Avstraliyalı deputatlar fransızların yolunu gedirlər

Səhifə ⇨ 12

## Naxçıvanda yüksəlişin yeni mərhələsinin önəmli hədəfləri və ilk uğurları



Səhifə ⇨ 14-15

## Avropa İttifaqı Kiyevə 47 milyard avro hərbi yardım göstərib



Səhifə ⇨ 19

# AP-dən Azərbaycana "qərəz yağışı"

## "Pensiyada olan korrupsionerlər klubu" ermənipərəstlər cəbhəsində

**Avropa Parlamenti yenə köhnə "ampluasındadır". Qurum ölkəmizə qarşı qərəzindən qalmır. Belə görünür ki, "pensiyada olan korrupsionerlər klubu"nun ya qitənin erməni lobbi və diaspor təşkilatlarından aldığı ənamların həcmi böyükdür, ya da klubdakılar marixuananın dozasını çox ediblər, təsirindən ayıla bilmirlər. Sonuncu məqamı təsadüfən vurğulamadıq. Avropa Parlamentinin iclaslarında narkotik maddə qəbulu adi hal alıb. Həqiqətən, normal məntiq bir ölkəyə, indiki halda Azərbaycana qarşı qərəzi belə yüksək həddə çatdırmaqdan uzaqdır. Deməli, mütləq kənar təsir var. Nəzərə alaq ki, qurumdakılar ölkəmizlə bağlı tam mənasız, lakmus kağızına çevrilmiş qətnamələrini sıralamaqdan usanmırlar.**



Bəli, AP dekabrın 19-da "Azərbaycanda vətəndaş cəmiyyətinə və müstəqil mediaya qarşı repressiyaların davam etdirilməsi" adlı qətnamə qəbul edib. Əvvəla, onu deyək ki, qurumun üç əsas səlahiyyəti var. Bunlar Avropa İttifaqına dair qanunlar qəbul etmək, həmin qanunların yerinə yetirilməsinə nəzarəti həyata keçirmək və təşkilatın büdcəsinin icrasına nəzarət. Bu səlahiyyətlər üzv ölkələr tərəfindən müəyyənləşdirilib. Deməli, Azərbaycanla bağlı qətnamə qəbulu AP-nin səlahiyyətlərinə ziddir. Ən azı, ona görə ki, ölkəmiz qurumun da tərkibində yer aldığı Aİ-nin üzvü deyil. Amma göründüyü kimi, pensiyaçı korrupsionerlər üçün belə bir meyar keçərli deyil və onlar Azərbaycana qarşı hiddətlərini sonuncu dəfə bu ilin oktyabrından nümayiş etdirmişdilər. Sanki, onlar vaxtaşırı bu sayaq addımlar atmasalar dayana bilmirlər.

AP-nin Azərbaycana qarşı qətnamə məntiqindəki motivlər dəyişilməzdir. Qurumun üzvləri Aİ-nin icra orqanlarını ölkəmizin rəsmilərinə qarşı məqsədyönlü sanksiyalar tətbiqinə çağırıblar. Onlar, həmçinin 2022-ci il üçün Strateji Enerji Tərəfdaşlığına dair Aİ ilə Azərbaycan arasında imzalanmış Anlaşma Memorandumunun dayandırılmasını tələb ediblər. Niyə? İki səbəb var ki, əslində, dekabrın 19-da qəbul edilmiş lakmus kağızının məzmununa diqqət yetirəndə bütün suallara aydınlıq gəlir.

Avropa Parlamentinin deputatları təkid edirlər ki, Azərbaycan dövləti "uydurma və siyasi motivli ittihamlarla təqib edilən hüquq müdafiəçiləri, jurnalistlər, siyasi və digər fəallara qarşı bütün ittihamları qeyd-şərtsiz azad etməli və ləğv etməlidir". Görəsən, başqa nə isə istəmirlər ki? Göründüyü kimi, pensionerlər üçün hüquq anlayışı heç nədir. Necə deyərlər, ayının min oyunu isə bir armudun başındadır. Keçək ikinci səbəbə.

*(ardı 12-ci səhifədə)*

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım,**

19 dekabr 2024-cü il tarixində Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) 11-ci Zirvə Görüşü zamanı Azərbaycan Respublikasının yekdilliklə D-8 təşkilatının üzvü seçilməsinə görə qardaş Türkiyə Respublikasına və şəxsən Sizə dərin təşəkkürümü bildirirəm. Ölkəmizin D-8-ə qəbul olunmasının təşkilatın gücləndirilməsinə xidmət edəcəyi ilə bağlı sözlərinizə görə Sizə minnətdaram.

28 il bundan əvvəl Türkiyənin təşəbbüsü və liderliyi ilə yaradılmış bu təşkilat hazırda inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatı daxilində rolunun artması, iqtisadi-ticari əlaqələrinin şaxələndirilməsi və yeni imkanların yaradılması, beynəlxalq səviyyədə mövqelərinin gücləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərməkdədir.

Qahirədə D-8 təşkilatının genişlənməsi ilə əlaqədar ilk dəfə tarixi qərarın qəbul edilməsi Azərbaycana olan beynəlxalq etimadın göstəricisi və eyni zamanda bizim üçün xüsusi qürur mənbəyidir. Azərbaycanın namizədliyinə ifadə edilən birmənalı dəstək təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürüdür.

Əminəm ki, Azərbaycan bütün üzv ölkələrlə birlikdə D-8-in təməl prinsiplərinin qorunması, təşkilat çərçivəsində əməkdaşlığın dərinləşməsi və ümumi maraqlarımızın təşviqi, İslam həmrəyliyinin möhkəmlənməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunmasına öz töhfəsini verəcəkdir.

**Əziz Qardaşım,**

Fəxr hissi ilə qeyd etmək istərdim ki, dərin tarixi köklər, ortaq milli-mənəvi dəyərlər ilə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkiyə münasibətləri bu gün ən yüksək pillədə qərarlaşmışdır. Sarsılmaz dostluq və qardaşlığımız, siyasi, iqtisadi, ticari, hərbi, hərbi-texniki, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız və birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillərdəndir.

Noyabr ayında COP29-da iştirak etmək üçün Azərbaycana səfərinizi yüksək qiymətləndirir, Sizinlə səmimiyyət, qarşılıqlı etimad və mehribanlıq şəraitində keçən görüşümüzü, apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

Bir daha Sizə minnətdarlığımı ifadə edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

# Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

**Hörmətli cənab Prezident,**

19 dekabr 2024-cü il tarixində Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) 11-ci Zirvə Görüşünün yüksək səviyyədə təşkili və uğurlu nəticələri münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Dost ölkənizin ev sahibliyi ilə keçirilən bu mötəbər tədbir zamanı Azərbaycan Respublikasının yekdilliklə D-8 təşkilatının üzvü seçilməsinə görə Misir Ərəb Respublikasına və şəxsən Sizə dərin təşəkkürümü bildirirəm. Siz təbrik mesajınızda qeyd etdiyiniz kimi Azərbaycanın təşkilata üzvlüyü ölkələrimiz arasında əlaqələrdə yeni səhifə açacaqdır.

Əlamətdar haldır ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən D-8 təşkilatı ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul etmişdir. Azərbaycana beynəlxalq etimadın göstəricisi olan bu tarixi qərar bizim üçün xüsusi qürur mənbəyidir.

Azərbaycanın namizədliyinə ifadə edilən birmənalı dəstək təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürüdür.

Əminəm ki, Azərbaycan bütün üzv ölkələrlə birlikdə D-8-in təməl prinsiplərinin qorunması, təşkilat çərçivəsində əməkdaşlığın dərinləşməsi və ümumi maraqlarımızın təşviqi, İslam həmrəyliyinin möhkəmlənməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunmasına öz töhfəsini verəcəkdir.

**Hörmətli cənab Prezident,**

Qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən Azərbaycan-Misir münasibətlərinin və əməkdaşlığının hazırkı səviyyəsi məmnunluq doğurur. Keçən ilin əvvəlində Sizin Azərbaycana, cari ilin iyununda isə mənim Misirə səfərim dövlətlərarası əlaqələrimizin tarixində yeni mərhələnin əsasını qoymuşdur.

İnanıram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, birgə fəaliyyətimizin potensialından tam istifadə olunması, beynəlxalq strukturlar çərçivəsində səmərəli əməkdaşlığımızın genişləndirilməsi üçün birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bir daha Sizə minnətdarlığımı ifadə edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Misir xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

# İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məsud Pezeşkiana

**Hörmətli cənab Prezident,**

19 dekabr 2024-cü il tarixində Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) 11-ci Zirvə Görüşü zamanı Azərbaycan Respublikasının yekdilliklə D-8 təşkilatının üzvü seçilməsinə görə İran İslam Respublikasına və şəxsən Sizə dərin təşəkkürümü bildirirəm.

Əlamətdar haldır ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən D-8 təşkilatı ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul etmişdir. Azərbaycana beynəlxalq etimadın göstəricisi olan bu tarixi qərar bizim üçün xüsusi qürur mənbəyidir.

Azərbaycanın namizədliyinə ifadə edilən birmənalı dəstək təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürüdür.

Əminəm ki, Azərbaycan bütün üzv ölkələrlə birlikdə D-8-in təməl prinsiplərinin qorunması, təşkilat çərçivəsində əməkdaşlığın dərinləşməsi və ümumi maraqlarımızın təşviqi, İslam həmrəyliyinin möhkəmlənməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunmasına öz töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran dostluq və əməkdaşlıq münasibətlərinin xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənməsi yolunda birgə səylərimizi davam etdirəcəyimizə inamımı ifadə edirəm.

Bir daha Sizə minnətdarlığımı ifadə edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost və qardaş İran xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

# Pakistan İslam Respublikasının Baş naziri Zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

**Hörmətli cənab Baş nazir,**
**Əziz Qardaşım,**

19 dekabr 2024-cü il tarixində Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) 11-ci Zirvə Görüşü zamanı Azərbaycan Respublikasının yekdilliklə D-8 təşkilatının üzvü seçilməsinə görə qardaş Pakistan İslam Respublikasına və şəxsən Sizə dərin təşəkkürümü bildirirəm.

Əlamətdar haldır ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən D-8 təşkilatı ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul etmişdir. Azərbaycana beynəlxalq etimadın göstəricisi olan bu tarixi qərar bizim üçün xüsusi qürur mənbəyidir.

Azərbaycanın namizədliyinə ifadə edilən birmənalı dəstək təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürüdür.

Əminəm ki, Azərbaycan bütün üzv ölkələrlə birlikdə D-8-in təməl prinsiplərinin qorunması, təşkilat çərçivəsində əməkdaşlığın dərinləşməsi və ümumi maraqlarımızın təşviqi, İslam həmrəyliyinin möhkəmlənməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunmasına öz töhfəsini verəcəkdir.

Qarşılıqlı inam, hörmət və dəstəyə əsaslanan, gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan-Pakistan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Biz qardaş Pakistanla siyasi, iqtisadi, ticari, nəqliyyat, hərbi-texniki, humanitar və digər sahələrdə çoxşaxəli əməkdaşlığımızı və strateji tərəfdaşlığımızı daim genişləndirməyə xüsusi əhəmiyyət veririk. İyul ayında ölkənizə həyata keçirdiyim dövlət səfəri əlaqələrimizin tarixində yeni səhifə açmışdır, bu səfəri ən xoş təəssüratlarla xatırlayıram.

COP29-da iştirak etmək üçün Azərbaycana səfərinizi, Sizinlə mehribanlıq, səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, apardığımız fikir mübadilələrini yüksək qiymətləndirirəm. 2025-ci ildə Sizin Azərbaycana dövlət səfərinizi səbirsizliklə gözləyir, bunun qardaşlıq münasibətlərimizin möhkəmlənməsinə, səmərəli birgə fəaliyyətimizin daha da dərinləşməsinə təkan verəcəyinə əminliyimi ifadə edirəm.

Bir daha Sizə minnətdarlığımı bildirir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

*

**Eyni zamanda, bu məzmunlu məktublar İndoneziya Respublikasının Prezidenti Prabovo Subiantoya, Nigeriya Federativ Respublikasının Prezidenti Bola Ahmed Tinubuya, Malayziyanın Baş naziri Ənvər İbrahimə və Banqladeş Xalq Respublikasının Müvəqqəti Hökumətinin Baş müşaviri Məhəmməd Yunusa da göndərilmişdir.**

## Y.T.Əliyevin Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Yaşar Teymur oğlu Əliyev Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## A.S.Məmmədovun Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## C.S.Mirzəyevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında, eyni zamanda Filippin Respublikasında, Timor-Leste Demokratik Respublikasında, Sinqapur Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cəlal Sabir oğlu Mirzəyev Azərbaycan Respublikasının İndoneziya Respublikasında, eyni zamanda Filippin Respublikasında, Timor-Leste Demokratik Respublikasında, Sinqapur Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## M.B.Əhmədzadənin Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Bahəddin oğlu Əhmədzadə Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## R.Ə.Rzayevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil Əbil oğlu Rzayev Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## T.F.Musayevin Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tofiq Fuad oğlu Musayev Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## M.M.Əliyevin Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mahir Məmməd oğlu Əliyev Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## A.S.Məmmədovun Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

## Y.T.Əliyevin Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Yaşar Teymur oğlu Əliyev Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

---

## M.H.Əhmədovun 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kitabxana işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mayıl Hilal oğlu Əhmədov 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

---

## Q.M.Məhərrəmliyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Qulu Məmmədqulu oğlu Məhərrəmliyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

---

## V.Y.Aslanovun “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüsal Yusif oğlu Aslanov “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

---

## Z.M.Hüseynovun “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zaur Mir Tofiq oğlu Hüseynov “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

---

# Naxçıvan Azərbaycanın dövlət və hüquq tarixində

**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş “Azərbaycanın dövlət və hüquq tarixində Naxçıvan” mövzusunda elmi-praktiki konfrans keçirilib.**



Məclisin əvvəlində Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Naxçıvanın Azərbaycanın hüquqi dövlətçilik tarixində önəmli yeri var. Ümummillili lider Heydər Əliyevin bu qədim diyarla bağlı siyasi fəaliyyəti bu mövqeyi daha da zənginləşdirib.

Səlahiyyətli nümayəndə bildirib ki, ötən 30 ilə yaxın bir dövrdə Naxçıvan Muxtar Respublikasında hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin təşkili üçün dövlət tərəfindən əlverişli şərait yaradılmasına baxmayaraq, ədalət mühakiməsinin səmərəliliyi qənaətbəxş olmayıb. Lakin Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq, 2023-cü ilin yanvar ayından etibarən Naxçıvan Muxtar Respublikasında məhkəmələrin fəaliyyətinin gücləndirilməsi istiqamətində ardıcıl və əsaslı tədbirlər həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi qeyd edib ki, Ulu öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi, iqtisadi, mədəni islahatlarla yanaşı, genişmiqyaslı hüquq islahatlarının da aparılmasına start verilib. Bu kurs Ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən mərhələlərlə davam etdirilib.

Konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, muxtar respublikasının baş prokuroru Sənan Paşayev, Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyeva, Naxçıvan Şəhər Məhkəməsinin sədri Gülnar Səfərəliyevamövzu ilə bağlı çıxış ediblər.

**XQ**

---

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu, əziz dost.**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Qeyd etmək xoşdur ki, qardaş Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə Türk dünyasında getdikcə daha mühüm rol oynayır, regionda liderliyini gücləndirir və Belarus Respublikasının etibarlı strateji tərəfdaşıdır.

Sizinlə bu yaxınlarda Bakıda görüşümü məmnunluqla xatırlayıram.

Mən dostluğumuzu və etimada əsaslanan şəxsi münasibətlərimizi, qarşılıqlı dəstəyi və müxtəlif platformalarda açıq konstruktiv dialoqumuzu yüksək qiymətləndirirəm.

Əminəm ki, qlobal iqlim forumunun - COP29-un və Dünya Liderləri Sammitinin uğurla keçirilməsi ölkənizin beynəlxalq nüfuzunu daha da gücləndirdi.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, rifah, uğurlar, Azərbaycan dövlətinə isə Sizin rəhbərliyinizlə daimi qələbələr arzulayıram.

**Hörmətlə,**

**Aleksandr LUKAŞENKO,**
**Belarus Respublikasının Prezidenti**

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Azərbaycan bu gün Sizin rəhbərliyinizlə dövlətçiliyin möhkəmləndirilməsi və sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir.

Əminəm ki, bərabərlik, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan Türkmənistan-Azərbaycan ənənəvi dostluq münasibətləri xalqlarımızın rifahı naminə gələcəkdə də inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

**Sərdar BERDİMƏHƏMMƏDOV,**
**Türkmənistanın Prezidenti**

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə Sizi Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizin dostluq, tərəfdaşlıq və müttəfiqlik prinsiplərinə əsaslanan Rusiya-Azərbaycan münasibətlərinin inkişafına əhəmiyyətli töhfənizi qeyd etmək istərdim. Yüksək səviyyədə qəbul edilmiş qərarların icrası üçün iqtisadi-ticari, elmi-texniki və mədəni-humanitar sahələrdə qarşılıqlı fəaliyyətin genişləndirilməsi, müxtəlif istiqamətlərdə birgə nəhəng layihələrin həyata keçirilməsi məqsədilə böyük işlər görülür.

Əminəm ki, praktiki əməkdaşlığın daha da dərinləşdirilməsi, yeni qarşılıqlı faydalı təşəbbüslərin reallaşdırılması Rusiya Federasiyasının və Azərbaycan Respublikasının maraqlarına tam cavab verir.

Sizinlə 2024-cü il noyabrın 13-də keçirilmiş görüşümüzü məmnunluqla xatırlayıram. Açıq və konstruktiv ünsiyyətimizi davam etdirməkdən şad olacağam.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**Mixail MİŞUSTİN,**
**Rusiya Federasiyası Hökumətinin sədri**

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə ürəkdən gələn təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində qazanılan böyük uğurlar, ölkənin iqtisadi inkişafında, dünya arenasında nüfuzunun möhkəmlənməsində mühüm nailiyyətlər Sizin adınızla ayrılmaz surətdə bağlıdır.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və bütün işlərinizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**Qurbanqulu BERDİMƏHƏMMƏDOV,**
**Türkmən xalqının milli lideri, Türkmənistan Xalq Məsləhətinin sədri**

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Siz quruculuq fəaliyyətində, iqtisadi, sosial və mədəni inkişaf istiqamətində heyrətamiz uğurlar qazanmış Azərbaycan Respublikasının mənafeyini 20 ildən artıqdır ki, inamla müdafiə edirsiniz. Sizin yüksək siyasi nüfuzunuz və həyata keçirdiyiniz kursa ümumxalq dəstəyi ölkənin bir çox sahələrdə lider mövqelərinin möhkəmlənməsinə təminat verir.

Əmin olduğumu bildirirəm ki, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında çoxəsrlik mehriban qonşuluq və qarşılıqlı hörmət əlaqələrinə əsaslanan dostluq, əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə genişlənəcək və dərinləşəcəkdir.

Hörmətli İlham Heydər oğlu, qarşıdan gələn 2025-ci ildə Sizə möhkəm cansağlığı, firavanlıq və məsuliyyətli işinizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**Sergey MƏLİKOV,**
**Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri**

*

**Möhtərəm İlham Heydər oğlu.**

Sizə olan ən yüksək ehtiramımı və doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq məsələlərdə mühüm rol oynayır, dünya arenasında haqlı olaraq yüksək nüfuza malikdir.

Rusiya Federasiyasının Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında çoxşaxəli əlaqələrin möhkəmləndirilməsində və təkmilləşdirilməsində göstərdiyiniz hərtərəfli köməyə görə Sizə minnətdarlığımı bildirirəm.

Əminəm ki, qurulmuş konstruktiv dialoq bundan sonra da ikitərəfli əməkdaşlığın dərinləşməsinə mühüm töhfə verəcəkdir.

Möhtərəm İlham Heydər oğlu, Sizin üçün bu əlamətdar gündə Zati-alinizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan xalqının rifahı naminə bütün planlarınızın və təşəbbüslərinizin uğurla həyata keçməsini arzulayıram.

**Dərin hörmətlə,**

**İqor BABUŞKİN,**
**Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru**

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə “VTB Bank”ın İdarə Heyəti və kollektivi adından səmimi-qəlbdən təbrik edirəm.

Sizin Azərbaycan Respublikasına xidmətinizin iki onilliyi ərzində ölkə beynəlxalq nüfuzunu xeyli möhkəmləndirib, regionda lider mövqeyini gücləndirib, Avrasiya məkanında əhəmiyyətli aktora çevrilib.

Sizin bu il yenidən Prezident seçilməyiniz ölkə qarşısında duran mühüm siyasi və sosial-iqtisadi vəzifələrin uğurla həllinə vətəndaşların yüksək etimadının bir daha göstəricisidir.

Rusiya Azərbaycan rəhbərliyinin Rusiya-Azərbaycan müttəfiqlik əməkdaşlığının, çoxəsrlik mehriban qonşuluğun və işgüzar münasibətlərin dərinləşdirilməsinə diqqətini yüksək qiymətləndirir. Bu münasibətlərin inkişafı çətin çağırışlar şəraitində də dinamik şəkildə davam edir.

“VTB” qrupu 15 ildir ki, respublika bazarında səmərəli fəaliyyət göstərir, Azərbaycan Hökuməti ilə qurulmuş işgüzar dialoqu yüksək qiymətləndirir, infrastruktur və sənaye əməkdaşlığı sahəsində mühüm layihələr üzrə qarşılıqlı faydalı ticarət, investisiya və maliyyə əməkdaşlığının daha etibarlı şəkildə təmin edilməsinə sadiqdir.

Biz hər zaman dialoqa açıq və münasibətlərimizin ruhuna cavab verən həll yollarını tapmağa hazır olduqlarına görə Azərbaycanın dövlət orqanlarına minnətdarıq.

Hörmətli İlham Heydər oğlu, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, tükənməz güc, firavanlıq, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**Andrey KOSTİN,**
**Rusiyanın “VTB Bank” Publik Səhmdar Cəmiyyətinin prezidenti - İdarə Heyətinin sədri**

*

**Zati-aliləri.**
**Hörmətli İlham Heydər oğlu.**

İcazə verin, “TRACECA” Hökumətlərarası Komissiyasının Daimi Katibliyi adından və şəxsən öz adımdan Sizə olan dərin ehtiramımı bildirim, doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırım.

Sizin müdrik rəhbərliyiniz və Azərbaycan Respublikasının çoxşaxəli inkişafına dair kompleks yanaşmanız ölkənin beynəlxalq aləmdə mövqeyini möhkəmləndirməkdə davam edir. Azərbaycanın danılmaz nailiyyətləri, o cümlədən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu sədrliyi, ölkənin həyatın bütün sahələrində qlobal çağırışların həllinə verdiyi konstruktiv töhfə Sizin uzaqgörənliyinizin və respublikanın gələcək inkişafına, xalqınızın rifahına və firavanlığına yönəlmiş səylərinizin göstəricisidir.

“TRACECA” Hökumətlərarası Komissiyasının Daimi Katibliyi ölkənin iqtisadi potensialının genişləndirilməsinə, nəqliyyat sektoru da daxil olmaqla çoxsaylı istiqamətlərdə regional və beynəlxalq əməkdaşlığın inkişafına yönəlmiş məqsədyönlü və nəticəyönümlü fəaliyyətinizi yüksək dəyərləndirir.

Fürsətdən istifadə edərək, regionlararası əlaqəliliyin, o cümlədən Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi vasitəsilə daha yaxşı şəraitin yaradılmasına sarsılmaz sadiqliyinizə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, rifah, tükənməz enerji və yeni nailiyyətlər diləyirəm.

Yorulmaz səyləriniz və əməyiniz Sizə, Sizin simanızda yaxınlarınıza və Azərbaycan xalqına uğur və firavanlıq gətirsin!

**Hörmətlə,**

**Asset ASSAVBAYEV,**
**“TRACECA” Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi**

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə uzun ömür, cansağlığı, xoşbəxtlik və ölkənizin rifahı naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Azərbaycan iqtisadiyyatında dönüş yaradan və dünya miqyaslı neft-qaz layihələrinə "yaşıl işıq" olan "Əsrin müqaviləsi"nin imzalanmasının bu il 30 illiyini qeyd etdik. Bu yubiley ili "Azəri"-"Çıraq"-"-Günəşli" üzrə sərbəst qaz hasilatı haqqında Sazişin imzalanması və bu yaxınlarda həmin yataqdan 600 milyonuncu ton hasilatın əldə edilməsi ilə daha da əlamətdar oldu.

Eləcə də SOCAR-la yeni əməkdaşlıq imkanları və “yaşıl enerji” sahəsi ilə bağlı layihələrinizin reallaşması istiqamətində mühüm addımlar atıldı.

Onilliklərdir davam edən bu enerji tərəfdaşlığımız müddətində göstərdiyiniz daimi dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, Azərbaycan hökuməti və SOCAR ilə strateji tərəfdaşlığımız bundan sonra hələ uzun illər davam edəcəkdir.

Fürsətdən istifadə edərək Sizi, ailənizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edir, ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

**Qəri COUNZ,**
**BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti**

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz mübarək! Xahiş edirəm, bu münasibətlə ən səmimi təbriklərimi qəbul edin. Sizə uğurlar, tükənməz güc və enerji, nikbinlik, yeni zirvələr fəth etməyinizi arzulayıram.

“Komsomolskaya Pravda” ilə dostluğa və əməkdaşlığa görə səmimi təşəkkürümü bildirirəm.

Sizə və yaxınlarınıza xoşbəxtlik, cansağlığı və firavanlıq diləyirəm.

**Hörmətlə,**

**Olesya NOSOVA,**
**Rusiyanın “Komsomolskaya pravda” media qrupunun baş redaktoru və baş direktoru**

*

**Möhtərəm cənab Prezident.**

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim. Sizə cansağlığı, xoşbəxtlik, firavanlıq, hədsiz sevinc, bütün planlarınızın həyata keçməsini, ən əsası, Uca Allahın xeyir-duasını arzulayıram.

Mən Sizi təbrik etməkdən çox məmnunam. Çünki Sizi özümə çox əziz, böyük qəlbi olan və mehriban bir insan hesab edirəm. Ömrümün sonuna qədər Ulu Tanrıya Sizi hifz etməsi üçün dua edəcəyəm.

Çünki Siz həyatınızda xüsusi bir missiyanı - şanlı valideynləriniz Heydər Əliyevin və Zərifə xanım Əliyevanın işlərini davam etdirərək zəmanəmizin böyük siyasi xadiminin, müdrik dövlət rəhbərinin missiyasını yerinə yetirirsiniz.

Zati-aliləri, qoy, bu gözəl gündə Günəş üzünüzə gülsün, ailənizin və dostlarınızın səmimi təbriklərindən və arzularından qəlbiniz şad olsun! Bu gündə ən ümdə arzularınızın gerçəkləşməsini diləyirəm.

**Möhtərəm cənab Prezident.**

Ölkənizə - mənə çox əziz olan Azərbaycana tərəqqi və sülh, xalqınıza firavanlıq arzulayıram.

**Sizə böyük hörmət və sevgi ilə,**

**Valentina ANTONENKO,**
**Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar “Linqvist” liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın “Dostluq” ordeni laureatı**

# Ağ yalan və tərsliyin imitasiyası

## *Prezident İlham Əliyevin son mesajları Ermənistan isteblişmentində və cəmiyyətində çaşqınlıq yaradıb*

**(əvvəli 1-ci səhifədə)**

“Ermənistan heç bir ölkə ilə silahlanma yarışında deyil. Biz silahları sırf Ermənistanın sərhədlərini və ərazi bütövlüyünü qorumaq üçün, yəni müdafiə məqsədilə alırıq və məqsədimiz şəffafdır”. Həmişə olduğu kimi, Paşinyan bu dəfə də ictimai rəyə ağ yalanını həqiqət kimi sırımaq üçün diplomatik etiketdən və məntiqdən uzaq “arqumentlərdən” yararlanmağa çalışır. Misal üçün, deyir ki, tutalım Ermənistanın hava hücumundan müdafiə və elektron döyüş sistemləri var, bəs yerüstü hücumlardan özünü necə qorumalıdır? Ardınca sualına özü belə cavab verir: “Təbii ki, artilleriya ilə, raketlərlə, eləcə də digər məhvedici vasitələrlə. Azərbaycan da müdafiə xarakteri daşımayan silahlar əldə edir. Bu o deməkdirmi ki, o, revanşist siyasət aparır?”

Azərbaycanın revanşı necə aldığını hamıdan yaxşı bilən Paşinyan verdiyi ritorik sualı ilə iz azdırmağa, kökündən yanlış müqayisələr aparmağa girişir. İndi Bakının ikinci revanşa nə ehtiyacı, nə də niyyəti var. Qərbi Azərbaycan torpaqlarına isə tankların üstündə deyil, avtomobillərlə qayıdacağımız gün uzaqda deyil. Hayların baş naziri isə siyasi ritorikasının daimi atributuna çevrilmiş nə ağ yalanlarından əl çəkir, nə də yersiz və bezdirici tərsliyini yerə qoyur. Açığını deyək ki, onun bir-birini təkzib edən bəyanatlarından bizdən çox erməni cəmiyyəti bezib. Paşinyanın məhz silahlanma kontekstində ortaya atdığı avantürist ideyalarından biri də silahlar üzərində qarşılıqlı nəzarət mexanizmi barədə Azərbaycana etdiyi təklif idi. Müsahibəsində Bakının onun bu təklifinə hələ reaksiya vermədiyini söyləyən baş nazir irəli sürdüyü ideyanın, guya, səmərəliliyini isbatlamaq üçün iki ölkənin hərbi büdcələri arasındakı müqayisə aparır: “Ermənistanla Azərbaycanın hərbi büdcələri arasındakı fərq artıq 3 dəfə Azərbaycanın xeyrinədir. Bunun fonunda bizi silahlanmaqda ittiham etmək, ən azı, ədalətsizlikdir”.

* **

30 il qonşusunun torpağını işğal altında saxlayan bir ölkənin baş naziri indi ədalətdən dəm vurur. Hayların baş nazirinə bu məqamda unutduğu sadə bir statistikanı xatırlatmaq yerinə düşər. Ərazisi ərazimizdən az qala üç dəfə kiçik, əhalisi isə üç dəfədən də az olan Ermənistan hansı parametrlərinə görə Azərbaycanla silahlanma yarışına girə bilər? Yoxsa İrəvan Fransadan, Hindistandan aldığı silah-sursatla Bakının “gözünü qırmağı”, sülh danışıqları masasında hansısa güzəştləri qoparmağı planlayır? Bu planların artıq arxiv materialına çevrildiyini anlamaq istəməyən Nikol Paşinyan müsahibəsində ikibaşlı cavabları ilə də yadda qaldı.

“Armenpress”in müxbirinin “Siz regionda yeni eskalasiya riskini nə dərəcədə yüksək qiymətləndirirsiniz?” – sualına Paşinyanın verdiyi cavaba diqqət yetirin: “Mən təminat verə bilərəm ki, Ermənistanın Azərbaycana hücum etmək kimi bir niyyəti, məqsədi və planı yoxdur. Biz bu yolla getməyəcəyik. Əgər Azərbaycanın da Ermənistana hücum etmək niyyəti yoxdursa, o zaman regionda eskalasiya ehtimalı sıfıra bərabərdir”.

Nikol Paşinyan Bakıdan səslənən son xəbərdarlıqları beynində analiz etməyə başladığı zaman rəqibə qarşı “döyüş meydanına” Ermənistan Milli Assambleyasının müdafiə və təhlükəsizlik komissiyasının sədri Andranik Köçəryan göndərilir. Bu “şərəfə” layiq görülən hay parlamentari Prezident İlham Əliyevin məlum müsahibəsində Ermənistanın havadarlarından ölümcül silahlar alması ilə bağlı bəyanatına münasibət bildirib: “Əslində, Ermənistan Silahlı Qüvvələrini hücum üçün yox, müdafiə üçün modernləşdirir. Biz yalnız müdafiə sistemləri alırıq və sülh haqqında düşünürük”.

Köçəryanın baş nazirin açıqlaması ilə, yumşaq desək, üst-üstə düşməyən bu açıqlaması Ermənistan hakimiyyətində, sadəcə, çaşqınlığın təzahürüdür. Rəsmi Bakı Ermənistana tədarük edilən silahların mahiyyəti, o cümlədən hücum silahları barədə dəfələrlə məlumat yayıb. İndi Köçəryan iddia edir ki, Ermənistan xaricdən yalnız hava hücumundan müdafiə və raketdən müdafiə sistemləri alır. Bu məqamda hayların parlamentinin komissiya sədrinə belə bir sual verək: Ermənistanın Hindistandan almağı planlaşdırdığı “Pralay” taktiki ballistik raketləri də müdafiə olunmaq üçün nəzərdə tutulub? Əgər Köçəryanın bu sövdələşmədən xəbəri yoxdursa, ona qısa arayış təqdim edək: bu raketlər 150-dən 500 kilometrə qədər uçuş məsafəsinə malikdir və mobil buraxılış qurğusundan buraxıla bilər.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov** Ermənistan baş nazirinin müdafiə və hücum silahlarının fərqini ya anlamadığını, ya da sülh sazişini imzalamaqdan yayınmaq üçün növbəti dəfə yalan danışdığını bildirdi: “Paşinyanın bu açıqlamasının arxasında beynəlxalq ictimaiyyətin gözünə kül üfürmək, bölgədə münaqişə ocağı qalamaq istəyən tərəfdarlarına mesajlar gizlənir. Ermənistanın aldığı silahların xarakterinə gəldikdə isə Fransa istehsalı olan özüyeriyən qaubitsalar yetmiş kilometr məsafədəki hədəfləri vurmağa qadirdir. Tanka bərabər tutulan bu reaktiv sistemlər, əlbəttə ki, hücum silahları sayılır. Hindistandan aldığı qoşqulu haubitsalar reaktiv aktiv mərmilərlə 80 kilometrə qədər atəş aça bilirlər. Bunlardan başqa, İrəvan silah-sursat alınması ilə bağlı Cənubi Koreya da müraciət edib. Bəzi məlumatlara görə, Seul hələlik yekun qərarını verməyib. Söhbət müasir tanklardan gedir. Tank nə vaxtdan müdafiə silahı hesab olunur? Üstəlik, radiusu 120 kilometrə qədər olan radioelekrton cihazları əldə etməsi Ermənistanın heç də müdafiəyə hazırlaşmasından xəbər vermir. Hava hücumundan müdafiə qurğuları isə yüz əlli kilometrlik məsafədəki hədəfləri aşkar etməyə hesablanıb. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan əldə etdiyi silahların heç biri müdafiə xarakterli deyildir. Yəni, dediyimiz silahlar bədnam qonşuların revanşa hazırlaşmasının göstəriciləridir”.



Hərbi ekspert dedi ki, İrəvanın sülhdən yayınmaq üçün etdiyi siyasi manupulyasiyaları onun məkrli niyyətindən xəbər verir: “Havadarlarının Ermənistanı silahlandırmaqla onu bölgədə irimiqyaslı hərbi təxribata hazırlamaları açıq-aşkar müşahidə olunmaqdadır. Azərbaycan Prezidenti Rusiya telekanalına müsahibəsində bu məsələyə ciddi reaksiya verdi. Dövlət başçımız bundan əvvəl də bəyan etmişdi ki, istər Ermənistanın revanşist qüvvələri, istərsə də onun kənar dəstəkçiləri tərəfindən Azərbaycan üçün hansısa təhlükə yaranarsa dərhal və qəti şəkildə cavab tədbirləri görüləcək. Rəsmi İrəvan bu mesajı ciddi xəbərdarlıq kimi qəbul etməlidir”.

***

Heç kəsə sirr deyil ki, Azərbaycanın Ermənistanın istənilən nöqtəsini vura biləcək raketləri var. Bu da təbiidir, çünki biz İrəvana etibar etmirik. Səbəb isə tamamilə aydındır. Etimadsızlıq Ermənistanın ərazilərimizi 30 il işğal altında saxlamasından, saxta sülh danışıqları ilə münaqişəni dondurmaq cəhdlərindən qaynaqlanır. Bölgədə reallığın dəyişdiyi indiki məqamda İrəvan iqtidarı Azərbaycana qarşı təcavüzkar planlarının olmadığını sübuta yetirməlidir. Belə sübutlardan biri də onlarda hücum silahlarının olmamasıdır. Ermənistanın durumunu İkinci dünya müharibəsində məğlub olduqdan dərhal sonra demilitarizasiya olunmuş Almaniyanın “statusu” ilə müqayisə edə bilərik. Əslində, Ermənistanı da faşist Almaniyasının aqibət gözləməli idi. Amma onu da başa düşürük ki, Azərbaycanı ədalətli müharibədən çəkindirə bilməyən, işğaldakı torpaqlarını geri qaytarmayan böyük dövlətlər, “kollektiv Qərb” düşündükləri kimi, “Ermənistanın tam alçaldılmasına” imkan vermək istəmirlər. İntəhası, hadisələrə reallıqdan çıxış edərək və ayıq baxmağımız heç də o demək deyil ki, Ermənistanın əndazəni aşmış silahlanmasına göz yumacağıq.

Bundan başqa, Köçəryan Prezident İlham Əliyevin Aİ missiyasının şərti sərhəddə fəaliyyətinin dayandırılması tələbi ilə bağlı bəyanatını şərh edib: “Aİ-nin müşahidəçi missiyası sülh müqaviləsi imzalanacağı təqdirdə başa çatacaq. Silahlı Qüvvələrimiz elə bir səviyyəyə gətirilməlidir ki, hər hansı təcavüzün qarşısı alınsın”. Hay deputatın sözlərindən belə çıxır ki, Aİ-nin mülki missiyası, bir növ, Ermənistanı Azərbaycanın istənilən hərəkətindən qorumaqla məşğuldur. Burada dərhal onu qeyd etməliyik ki, Azərbaycan Ermənistana qarşı hər hansı hərbi əməliyyat keçirməyi planlaşdırmır. Lakin düşmənin silahlı təxribatına cavabımız da özünü gözlətməyəcək. Belə bir cavabın veriləcəyi təqdirdə şərti sərhəddə hansısa missiyanın olması bizim üçün çəkindirici rol oynaya bilməyəcək. Üstəlik, yaqin İrəvandakılar da avropalıların Azərbaycanla döyüşmək fikrində olmadıqlarını bilməmiş deyillər.

Bəlkə Ermənistan və onun himayədarları Aİ-nin veteran hərbçi və polislərdən ibarət müşahidə missiyasını NATO-nun tammandatlı hərbi bazasına çevirməyi planlaşdırırlar? Əgər belədirsə onda bu danışıqların nə faydası var?

***

Hər şey aydındır. Bakıdan eşitdiyi xəbərdarlıqlar İrəvanın “kürkünə birə salıb”. Baş nazirin və parlament rəsmisinin bu mesajlara tələm-tələsik cavab verməyə çalışmaları da Ermənistan hakimiyyətinin təlaşa düşməsinin əlamətləridir. “Armenpress”ə müsahibərinin tonundan Paşinyanın əhali arasında hakim partiyanın reytinqinin gütdikcə daha da aşağı düşməsinin qarşısını almaq istəyi hiss olunurdu. Paşinyanın bu yolla öz xalqına da sırımağa çalışdığı yalanlarının məqsədi, guya, arxasında Qərbin dağ kimi dayandığı, xarici siyasəti şaxələndirmək taktikasının öz “bəhrəsini verdiyi” təsəvvürünü yaratmaqdır.

Hansı müstəvidə və pozada dayanmasından asılı olmayaraq, İrəvanın üstündə daim haypərəst Qərbin kölgəsi aydın görünür. Özgə kölgəsinə sığınanın isə siyasi manevr etmək imkanları sıfıra bərabər tutulur. Elə bu səbəbdəndir ki, rəsmi İrəvan “kollektiv Qərb”dən aldığı “geri çəkilmə!” təlimatına uyğun davranmağa məcburdur. Yəni, xarici kuratorlarının oyunlarından tam asılı vəziyyətdəki Ermənistan üçün sülhün özü də uzun və ağrılı prosesə çevrilə bilər. Təəssüf!

**P.S.** Ermənistan baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupunun buraxılması tələbini “konstruktiv ideya” adlandırıb. “Əgər münaqişə yoxdursa, onda münaqişənin həlli ilə bağlı formatın olmasının nə mənası var”. Hayların baş nazirinin müsahibəsində yadda qalan yeganə müsbət çalar bu idi.

***İmran BƏDİRXANLI***
***XQ***

# Kəssə hər kim tökülən qan izini...

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev həmin reallığın, özünün də vurğuladığı kimi, qlobal apokalipsis trayektoriyasından qaçılmağın zəruriliyindən söz açıb. Bunu zaman Azərbaycanın istər Qərbdə, istərsə də Şərqdə müstəqil xarici siyasət yürüdən aktor kimi qəbul edildiyini diqqətə çatdırıb. Əlbəttə, müstəqil xarici siyasətin neytrallıq seqmenti aktualdır. Mövcud anlamda ilk növbədə dövlətimizin başçısının bu il aprelin 23-də ADA Universitetində keçirilmiş “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumdakı çıxışında səsləndirdiyi fikirlərin üzərində dayanmaq istərdik: “Etnik, dini baxımdan bir-birinə çox yaxın olan iki xalq üçün bu, böyük faciədir. Müharibədən qaçmaq şansı var idimi? Məncə, var idi. Əvvəlki illərdə Ukrayna liderlərinin Rusiya ilə normal münasibətlər qurmaq şansı var idimi? Tam əminəm ki, var idi. Bəli, mən indicə Rusiya – Azərbaycan münasibətlərindən danışırdım. Biz qonşuyuq. Biz güclü tərəfdaşlıq əlaqələri qurmuşuq. Biz bir-birimizin suverenliyinə hörmət edirik. Biz bir-birimizin işinə qarışmırıq. Rusiya ilə Ukrayna arasında belə ola bilməzdimi? Əlbəttə, mümkün idi. Ruslar Ukraynaya çox yaxın insanlardır. Niyə baş vermədi? Kimdir günahkar? Mənim fikrim var, amma bunu paylaşmayım”.

“Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü”. Dahi Hüseyn Cavidin fikirləri günümüz üçün son dərəcə aktualdır. Hesab edirik ki, dövlətimizin başçısı D.Kiselyova müsahibəsində Rusiya – Ukrayna müharibəsinə və Gürcüstandakı proseslərə eyni neytrallıq prizmasından yanaşaraq, günahkarların kim və ya kimlər olduğunu vurğulamadan, məhz qan tökülməsinin qarşısının alınması zəruriliyi üzərində dayandı. Başqa sözlə desək, qlobal apokalipsisdən qaçılmasını birinci dərəcəli vəzifə kimi elan etdi. Ən başlıcası isə Azərbaycanın neytral statusunu prosesə dəstək baxımından mühüm dividend kimi önə çəkdi. Müharibədən, qarşıdurmadan qaçmaq şanslarından istifadə də elə budur.

Bəli, Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri, liderlik xüsusiyyətləri - erudisiyası, fikirlərinin məntiqli ardıcıllığı və qlobal baxış müstəvisi imkan verir ki, Azərbaycanın müstəqil aktor obrazı Üçüncü dünya müharibəsi riski yaradan problemlərin aradan qaldırılmasında həlledici



rol oynasın. Bir halda ki, tölükən qan izini kəsmək şansları var, deməli, onlardan maksimum istifadə etmək gərəkdir. Ona görə də dövlətimizin başçısı bildirib ki, Azərbaycan Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir: “Dünyada ikinci belə ölkə yoxdur. Buna görə də öhdəliklərimizin məntiqi zənciri üzrə irəli getsək, görərik ki, müttəfiqlik öhdəliklərimiz çoxşaxəlidir. Biz isə təbii ki, Yer üzündəki real vəziyyətdən çıxış edəcəyik və bir daha demək istəyirəm ki, bəlkə hansısa mərhələdə Azərbaycanın səyləri tələb olunacaq. Burada Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Hərbi Komitəsinin rəisi səviyyəsində bir sıra görüşlər keçirilib, eləcə də Birləşmiş Ştatların və Rusiyanın hərbi rəhbərliyi də Bakıda görüşüblər. Axı bu, təsadüfən seçilməyib. Həm Qərbdə, həm Rusiyada, həm də Şərqdə etibar edilən ölkələr çox deyil. Həm də hərbi-siyasi strukturlarda formal və ya qeyri-formal üzvlüklə məşğul olmayan ölkələr çox deyil. Buna görə də, əgər belə bir ehtiyac olarsa, biz gərginliyin aradan qaldırılmasına öz töhfəmizi verməyə hazırıq”.

*

Göründüyü kimi, dövlətimizin başçısı Azərbaycanın dünyada etibar edilən ölkə statusunu vurğulayıb. Daha doğrusu, bu statusu bəşəriyyəti düşündürən qlobal bəlanın aradan qaldırılması üçün, bir növ, vasitəçi rolunda təqdim edib. Nəzərə alaq ki, dövlətimizin başçısı siyasəti müasir dövrün tələblərinə məharətlə uzlaşdırmağı bacarır. Nəticə etibarilə, İlham Əliyevli Azərbaycan həm də çağdaş dünyamızın siyasi olmaqla yanaşı, istər mədəni, istər iqtisadi, istərsə də mənəvi baxımından ayrılmaz tərkib hissəsidir.

Əlbəttə, Azərbaycanın neytrallıq xüsusiyyəti bəlli prinsiplərə söykənən reallıqdır. Nəzərə alaq ki, hər ölkə bu statusda çıxış edə bilmir və bunu dövlətimizin başçısı da diqqətə çatdırıb. Onu da nəzərə alaq ki, İlham Əliyev siyasətinin qətiyyət və prinsipiallıq xarakteri Azərbaycan üçün həlli vacib məsələlərin operativ və ardıcıl surətdə reallaşdırılması prioritetini rəhbər tutmaqdadır. Mövcud yanaşma mahiyyətcə nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqaz regionunun hüdudlarını aşan danılmaz liderlik faktıdır. Nəticə isə göz qabağındadır – İlham Əliyev liderliyi dünyada qəbul edilmiş gerçəklikdir. Nəticə həm də ondan ibarətdir ki, beynəlxalq aləm dövlətimizin başçısının adı gələndə postsovet məkanının rəhbər şəxsləri barədəki klişelərdən uzaqdır.

Bəli, Azərbaycan Prezidenti ölkəmizi NATO – Rusiya ziddiyyətlərinin aradan qaldırılmasında, o cümlədən, həmin fonda Rusiya – Ukrayna müharibəsinin dayandırılmasında vasitəçi kimi təqdim edirsə, bu, adi qarşılana bilməz. Çünki dövlətimizin başçısı sözünün ağasıdır. Cənab Əliyevin dilə gətirdiyi hər fikrin reallıqla dərin fiksasiya mahiyyəti var. Çünki təfərrüatları açıqlamasa da, dövlətimizin başçısı vasitəçiliyin trayektoriyasını əvvəlcədən ciddi şəkildə düşünüb. Onun düşüncəsində riskləri nəzərə alma bir neçə istiqamətli amplitudaya malikdir. Belə yanaşma isə qarşıya qoyulmuş məqsədin həyata keçirilməsinin kənar təsirlərdən etibarlı sığortasıdır. Dünya məhz bunu bilir və ona görə də ölkəmizə inam və etimad danılmaz reallıqdır.

Dünya güc dünyasıdır. Güclüsənsə, haqlısan. Bu deyimlər də artıq özünə yer tutub. İlham Əliyev liderliyi və bu liderliyin qlobal ziddiyyətlərin aradan qaldırılmasına hesablanmış yüksək statusu həm də ona görə etibarlıdır ki, Azərbaycan Prezidenti ölkəmizin haqq davasının məharətli sərkərdəsidir. Nəzərə alaq ki, o, Qarabağ məsələsində ortaya prinsipiallıq və qətiyyət qoymuş və bununla bağlı işlətdiyi hər fikir dərin ideoloji məzmun qazanmışdı. Nəticədə erməni işğalına son qoyulmuşdu. Müasir dünyamızda üzləşdiyi işğalı aradan qaldırmanın Azərbaycan nümunəsi isə bənzərsiz və təkrarsızdır.

Sonda onu da vurğulayaq ki, dünya, ümumən, risklərlə doludur. Heç nə göründüyü kimi deyil, heç bir hadisə və proses, xüsusən də Azərbaycanla bağlı məsələlər asanlıqla başa gəlmir. İlham Əliyev obrazı qloballaşan və dəyişən dünyamızda Azərbaycanın, sadə dildə desək, sağqalma formuludur. Əminik ki, dövlətimizin başçısı özünün qlobal liderlik obrazı ilə ölkəmizi daha böyük statuslara və zirvələrə aparacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003–2024)”




## Tarixin gedişatını dəyişdirənlər

Dünyanın siyasi tarixi yüzlərlə, minlərlə liderin fəaliyyətinə şahidlik edib. Lakin çox az sayda şəxsiyyətlərin adının qarşısında “tarixin gedişatını dəyişdirən lider” epiteti yazılır. Yalnız qüdrətli və mütərəqqi millətlər bu cür liderləri yetişdirə bilirlər. Onlar tarixin müəyyən bir dönəmində öz ölkələrinin xilası, mənsubu olduğu millətləri öncüllər sırasına çıxarmaq üçün Allah tərəfindən göndərilir, tarixin gedişatını öz fəaliyyətləri ilə dəyişə bilirlər. Müstəqil Azərbaycan Respublikasının tarixinə bu cür xarakterizə edilə biləcək iki liderin adı qızıl hərflərlə həkk olunub: XX əsrin 90-cı illərində Azərbaycanı labüd dağılmaq, müstəqil dövlətini yox olmaq təhlükəsindən xilas edərək siyasi proseslərin gedişatını dəyişən ümumilli lider Heydər Əliyev və Azərbaycanı məğlub ölkədən qalib, müzəffər ölkəyə çevirən, tariximizdə çoxsaylı ilklərin müəllifi olan Prezident İlham Əliyev.

2003-cü ildə siyasi Olimpin zirvəsinə yüksələrkən “Mən hər bir azərbaycanlının Prezidenti olacağam!” deyən və fəaliyyətinin hər bir məqamında bunu dəfələrlə təsdiqləyən İlham Əliyev həmin çıxışında qarşıya qoyduğu bütün vəzifələri məntiqi ardıcıllıqla reallaşdırıb, Azərbaycan xalqına iqtisadi, siyasi, diplomatik və ən nəhayət, hərbi zəfərlər qazandırıb.

## Tarixi yazmaq da önəmlidir

Çünki tarix təkcə keçmişin hadisələri deyildir, həm də gələcəyin dərsləridir. Hadisələrin gələcəkdə necə dərk olunması, həm də bu gün onların necə yazılmasından asılıdır. Azərbaycan Respublikası Milli Məclis Sədrinin müavini, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Musa Qasımlının çap olunan və oxucuların ixtiyarına verilən “İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003-2024-cü illər)” (Bakı: Parlaq imzalar nəşriyyatı, 2024) adlı monoqrafiyasını bu baxımdan təkcə günümüzün deyil, həm də gələcəyin əsəri hesab etmək olar.

Monoqrafiya əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən müdrik siyasi xəttin Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən geosiyasi reallıqlara uyğun olaraq necə inkişaf etdirildiyini aydın şəkildə başa düşməyə imkan verir. Müəllif 2003-2024-cü illərdə baş verən hadisələrin, proseslərin təhlilini aydın konsepsiya əsasında aparır. Bu konsepsiyanın ana xətti belədir: İlham Əliyev millətinin önündə Azərbaycan Konstitusiyasına və müqəddəs “Qurani-Şərif”ə əl basaraq and içərkən hansı məqsədləri qarşıya qoymuş, hansı müqəddəs niyyətləri etmiş, Prezident kimi ilk çıxışında qarşıda hansı vəzifələrin durduğunu bəyan etmiş və onları necə reallaşdırmışdır.

## Dövlətçilik tarixində şəxsiyyətin rolu

Giriş hissədə müəllif Azərbaycanın dövlətçilik tarixində şəxsiyyətin rolunu təhlil etmişdir. Vurğulamışdır ki, millətlərin dövlətçilik tarixi özü-özündən yaranmır və birdən-birə meydana çıxmır. “Onu böyük dövlət adamları gündəlik və strateji hədəfləri güdən fəaliyyətləri ilə qururlar. Ölkələrin və dövlətlərin tarixi görkəmli şəxsiyyətlərin, tanınmış ailələrin, nəsillərin və nəhayət, xalq kütlələrinin tarixinin məcmusundan ibarətdir. Milləti dünyada tanıdanlar onun arasından çıxıb yetişən, rəhbərlik edən görkəmli siyasi və dövlət xadimləridir”.

Monoqrafiyanın birinci fəsli “İlham Əliyevin müstəqil dövlətçilik baxışlarının formalaşmasına təsir edən amillər” adlanır. Müəllif ilk növbədə yetişdiyi ailə mühiti və qarşılaşdığı siyasi burulğanların İlham Əliyevin dövlətçilik baxışlarına təsirlərindən bəhs edir. Nəinki Azərbaycana, dünyanın iki böyük fövqəldövlətindən biri olan SSRİ-yə rəhbərlik edən şəxslərdən birinin – dahi Heydər Əliyevin övladı olmaq İlham Əliyevin dövlətçilik baxışlarına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. O, ən çətin şərtlər altında belə proseslərin axarını Azərbaycanın mənafeyinə xidmət edəcək şəkildə dəyişmək bacarığını, yəqin ki, məhz həmin illərdə böyük Heydər Əliyevdən əxz etmişdir. Siyasi burulğanlar, təzyiqlər qarşısında özünə aid dəyərlərə – ailəsinə, millətinin dəyərlərinə sahib çıxmaq, onlarla qürur duymaq kimi əsl Qafqaz liderinə, kişisinə məxsus olan xarakterin formalaşmasında da ailə mühiti və qarşılaşdığı siyasi burulğanlar zamanı çıxardığı dərslər əhəmiyyətli rol oynamışdır.

## Günəşin qarşısını buludlar kəsə bilməz

Müstəqil Azərbaycan üzərində parlayan Heydər Əliyev Günəşinin şəfəqlərindən gözləri tutulanlar, İlham Əliyevin də yüksəliş yolunu etdikləri haqsızlıqlarla kəsə bilmədilər. Prezident İlham Əliyev isə ən müxtəlif məqamlarda yaxşılıq edib pislik gördükləri bəzi şəxsləri milli birlik naminə bağışladı. Monoqrafiyada yazılır ki, məhz Prezident İlham Əliyevin hakimiyyəti dövründə Milli Məclisin “Eks-prezidentlər haqqında qanunu” qəbul etməsi də bu böyük və müdrik yanaşmanın nəticəsi olmuşdur: “Belə yanaşma ilə Prezident İlham Əliyev göstərdi ki, tarixinin pisi də, yaxşısı da xalqındır, pisdən düzgün nəticə çıxarmalı, yaxşı, birləşdirici olan isə daim yaşadılmalıdır”.

Bu cür yanaşma, millətinin bəzi övladlarının ruhundakı xəstəlikləri şəfqətlə və siyasətlə müalicə etmə bacarığı da Prezident İlham Əliyevə ailə mühitindən gəlmişdir. Monoqrafiyada onun ana babası görkəmli dövlət xadimi Əziz Əliyevin, anası görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın təsvir olunan həyat yolu və xüsusiyyətləri ilə bağlı məlumatlar da bu fikri bir daha təsdiqləyir.

Monoqrafiyada Prezident İlham Əliyevin dövlətçilik baxışlarına təsir göstərən digər mühüm amil kimi onun aldığı mükəmməl təhsil göstərilir. Məhz bu amil, onun hazırda dünya siyasətinin və diplomatiyasının ən mahir bilicisinə çevrilməsinə gətirib çıxarmışdır.

## Yol

Məqsədə çatmaq üçün YOL və həmin yolda dönməzlik, qətiyyət önəmlidir. Prezident İlham Əliyev siyasi personasını xarakterizə edərkən müşahidə edilən ən mühüm xüsusiyyətlərdən biri budur. Monoqrafiyanın ikinci fəsli “Dövlət rəhbərliyinə aparan yol və qarşıda dayanan əsas vəzifələr” adlanır. Burada Azərbaycan Respublikasının Prezidenti seçilən dövrə qədərki illərdə İlham Əliyevin nadir təşkilatçılıq qabiliyyətindən bəhs edilir. Azərbaycanın neft siyasətinin uğurla reallaşmasında, neft danışıqlarında Azərbaycanın mənafelərinin qətiyyətli müdafiəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi İlham Əliyevin rolu konkret faktlar əsasında tədqiq olunmuş, Milli Olimpiya Komitəsinin prezidenti kimi, ölkədə Olimpiya hərəkatının genişlənməsində misilsiz xidmətləri təsvir edilmişdir. İlham Əliyevin siyasi proseslərin mərkəzinə gəlməsi, Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavini olması, Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi və digər məsələlər tədqiq edilmişdir.

## Həqiqətləri ali kürsülərdən səsləndirmək bacarığı

İlham Əliyev Baş nazir kimi BMT-nin ali kürsüsündə çıxış edərək Azərbaycanın diplomatiya tarixinə parlaq səhifə yazan ilk lider olmuşdur. Monoqrafiyanın üçüncü fəslində həmin nitqdə səsləndirilən fikirlər və ideyaların sistemli politoloji və tarixi təhlili aparılıb. Bu nitqdə dünyada hərbi təcavüzün qarşısının alınması, münaqişələrin dinc yolla aradan qaldırılması ilə bağlı çox mühüm fikirlər səsləndirilmişdi. İlham Əliyev BMT-nin təşkilati problemlərini, Təhlükəsizlik Şurasının fəaliyyətinin səmərəliliyini azaldan amilləri açıq şəkildə BMT kürsüsündən səsləndirən ilk dünya liderlərindən biri olmuşdur.

Bununla paralel olaraq İlham Əliyev Azərbaycanın qarşısında dayanan başlıca məqsədə çatmaqdan ötrü BMT ilə əməkdaşlığa dinamizm gətirən liderdir. Məhz bu dinamik əməkdaşlıq nəticəsində Azərbaycan tarixində ilk dəfə olaraq 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, iki il müddətində dünyanı idarə edən, dünya geosiyasətinin ən aktual problemlərini müzakirə edən dövlətlərdən birinə çevrilmişdir. Monoqrafiyanın IV fəsli də məhz tariximizdəki bu ilkin tədqiqinə həsr edilmişdir. Burada müəllif Azərbaycan dövlətinin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, sədrlik etməsi ilə bağlı məsələləri tədqiq etmişdir. Tariximizin bu mühüm ilkləri ilə bağlı monoqrafiyada yazılır: “Beləliklə, müstəqillik tarixinə Prezident İlham Əliyevin yaratdığı ilk kimi keçən BMT Təhlükəsizlik Şurasına üzvlüyü və sədrliyi müddətində Azərbaycan Respublikası üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi. İki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdi, beynəlxalq hüquq normalarının və ədalətin müdafiəsinə çalışdı. Təhlükəsizlik Şurasına sədrliyi zamanı sülh və beynəlxalq təhlükəsizliyə dair qlobal, yaxud regional əhəmiyyətli məsələlərin gündəliyini müəyyənləşdirdi. Bütün məsələlər barəsində Azərbaycan Respublikasının aydın mövqeyi var idi. Terrordan və işğaldan əziyyət çəkmiş ölkə kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidləri, o cümlədən Ermənistanın təcavüzkar siyasətini daim gündəmdə saxladı”.

## Dövlət canlı orqanizmdir, daim genişlənməlidir

Monoqrafiyanın V fəslində canlı orqanizm kimi daim genişlənən dövlətin tarixinə Prezident İlham Əliyevin siyasəti nəticəsində qızıl hərflərlə həkk olunan digər ilklərdən bəhs olunur. Xəzər və Aralıq dənizi regionlarında Azərbaycanın şəksiz nüfuzunun təsdiqinə çevrilmiş Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilməsi, məhz İlham Əliyevin dünyanın enerji geosiyasətindəki usta gedişləri sayəsində Avropanın enerji xəritəsinin demək olar ki, yenidən tərtib edilməsi, TANAP, TAP layihələrinin, Cənub Qaz Dəhlizinin reallaşdırılması, Azərbaycanın etibarlı nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikilib istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılan addımlar məhz bu fəsildə tədqiq və təhlil edilmişdir. Açıq dənizlərə çıxışı olmayan, qapalı Xəzər hövzəsində yerləşən Azərbaycanı beynəlxalq dəniz nəqliyyatı qovşağına çevirən rəhbər də məhz İlham Əliyev olmuşdur. M.Qasımlı yazır ki, 2018-ci il mayın 14-də Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılmasına dair tədbirlər haqqında sərəncamı imzalamasında başlıca məqsəd Azərbaycanın logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsindən ibarət idi.

Bu fəsildə aparılan təhlillər nəticəsində müəllif belə qənaətə gəlir ki, Prezident İlham Əliyev “dövlət canlı orqanizmdir, daim genişlənməlidir” geosiyasi nəzəriyyəsini həyata keçirən, Azərbaycanı borc alan ölkədən kapital ixrac edən ölkəyə çevirən, Bakı – Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərini, Cənub Qaz Dəhlizini, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərini, TANAP, TAP layihələrini gerçəkləşdirərək Azərbaycan Respublikasını Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib ölkə kimi rolunu artıran, dünya siyasətində yerini möhkəmləndirən dövlət rəhbəridir. Bakı – Tbilisi – Qars dəmir yolu, Şimal – Cənub nəqliyyat dəhlizi və Ələt Beynəlxalq Dəniz Limanı Azərbaycanı dünyanın əhəmiyyətli nəqliyyat, tranzit, logistika mərkəzinə çevirmişdir.

## Beynəlxalq təşkilatların qurucusu

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət xəttinin Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilməsinin nəticələrindən biri də məhz budur. Vaxtilə beynəlxalq təşkilatlara üzv olmaq üçün aylarla, illərlə iş aparan Azərbaycan Respublikası indi özü beynəlxalq təşkilatların qurucusudur. Azərbaycan bəzi təşkilatlara, hərəkatlara qlobal geosiyasətə qayıdış üçün imkan yaradan dövlətə çevrilmişdir. Monoqrafiyanın VI fəslində müəllif Türk Dövlətləri Əməkdaşlıq təşkilatının qurulması, qarşıda dayanan hədəflər, əməkdaşlığın inkişaf etdirilməsində və Türk birliyinin geosiyasi amilə çevrilməsində cənab İlham Əliyevin rolundan bəhs edir. Müxtəlif beynəlxalq toplantılarda İlham Əliyevin bütün Türk dünyasını necə şərəflə təmsil etdiyini, türk dövlətlərinin hüquqlarını müdafiə etdiyini xatırladır, bu məsələdə Prezidentin vaxtilə cəsarətlə söylədiyi “Türkiyə masa arxasında yoxdur, amma mən burdayam” fikrinə istinad edir. Müəllif yazır: “Prezident İlham Əliyev türk dövlətləri arasında əməkdaşlığa xüsusi töhfə verən, Türk Dövlətləri Təşkilatının yaradılmasında müstəsna rol oynayan, 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbə və lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanda separatizmin kökünü birdəfəlik kəsərək, gələcək nəsilləri bu problemdən qurtaran, türk dövlətlərinin, müstəqil dövlətləri olmayan türk xalqlarının başını uca edən və onlara yol göstərən böyük dövlət adamıdır. O, türk dövlətlərinin müdafiə, təhlükəsizlik və əməkdaşlığının qurulması təklifini irəli sürməklə türk xalqlarının qədim Turan Ordusu arzusunu ifadə etmişdir. Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramının Praqada keçirilən zirvə görüşündə Ermənistan başçısına tutarlı cavab verən Prezident İlham Əliyev gələcək türk dövlət başçıları, siyasətçiləri və ictimai xadimləri üçün bir nümunə yaratmışdır”.

## Vətənini “kosmik klub”un üzvü edən lider

Prezident İlham Əliyevin müstəqillik tarixində yaratdığı ilklərdən biri Azərbaycan Respublikasını kosmos dövləti etməsidir. Onun prezidentlik illəri müstəqil Azərbaycan Respublikasının tarixində yüksək texnologiyaların inkişafı və kosmik sənayenin yaradılması dövrü kimi xarakterizə edilir.

Monoqrafiyanın VII fəslində müəllif ilk növbədə niyə Prezident İlham Əliyevin Azərbaycanı kosmik klubun üzvünə çevirmək istəməsi sualını cavablandırmış, kosmik peyklərin Azərbaycana qazandırdığı yeni imkanlar və üstünlüklərdən bəhs etmişdir. Əsərdə vurğulanır ki, kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin, o cümlədən digər çoxməqsədli peyklərin orbitə buraxılması ilə xarici ölkələrdən asılılıq aradan qaldırılmış və informasiya təhlükəsizliyinin təmin edilməsi, ölkədə yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, tam təchizatlı maddi-texniki bazanın yaradılması, elm tutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması istiqamətində aparılmışdır. Müəllif haqlı olaraq vurğulayır ki, peyklərin ötürdüyü məlumatlar 44 günlük müharibədə işğalçı Ermənistan üzərində qələbə qazanılmasında mühüm olmuşdur.

## Güclü və yumşaq güclü Azərbaycan

Prezident İlham Əliyev Azərbaycan dövlətçilik tarixində yeni ənənələr yaradan, “yumşaq gücü” uğurla tətbiq edən liderdir. Bu siyasətin reallaşdırılmasında onun ən böyük silahdaşı isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva olmuşdur.

Monoqrafiyanın VIII fəslində “Avroviziya” musiqi yarışmasında Azərbaycan təmsilçilərinin qalib gəlməsi və yarışın 2012-ci ildə Azərbaycanda keçirilməsi, 2013-cü ildə Birinci Avropa oyunlarının Azərbaycanda təşkili, İslam dünyasının birlik rəmzi kimi Bakıda IV İslam Həmrəyliyi oyunlarının baş tutması məhz Prezident İlham Əliyevin yürütdüyü siyasətin mədəniyyət və idman sahəsində beynəlxalq əks-sədası olmuşdur. Eks-prezidentlər haqqında qanunun qəbul edilməsi ilə dövlətçilikdə yeni ənənənin əsası qoyulmuşdur.

Fəsildə vurğulanır ki, Prezident İlham Əliyev Azərbaycan millətinin qarşısında dayanan başlıca hədəfə – işğal altında olan torpaqların azad edilməsinə nail olmaqdan ötrü “yumşaq güc”dən məharətlə istifadə edərək bir ilk yaratdı. “Avroviziya” musiqi yarışmasının, I Avropa, IV İslam Həmrəyliyi oyunlarının Azərbaycanda keçirilməsi təkcə mədəniyyət və idman hadisəsi olmadı. Bunlar daha geniş məna daşıyaraq başlıca hədəfə çatmaqdan ötrü şərait yaratmaqda vasitə oldular. Dünya Azərbaycan gerçəkliklərini gördü. Müstəqil Azərbaycan tarixində Prezident İlham Əliyevin yaratdığı ilklərdən biri eks-prezidentlər haqqında qanunun qəbul edilməsidir. Bununla Azərbaycan dövlətçilik tarixində yaxşı bir ənənənin əsası qoyuldu, Prezident İlham Əliyev milli birlik, bərabərlik və haqq-ədalət rəmzi oldu.

## Ərazi bütövlüyünü və dövlət suverenliyini bərqərar edən Ali Baş Komandan

Prezident kimi ilk andiçmə mərasimində Azərbaycan millətinin qarşısında dayanan vəzifələrdən bəhs edən İlham Əliyev ən başlıca məqsədin ərazi bütövlüyünün təmin edilməsi, suverenliyin bərpası olduğunu vurğulamışdı. Kitabın IX fəslində milli ideyanın gerçəkləşdirilməsi – dövlət suverenliyinin bərqərar edilməsinə gedən yoldan, atılan addımlardan, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində təkcə Ermənistan üzərində deyil, onun havadarları, dünyadakı erməni terror-siyasi təşkilatları üzərində qazanılan tarixi qələbə hərtərəfli şəkildə təhlil edilmişdir. Qazanılan böyük Zəfərin Heydər Əliyev siyasətinin təntənəsi, Prezident İlham Əliyevin liderliyində yürüdülən daxili və xarici siyasətin düzgünlüyünün təsdiqi olması konkret faktlar əsasında sübut olunmuşdur. Burada, eyni zamanda, qazanılan möhtəşəm qələbədən sonra Azərbaycan üçün yaranan imkanlar və potensial təhdidlər məsələsinə də toxunulmuşdur.

Fəsildə qeyd olunur ki, 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri ilə ölkə tarixində yeni siyasi mərhələ başlamışdır. Prezidentin Azərbaycan dövlətinin, xalqının doğma ailəsinin Türk dünyası olması ilə bağlı fikirlərinin də siyasi-nəzəri təhlili monoqrafiyada bütün dəqiqliyi ilə verilmişdir. Musa Qasımlı bu fəsilə yekun vuraraq yazır: “Prezident İlham Əliyev 1988-ci ildən bəri Azərbaycan xalqının qarşısında dayanan başlıca vəzifəni - təcavüzkar Ermənistanı məğlub edərək işğalçını torpaqlardan qovan, dövlət sərhədləri üzərində nəzarəti quran, dövlət suverenliyini bütün ölkə ərazisində tamamilə bərqərar edən, Xankəndidə separatçıları diz çökdürən, separatçılığın kökünü həmişəlik kəsən, dövlət bayrağını ucaldan, hərbi parad keçirən ilk və tək dövlət rəhbəridir. Qazanılan qələbə təkcə Azərbaycanın deyil, bütün türk dünyasının zəfəridir, ədalətsizliyə uğramış xalqlara yol göstərir”.

O haqlı olaraq qeyd edir ki, növbədənkənar prezident seçkilərində İlham Əliyev səsini Xankəndi şəhərində yaradılmış seçki məntəqəsində verməklə özünün dediyi kimi, “separatçılığın tabutuna son mismarı vurmuşdur”.

## Prezidentin iş üslubunu təhlil edən ilk əsər

Adətən, müasir tarixə dair yazılmış əsərlərdə, eləcə də siyasi mövzulu monoqrafiyaların sonunda hər zaman gələcək proqnozlaşdırılır. Hər kəsin addım atacağını gözlədiyi yerdə, Prezident İlham Əliyev səbr edib ideal zamanı gözləyən, hər kəs dayanmalı olduğumuzu düşündüyü anda isə addım ataraq bütün vəziyyəti lehimizə çevirə bilən liderdir. Prezident İlham Əliyevi digərlərindən fərqləndirən, ona ardıcıl zəfərlər qazandıran ən mühüm xüsusiyyəti də məhz budur. O, nəyi, nə vaxt, necə edəcəyini gözəl bilir. “İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003-2024)” kitabının müəllifi də məhz bu məqamı nəzərə alıb. Prezident İlham Əliyevin atacağı gələcək addımları deyil, iş üslubunu təhlil edib, qazanılan uğurların yorulmazlıq, ciddiyyət, qətiyyət və tələbkarlıq prinsiplərindən irəli gəldiyini göstərib, etdiyi səfərlərə, dünya liderlərinin Azərbaycanın dövlət başçısının şəxsiyyəti və siyasəti barədə fikirlərinə diqqət yetirib.

## Nəticə

Elə nəticələr var ki, onlar təkcə keçmişin yekunu yox, həm də gələcəyin başlanğıcıdır. Hesab edirik ki, M.Qasımlının müəllifi olduğu bu monoqrafiya Prezident İlham Əliyevin fəaliyyətinin gələcək tədqiqi üçün əsas istiqamətverici mənbə rolunu oynayacaqdır. Yazını isə elə müəllifin monoqrafiyasını bitirdiyi cümlələrlə də tamamlamaq yerinə düşər: “Yol düzgün seçiləndə və təməlləri möhkəm olanda millət və dövlət bütün təlatümlərdən uğurla çıxır. Yol düzgün, təməllər isə möhkəmdir. Deməli, davam etdirilməlidir. Azərbaycanın daha gözəl gələcəyi vardır”.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik,***
***Elnur KƏLBİZADƏ,***
***Günel MUSAYEVA,***
***AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdirləri***

# Dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət investisiya xərclərinin səmərəliliyinin artırılması, dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 17 mart tarixli 239 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 190 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları" yeni redaksiyada verilsin (əlavə olunur).

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan Qaydaların 7.2-ci bəndinə uyğun olaraq, Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi qaydasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan Qaydaların 2.15-ci, 3.4-cü, 3.16-cı və 5.2-ci bəndlərində qeyd olunan formaları iki ay müddətində təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan Qaydalar 2025-ci il aprelin 1-dək tərtib olunmuş investisiya layihələrinə və onların qiymətləndirilməsinə şamil edilmir.

**5** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 605 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "16.2-ci" sözlərindən sonra ", 17.3-cü (ikinci halda)" sözləri əlavə edilsin;

5.2. 2.4-cü bənddən "17.3-cü (ikinci halda)," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Respublika Qan Bankı" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 151 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575 (Cild I) 2-ci hissəsində "(Mərkəzi Qan Bankının Gəncə bölməsi, Mərkəzi Qan Bankının Şəki bölməsi, Mərkəzi Qan Bankının Quba bölməsi, Mərkəzi Qan Bankının Sumqayıt bölməsi, Mərkəzi Qan Bankının Lənkəran bölməsi, Mərkəzi Qan Bankının Bərdə bölməsi, Mərkəzi Qan Bankının Şirvan bölməsi, Mərkəzi Qan Bankının Mingəçevir bölməsi" sözləri ", Respublika Qan Bankı (Respublika Qan Bankının Gəncə, Şəki, Quba, Sumqayıt, Lənkəran, Bərdə, Şirvan və Mingəçevir bölmələri" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın "10. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsinin 2.5.16-cı yarımbəndində (hər dörd halda) "Mərkəzi" sözü "Respublika" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 dekabr 2024-cü il**

# Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasında Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

1.2. Bu Qaydaların 2-ci (2.1–2.4-cü, 2.14-cü, 2.17-ci və 2.18-ci bəndlər istisna olmaqla), 3–5-ci, 7-ci və 8-ci hissələri müdafiə, təhlükəsizlik və hərbi təyinatlı investisiya layihələrinə şamil edilmir.

1.3. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan tədbirlərin icrasının əlaqələndirilməsini və onların yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – İqtisadiyyat Nazirliyi) həyata keçirir.

1.4. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.4.1. Dövlət İnvestisiya Proqramı (bundan sonra – Proqram) – ortamüddətli dövr üçün dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) və bu Qaydalarda nəzərdə tutulan digər mənbələr hesabına investisiya xərclərinin istiqamətlərini, müddətini, həcmini, sifarişçi təşkilatları və sifarişçi təşkilatlar üzrə investisiya layihələrinin adlı siyahısını müəyyən edən sənəd;

1.4.2. sifarişçi təşkilatların investisiya proqramları – keçid investisiya layihələrinin, həmçinin layihə konsepsiya sənədi əsasında İqtisadiyyat Nazirliyi tərəfindən müsbət rəy verilərək prioritet dövlət investisiya layihələrinin siyahısına daxil edilən yeni investisiya layihələrinin məcmusu;

1.4.3. investisiya xərcləri – Proqrama uyğun olaraq sifarişçi təşkilatların aktivlərinin artırılması (tikintisi, əsaslı təmiri, bərpası, yenidən qurulması, avadanlıq və inventarla təchizatı, proqram təminatının yaradılması və s.) üçün nəzərdə tutulan xərclər;

1.4.4. investisiya layihəsi – qarşıya qoyulmuş ümumi məqsədə çatmaq üçün yeni aktivlərin yaradılmasına, mövcud aktivlərin əsaslı təmirinə, bərpasına, yenidən qurulmasına, habelə avadanlıq, inventar və maşın-mexanizmin təchizatına yönəldilmiş və müəyyən edilmiş müddət ərzində görüləcək işlərin təsviri;

1.4.5. ilkin rəy – iri investisiya layihələri üzrə hazırlanmış layihə konsepsiya sənədinə dair İqtisadiyyat Nazirliyinin rəyi;

1.4.6. aralıq rəy – ilkin texniki-iqtisadi əsaslandırma sənədinə dair İqtisadiyyat Nazirliyinin yekun təsdiqi bildirməyən rəyi;

1.4.7. yekun rəy – investisiya layihəsinin ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasına, strategiyasına və dövlət proqramlarına uyğunluğu, iqtisadi və sosial əhəmiyyəti baxımından icrasının məqsədəuyğunluğu barədə İqtisadiyyat Nazirliyinin rəyi;

1.4.8. prioritet dövlət investisiya layihələrinin siyahısı – sifarişçi təşkilatın hazırlayıb İqtisadiyyat Nazirliyinə təqdim etdiyi və İqtisadiyyat Nazirliyi tərəfindən barəsində müsbət rəy verilən investisiya layihələrinin məcmusu;

1.4.9. sifarişçi təşkilat – dövlət orqanları, büdcədənkənar dövlət fondları, dövlət adından yaradılan publik hüquqi şəxslər, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və digər dövlət müəssisə və təşkilatları (idarələri);

1.4.10. investisiya layihəsinin icraçısı (podratçısı) – müəyyən edilmiş müddətdə və maliyyə vəsaiti çərçivəsində investisiya layihəsinin həyata keçirilməsi məqsədilə sifarişçi təşkilat tərəfindən normativ hüquqi aktlara uyğun olaraq satınalma yolu ilə cəlb edilmiş hüquqi və ya fiziki şəxs;

1.4.11. investisiya layihəsinin icrasının monitorinqi – investisiya layihəsinin həyata keçirilməsinin yoxlanılması, investisiya obyektinə baxış keçirilməsi, investisiya layihəsinin icrası barədə məlumatların toplanılması, təhlili və işlərin layihə büdcəsinə və icra qrafikinə uyğunluğunun yoxlanılması;

1.4.12. investisiya layihəsinin nəticələrinin qiymətləndirilməsi – investisiya layihəsinin icrasının tamamlanmasından və investisiya obyektinin istismara verilməsindən azı 6 (altı) ay keçdikdən sonra onun icrasının nəticələrinin və təsirinin müəyyən edilməsi;

1.4.13. layihə konsepsiya sənədi – təklif edilən yeni investisiya layihələrinin göstəriciləri barədə məlumatları özündə əks etdirən sənəd;

1.4.14. texniki-iqtisadi əsaslandırma – investisiya layihəsinin texniki, iqtisadi və maliyyə cəhətdən həyata keçirilməsinin məqsədəuyğunluğunun qiymətləndirilməsini, o cümlədən GZİT (güclü tərəflər, zəif tərəflər, imkanlar, təhlükələr) təhlilini, risklərin qiymətləndirilməsini, hüquqi və ekoloji aspektləri özündə əks etdirən sənəd;

1.4.15. investor – investisiya fəaliyyətini həyata keçirən Azərbaycan Respublikası vətəndaşı, Azərbaycan Respublikasının hüquqi şəxsi, həmçinin əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər və onların filial və nümayəndəlikləri, beynəlxalq təşkilatlar;

1.4.16. keçid investisiya layihələri – Proqram çərçivəsində icra olunan, lakin icrası bir büdcə ilindən artıq müddəti əhatə edən investisiya təklifləri;

1.4.17. yeni investisiya layihələri – sifarişçi təşkilatlar tərəfindən bu Qaydaların 3-cü hissəsinin tələblərinə əsasən hazırlanaraq İqtisadiyyat Nazirliyinə təqdim olunan investisiya təklifləri;

1.4.18. investisiya layihəsinin icrası – investisiya layihəsinin maliyyələşdirilməsi ilə onun tamamlanması arasındakı müddət (texniki-iqtisadi əsaslandırmanın, layihə-smeta sənədlərinin hazırlanması və bütün digər hazırlıq tədbirlərinin görülməsi müddətləri istisna olmaqla) və tədbirlər;

1.4.19. icra planı – layihənin icrasına yönəlmiş ardıcıl tapşırıqları, məsuliyyəti, resursları və vaxt qrafiklərini əks etdirən sənəd;

1.4.20. investisiya layihələrinin qiymətləndirilməsi – sifarişçi təşkilatlar tərəfindən təqdim edilmiş layihə konsepsiya sənədinin, ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırma sənədlərinin təhlili;

1.4.21. layihə-smeta sənədləri – şəhərsalma və tikinti normativ sənədləri ilə müəyyən edilmiş və konkret obyektin tikintisi (inşası, təmiri, yenidən qurulması, bərpası və ya sökülməsi) ilə bağlı hazırlanmış, habelə tikintiyə sərf ediləcək maliyyə xərclərinin əks olunduğu sənədlər;

1.4.22. Proqramın rasionallaşdırılması – dövlət vəsaitindən səmərəli və qənaətlə istifadəni təmin etmək məqsədilə Proqrama daxil edilən investisiya layihələrinin təhlili nəticəsində Proqramın optimallaşdırılması prosesi.

1.5. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

### 2. Proqramın tərtibi və icrası

2.1. Proqramın layihəsi ortamüddətli sosial-iqtisadi inkişaf konsepsiyaları, strategiyaları və dövlət proqramları əsasında investisiya siyasətinin başlıca istiqamətləri və prioritetləri, eləcə də Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi prioritetlər (layihələr) nəzərə alınmaqla İqtisadiyyat Nazirliyi tərəfindən tərtib edilir.

2.2. Proqram bu Qaydalara əsasən prioritet dövlət investisiya layihələrinin siyahısına daxil edilən investisiya layihələrindən və Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Proqrama daxil edilmiş layihələrdən, o cümlədən müdafiə, təhlükəsizlik və hərbi təyinatlı investisiya layihələrindən formalaşdırılır.

2.3. Proqram aşağıdakı mənbələr hesabına maliyyələşdirilir:

2.3.1. dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri);

2.3.2. birgə maliyyələşdirmə;

2.3.3. qrantlar.

2.4. Proqrama daxil edilmiş layihələrin birgə maliyyələşdirilməsi üçün bu Qaydaların 2.3.1-ci və (və ya) 2.3.3-cü yarımbəndlərində nəzərdə tutulmuş mənbə ilə yanaşı cəlb olunan vəsaitlər aşağıdakılardır:

2.4.1. dövlət zəmanəti ilə dövlət tərəfindən cəlb edilən borc vəsaiti;

2.4.2. dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən dövlət zəmanəti olmadan cəlb edilən borc vəsaiti;

2.4.3. büdcədənkənar dövlət fondlarının investisiya xərcləri;

2.4.4. dövlət büdcəsinin məqsədli büdcə fondlarının vəsaiti;

2.4.5. səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin vəsaiti;

2.4.6. dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaiti;

2.4.7. büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar vəsaiti;

2.4.8. dövlət–özəl tərəfdaşlığı çərçivəsində icra edilən layihələrdə özəl tərəfdaş və kreditorlar tərəfindən təmin edilən vəsait;

2.4.9. Naxçıvan Muxtar Respublikasının büdcəsi;

2.4.10. dövlət büdcəsinin ehtiyat fondları;

2.4.11. dövlət büdcəsinin bölüşdürülməmiş xərcləri;

2.4.12. qanunla qadağan olunmayan digər mənbələr.

2.5. Proqramın tərtib olunması məqsədilə sifarişçi təşkilatlar, İqtisadiyyat Nazirliyinin müraciətinə əsasən, keçid investisiya layihələrini və layihə konsepsiya sənədi müsbət qiymətləndirilərək prioritet dövlət investisiya layihələrinin siyahısına daxil edilən yeni investisiya layihələrini, habelə bu Qaydaların 2.7-ci bəndi ilə müəyyən edilmiş tələblərə uyğun olaraq ortamüddətli dövr üçün investisiya proqramlarının ilkin layihəsini hər il fevralın 20-dək (paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan və Müşahidə Şurası mövcud olan hüquqi şəxslər Müşahidə Şurasının müvafiq qərarı ilə birlikdə) İqtisadiyyat Nazirliyinə təqdim edirlər.

2.6. Sifarişçi təşkilatların investisiya proqramları Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi sahələrin sektorlar üzrə strateji planları nəzərə alınaraq tərtib olunur.

2.7. Sifarişçi təşkilatlar investisiya proqramlarında təklif olunan investisiya layihələrinin Proqrama daxil edilməsi üçün aşağıdakı sənədləri və məlumatları İqtisadiyyat Nazirliyinə təqdim edirlər:

2.7.1. investisiya layihələri üzrə növbəti büdcə ili və layihə tamamlanana qədər sonrakı illər üçün pul vəsaiti axınının proqnozunu;

2.7.2. keçid investisiya layihələri üzrə bağlanılmış müqavilələrin surətini;

2.7.3. növbəti ildə başlanılması təklif olunan yeni investisiya layihələrinin dövlət ekspertizasından keçirilmiş və təsdiq edilmiş layihə-smeta sənədlərini;

2.7.4. növbəti ildən sonrakı üç il müddətində başlanılması təklif olunan yeni investisiya layihələri üçün texniki-iqtisadi əsaslandırmaları, habelə dövlət ekspertizasından keçirilmiş və təsdiq edilmiş layihə-smeta sənədlərini;

2.7.5. hər bir investisiya layihəsinin maliyyələşdirilmə mənbələri (bu Qaydaların 2.3-cü və 2.4-cü bəndlərində nəzərdə tutulan mənbələr dəqiq göstərilməklə) barədə məlumatları;

2.7.6. İqtisadiyyat Nazirliyinin sorğusuna əsasən, investisiya layihələrinin xüsusiyyətlərindən asılı olaraq investisiya layihəsinə dair digər məlumatları.

2.8. İnvestisiya layihələrinə dair bu Qaydaların 2.7-ci bəndində nəzərdə tutulan sənədlər və məlumatlar təqdim olunmadığı təqdirdə, həmin investisiya layihələri Proqrama daxil edilmir.

2.9. İqtisadiyyat Nazirliyi sifarişçi təşkilatların investisiya təkliflərinə əsasən, hər ortamüddətli dövr üçün dövlət büdcəsində dövlət investisiya xərcləri üçün tələb olunan vəsaitin həcmi barədə cari il martın 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə (bundan sonra – Maliyyə Nazirliyi) sorğu göndərir.

2.10. Maliyyə Nazirliyi hər ortamüddətli dövr üçün dövlət büdcəsində dövlət investisiya xərclərinin ilkin ortamüddətli göstəricilərini cari il martın 31-dək, dəqiqləşdirilmiş məbləğini isə iyulun 20-dək İqtisadiyyat Nazirliyinə təqdim edir.

2.11. Maliyyə Nazirliyinin təqdim etdiyi investisiya xərclərinin məbləğinə uyğun olaraq, İqtisadiyyat Nazirliyi keçid və yeni investisiya layihələri, habelə sifarişçi təşkilatların investisiya proqramları əsasında ortamüddətli dövr üçün Proqramın müvafiq istiqamətlər üzrə ilkin layihəsini cari il aprelin 5-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına, aprelin 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə (bundan sonra – Nazirlər Kabineti), müvafiq istiqamətlər üzrə dəqiqləşdirilmiş layihəsini dövlət büdcəsinə uyğunlaşdırmaq məqsədilə avqustun 1-dək Maliyyə Nazirliyinə, növbəti il üçün dövlət büdcəsinin layihəsinə dair rəyin hazırlanması məqsədilə sentyabrın 15-dək Azərbaycan Respublikasının Hesablama Palatasına (bundan sonra – Hesablama Palatası) təqdim edir.

2.12. Sifarişçi təşkilatlar İqtisadiyyat Nazirliyi tərəfindən bu Qaydalara uyğun olaraq müsbət yekun rəy verilmiş investisiya layihələri əsasında növbəti ilin dəqiqləşdirilmiş investisiya proqramının layihəsini, o cümlədən Azərbaycan İnvestisiya Holdinqinin və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin idarəetməsinə verilmiş dövlət qurumlarının növbəti il üçün həmin holdinqlərin müşahidə şuralarının qərarlarında dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuş investisiya proqramlarının (investisiya layihələrinin) dəqiqləşdirilmiş layihəsini (qərarla birlikdə) cari il dekabrın 1-dək İqtisadiyyat Nazirliyinə təqdim edir. Bu tarixdən sonra təqdim edilən təkliflərə baxılmır.

2.13. İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi tərəfindən cari il dekabrın 25-dək dövlət investisiya proqramına daxil edilmiş və maliyyələşdirilməsi dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən həyata keçirilən layihələrin icra vəziyyətinə baxılır.

2.14. İqtisadiyyat Nazirliyi hər il dekabrın 25-dək Proqrama daxil edilmiş keçid investisiya layihələrinin icra vəziyyəti və yeni investisiya layihələrinin qiymətləndirilməsi nəticələri nəzərə alınmaqla və Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Proqrama daxil edilmiş layihələr, o cümlədən müdafiə, təhlükəsizlik və hərbi təyinatlı investisiya layihələri də daxil olmaqla, növbəti ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünün layihəsini hazırlayır və təsdiq edilmək üçün hər il yanvarın 10-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

2.15. Dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü təsdiq edildikdən sonra sifarişçi təşkilatlar 10 (on) gün müddətində, bu Qaydaların 2.3-cü və 2.4-cü bəndlərində göstərilən mənbələr də nəzərə alınmaqla, büdcə ili üçün investisiya layihələri üzrə icra planını İqtisadiyyat Nazirliyinin müəyyən etdiyi formaya uyğun olaraq təsdiqləyib İqtisadiyyat Nazirliyinə təqdim edirlər.

2.16. Proqrama daxil edilən investisiya layihələrinin icrası bu Qaydaların 2.3-cü və 2.4-cü bəndlərində göstərilmiş maliyyələşmə mənbələri üzrə hər il üçün ayrılan vəsait hesabına və sifarişçi təşkilatlar tərəfindən hər il üzrə təsdiq edilən icra planına əsasən təmin olunur.

2.17. Dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü təsdiq edildikdən sonra Maliyyə Nazirliyi həmin bölgüdə göstərilən investisiya layihələri üzrə nəzərdə tutulan vəsaitin ayrılmasını təmin edir və investisiya layihələrinin maliyyələşməsinə dair aylıq məlumatları növbəti ayın 5-dək İqtisadiyyat Nazirliyinə təqdim edir.

2.18. Cari ilin dövlət büdcəsində dəyişiklik edilməsi ilə əlaqədar dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün əlavə vəsait nəzərdə tutularsa, cari ilin təsdiq olunmuş bölgüsündə də müvafiq dəyişiklik edilir və İqtisadiyyat Nazirliyi tərəfindən istiqamətlər üzrə bölgü 10 (on) iş günü müddətində Hesablama Palatasına təqdim edilir.

### 3. İnvestisiya layihələrinin tərtibi və qiymətləndirilməsi

3.1. İnvestisiya layihələri üzrə təkliflər sifarişçi təşkilatlar tərəfindən ölkənin ümumi sosial-iqtisadi inkişaf konsepsiyalarına, strategiyalarına və dövlət proqramlarına, habelə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi prioritetlərə (layihələrə) və sektorlar üzrə strateji planlara uyğun olaraq səmərəlilik və effektivlik prinsipləri əsasında tərtib edilir.

3.2. İnvestisiya layihələri dəyərinə görə aşağıdakı kimi təsnifləşdirilir:

3.2.1. kiçik investisiya layihələri – dəyəri 30,0 milyon manata qədər olan investisiya layihələri;

3.2.2. orta investisiya layihələri – dəyəri 30,0 milyon manatdan 50,0 milyon manata qədər olan investisiya layihələri;

3.2.3. iri investisiya layihələri – dəyəri 50,0 milyon manatdan çox olan investisiya layihələri.

3.3. İnvestisiya layihələrinin qiymətləndirilməsi layihə konsepsiyası, ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması mərhələləri üzrə İqtisadiyyat Nazirliyi tərəfindən aparılır.

3.4. Sifarişçi təşkilatlar hər bir yeni investisiya layihəsi üzrə İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş formaya uyğun olaraq layihə konsepsiya sənədini cari il iyulun 1-dək İqtisadiyyat Nazirliyinə təqdim edirlər.

3.5. Layihə konsepsiya sənədində aşağıdakı məlumatlar əks etdirilir:

3.5.1. sifarişçi təşkilatın adı;

3.5.2. investisiya layihəsinin adı;

3.5.3. investisiya layihəsinin həyata keçiriləcəyi yer;

3.5.4. investisiya layihəsinin məqsədi və əsaslandırılması (layihə üçün tələbat, həlli nəzərdə tutulan konkret problem və gözlənilən nəticələr);

3.5.5. investisiya layihəsinin ölkənin ümumi sosial-iqtisadi inkişaf konsepsiyalarına, strategiyalarına və dövlət proqramlarına, habelə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi prioritetlərə (layihələrə) və sektorlar üzrə strateji planlara uyğunluğu;

3.5.6. layihə məqsədinə çatmaq üçün alternativ variantlar;

3.5.7. investisiya layihəsinin strukturu və layihənin icrasına cəlb edilməsi proqnozlaşdırılan işçi sayı;

3.5.8. investisiya layihəsinin icra müddəti;

3.5.9. investisiya layihəsinin ehtimal olunan dəyəri və ona dair ilkin hesablamalar (o cümlədən kiçik və orta investisiya layihələrinin layihə-smeta sənədlərinin hazırlanmasının, iri investisiya layihələri üçün texniki-iqtisadi əsaslandırma sənədlərinin, dəyəri bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən məbləğin 3 mislindən yuxarı olan iri investisiya layihələri üçün ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırma sənədlərinin, qanunla nəzərdə tutulmuş müvafiq razılaşdırmaların və torpaqların dövlət ehtiyacları üçün alınması işlərinin ehtimal olunan dəyəri);

3.5.10. investisiya layihəsinin davamlılığının təhlili (aktivlərə sahiblik (balans sahibi), əməliyyat və istismar məsuliyyəti, əməliyyat və istismar xərcləri);

3.5.11. investisiya layihəsi icra olunmadıqda gözlənilən nəticələr;

3.5.12. sosial təsirin qiymətləndirilməsinin tələb olunub-olunmayacağı barədə məlumatlar (kiçik və orta investisiya layihələri üzrə mövcud olduğu halda həmçinin sosial təsirlər);

3.5.13. investisiya layihəsinin həyata keçirilməsinin ətraf mühitə, o cümlədən iqlim dəyişikliyinə və atmosferə atılan karbon qazının miqdarının azaldılmasına təsiri;

3.5.14. investisiya layihəsinin maliyyələşdirilmə mənbəyi (bu Qaydaların 2.3-cü və 2.4-cü bəndlərində nəzərdə tutulan mənbələr dəqiq göstərilməklə);

3.5.15. investisiya layihəsinin yalnız dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirildiyi halda bunun zəruriliyinin əsaslandırılması;

3.5.16. investisiya layihəsinin icrası üçün satınalma və icra planı;

3.5.17. kənar maliyyələşdirmə nəzərdə tutulduğu halda potensial investorlar və maliyyələşdirmə şərtləri haqqında məlumat.

3.6. Bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş layihə konsepsiya sənədinə uyğun formada təqdim edilməyən investisiya təkliflərinə baxılmır.

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi qaydaları

(əvvəli 6-cı səhifədə)

3.7. Sifarişçi təşkilatın təqdim etdiyi layihə konsepsiya sənədi İqtisadiyyat Nazirliyi tərəfindən 60 (altmış) iş günü müddətində qiymətləndirilir və qiymətləndirmə nəticəsində sifarişçi təşkilata kiçik və orta investisiya layihələri üzrə yekun rəy, iri investisiya layihələri üzrə isə ilkin rəy təqdim edilir. Qiymətləndirmə bu Qaydaların 3.5-ci bəndində qeyd olunan məlumatlar əsasında aparılır.

3.8. Müsbət rəy verilmiş investisiya layihələri prioritet dövlət investisiya layihələrinin siyahısına daxil edilir.

3.9. Layihə konsepsiya sənədi əsasında müsbət rəy almış investisiya layihələri üzrə sifarişçi təşkilat həmin rəyə əsasən investisiya layihələrinin təsnifatından asılı olaraq aşağıdakı sənədlərin hazırlanmasını təmin edir (avadanlıq, inventar və maşın-mexanizmin təchizatını nəzərdə tutan investisiya layihələri istisna olmaqla):

3.9.1. kiçik və orta investisiya layihələri üzrə layihə-smeta sənədləri;

3.9.2. dəyəri bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən məbləğin 3 mislindən yuxarı olan iri investisiya layihələri üzrə ilkin texniki-iqtisadi əsaslandırma sənədləri və onun qiymətləndirilməsi;

3.9.3. dəyəri bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən məbləğin 3 mislinə qədər olan iri investisiya layihələri üzrə texniki-iqtisadi əsaslandırma sənədləri və onun qiymətləndirilməsi.

3.10. Kiçik və orta investisiya layihələrinin layihə-smeta sənədləri üzrə təsdiq edilmiş dəyəri bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən məbləğdən yuxarı olduğu təqdirdə, İqtisadiyyat Nazirliyi tərəfindən həmin investisiya layihələri üzrə texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması sifarişçi təşkilatlardan tələb edilir.

3.11. Dəyəri bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən məbləğin 3 mislindən yuxarı olan iri investisiya layihələri üzrə sifarişçi təşkilatlar tərəfindən ilkin texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanır və onlara dair İqtisadiyyat Nazirliyi tərəfindən müsbət aralıq rəy verildikdən sonra sifarişçi təşkilat texniki-iqtisadi əsaslandırma sənədlərini hazırlayır.

3.12. İlkin texniki-iqtisadi əsaslandırma sənədində aşağıdakı məlumatlar əks olunmalıdır:

3.12.1. investisiya layihəsi üzrə ümumi məlumatlar (layihənin adı, məqsədi, icra edildiyi ərazi və icra müddəti) və layihə tələbatının təhlili;

3.12.2. alternativ variantların təhlili;

3.12.3. hər variant üçün investisiya layihəsi üzrə xərclərin və əldə ediləcək mənfəətin ilkin hesablanması;

3.12.4. hər variant üzrə əsas risklər;

3.12.5. hər variant üzrə ətraf mühitə təsirin ilkin qiymətləndirilməsi;

3.12.6. hər variant üzrə sosial təsirin ilkin qiymətləndirilməsi.

3.13. Texniki-iqtisadi əsaslandırma sənədində aşağıdakı məlumatlar əks olunmalıdır:

3.13.1. investisiya layihəsinin aid olduğu sahədə mövcud vəziyyətin təhlili, mövcud və proqnozlaşdırılan tələbat, daxili və tələb olunduğu halda, xarici bazarlar üzrə aparılan araşdırmaların nəticələri;

3.13.2. alternativ variantların təhlili (və ya ilkin texniki-iqtisadi əsaslandırmada seçilmiş variantın təsdiqlənməsi);

3.13.3. müvafiq texniki əsaslandırma, alınacağı təqdirdə "nou-hau" barədə ətraflı məlumat, bağlanılmış niyyət protokollarının surətləri;

3.13.4. maliyyə mənbələrinin bölgüsü də daxil olmaqla, tələb olunan kapital xərclərinin ətraflı hesablamaları (investisiya layihəsinin bu Qaydaların 2.4.8-ci yarımbəndində göstərilən mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulursa, bunu təsdiq edən müvafiq sənədlər);

3.13.5. investisiya layihəsi üçün pul axınlarının hərəkəti (hesablamaları);

3.13.6. mümkün olduğu hallarda mənfəətin kəmiyyət ifadəsində təsviri (layihənin təsirinə məruz qalan benefisiarların sayı və faydanın bölgüsü daxil edilməklə);

3.13.7. gəlir və xərclərin təhlili (iqtisadi və maliyyə təhlili, o cümlədən xalis cari dəyər, daxili rentabellik norması, layihənin özünü ödəmə müddəti);

3.13.8. investisiya layihəsinin davamlılığı (fiskal məsələlər, aktivlərə sahiblik, əməliyyat və istismar məsuliyyəti, əməliyyat və istismar xərcləri);

3.13.9. iqlim dəyişikliyi də nəzərə alınmaqla ətraf mühitə təsirin qiymətləndirilməsi, o cümlədən investisiya layihəsinin iqlimə təsiri və iqlim dəyişikliyinin investisiya layihəsinə təsiri;

3.13.10. sosial təsirin qiymətləndirilməsi;

3.13.11. risklərin ətraflı təhlili;

3.13.12. GZİT (güclü tərəflər, zəif tərəflər, imkanlar, təhlükələr) təhlili.

3.14. İnvestisiya layihələri üzrə ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması və dövlət ekspertizası xərcləri bu Qaydaların 2.3-cü və 2.4-cü bəndlərində qeyd olunan mənbələr hesabına maliyyələşdirilir.

3.15. Hər ilin dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) bölgüsündə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması, müstəqil ekspertlərin cəlb edilməsi məqsədilə həmin xərclərin 3 faizədək məbləğində əlavə vəsait nəzərdə tutulur və onun bölgüsü İqtisadiyyat Nazirliyinin təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

3.16. İri investisiya layihələri üzrə yekun rəy texniki-iqtisadi əsaslandırma sənədləri əsasında verilir. Sifarişçi təşkilatlar İqtisadiyyat Nazirliyinin təsdiq etdiyi formanı dolduraraq, müvafiq sənədlərlə (aidiyyəti qurumların verdiyi rəy və tövsiyələr, sifarişçi təşkilat tərəfindən müstəqil qiymətləndirmə aparıldığı təqdirdə, onun nəticələri) birlikdə İqtisadiyyat Nazirliyinə təqdim edirlər. Təqdim edilmiş formaya uyğun olaraq İqtisadiyyat Nazirliyi tərəfindən dəyəri bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən məbləğin 3 mislindən yuxarı olan iri investisiya layihələri üzrə hazırlanan ilkin texniki-iqtisadi əsaslandırma sənədləri qiymətləndirilərək müsbət aralıq rəy verildikdən sonra sifarişçi təşkilat tərəfindən həmin investisiya layihələrinin texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanır.

3.17. İqtisadiyyat Nazirliyi investisiya layihələrinin qiymətləndirilməsini sifarişçi təşkilatlar tərəfindən təqdim edilmiş layihə konsepsiya sənədləri, ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma sənədləri (bu Qaydaların 3.4-cü və 3.16-cı bəndləri ilə müəyyən edilmiş formalar və digər layihə sənədləri) əsasında həyata keçirir.

3.18. İri investisiya layihələrinin qiymətləndirilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən müstəqil ekspertlər cəlb edilə bilər.

3.19. İnvestisiya layihəsi təkliflərinin məqsədəuyğunluğu bu Qaydaların 3.16-cı və 3.17-ci bəndlərində nəzərdə tutulan qiymətləndirmələrin nəticələrinə əsasən İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilir.

3.20. İnvestisiya layihələri prioritet dövlət investisiya layihələri siyahısından aşağıdakı hallarda çıxarılır:

3.20.1. İqtisadiyyat Nazirliyi tərəfindən investisiya layihəsinin qiymətləndirilməsinin bu Qaydaların 3.3-cü bəndində nəzərdə tutulan hər hansı mərhələsində mənfi rəy verildikdə və həmin mənfi rəyin nəticələrini aradan qaldırmaq mümkün olmadıqda;

3.20.2. investisiya layihəsinin icrası tamamlandıqda;

3.20.3. investisiya layihəsi digər maliyyə mənbəyi hesabına maliyyələşdirildikdə;

3.20.4. sifarişçi təşkilatın əsaslandırılmış təklifi əsasında;

3.20.5. bu Qaydaların 7-ci hissəsinə əsasən keçirilən monitorinqlərin nəticələrinə uyğun olaraq investisiya layihəsinin icrasının davam etdirilməməsi haqqında qərar qəbul edildikdə;

3.20.6. bu Qaydaların 8-ci hissəsinə uyğun olan rasionallaşdırma proseduru nəticəsində.

3.21. Prioritet dövlət investisiya layihələrinin siyahısında olan investisiya layihələrinin maliyyələşdirilməsi üçün vəsait ayrılmadıqda investisiya layihəsi prioritet dövlət investisiya layihələrinin siyahısında saxlanılır və vəsait ayrılması məsələsinə növbəti bölgü prosesləri zamanı baxılır.

### 4. İnvestisiya layihələrinin reytinqinin müəyyən edilməsi və prioritetləşdirilməsi

4.1. Bu Qaydaların 3.9-cu və 3.16-cı bəndlərinə uyğun olaraq müsbət yekun rəy alan investisiya layihələri üçün reytinqin müəyyən edilməsi və bunun əsasında prioritetləşdirmə proseduru tətbiq edilir.

4.2. İnvestisiya layihələrinin reytinqi bu Qaydaların 4.4-cü bəndində göstərilən meyarlar və onların nisbi çəkisi əsasında müəyyən edilir.

4.3. İnvestisiya layihələrinin reytinqinin müəyyən edilməsi və bunun əsasında prioritetləşdirilməsi İqtisadiyyat Nazirliyi tərəfindən ölkənin investisiya siyasətinin əsas istiqamətləri və prioritetləri nəzərə alınmaqla həyata keçirilir.

4.4. İnvestisiya layihələrinin reytinqi aşağıdakı meyarlar əsasında müəyyən edilir:

4.4.1. investisiya layihələrinin əhəmiyyəti və ölkənin strateji sənədlərlə müəyyən edilmiş dayanıqlı sosial-inkişaf məqsədlərinə, istiqamətlərinə və prioritetlərinə, eləcə də Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi prioritetlərə uyğunluğu;

4.4.2. investisiya layihələrinin icrasından gözlənilən sosial və iqtisadi təsir;

4.4.3. yaradılan yeni iş yerlərinin sayı və növü;

4.4.4. faydanın bölgüsü;

4.4.5. sifarişçi təşkilat tərəfindən müəyyən edilmiş prioritetlər;

4.4.6. investisiya layihəsinin ölkənin tədiyə balansına təsiri;

4.4.7. sifarişçi təşkilat tərəfindən əlavə maliyyələşdirmə mənbələrinin cəlb edilməsi.

4.5. İnvestisiya layihələri bu Qaydaların 4.4-cü bəndinə uyğun olaraq müəyyən edilmiş reytinqlər əsasında prioritetləşdirilir. Bu zaman ən yüksək reytinqli investisiya layihəsi ən yüksək prioritetli investisiya layihəsi hesab olunur.

### 5. İcradan əvvəlki son nəzarət proseduru

5.1. Növbəti ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü layihəsinə daxil edilməsi məqsədilə investisiya layihələrinin reytinqinin müəyyənləşdirilməsi və bunun nəticəsində prioritetləşdirilməsi prosedurundan sonra investisiya layihələrinin icraya tam hazırlığının müəyyən edilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən son nəzarət proseduru həyata keçirilir.

5.2. Son nəzarət proseduru İqtisadiyyat Nazirliyinin təsdiq etdiyi formada əks olunan məlumatlar (investisiya layihəsinə dair bu Qaydalarda nəzərdə tutulmuş məlumatlarla yanaşı, investisiya layihəsinin icrasında ləngimələrə və ya artıq xərclərə səbəb ola biləcək bütün amillər barədə məlumatlar da daxil olmaqla) əsasında aparılır.

5.3. Sifarişçi təşkilatlar investisiya layihələri üzrə bu Qaydaların 5.2-ci bəndində nəzərdə tutulan formanı dolduraraq İqtisadiyyat Nazirliyinə təqdim edirlər. Forma üzrə təqdim edilən məlumatlar əsasında İqtisadiyyat Nazirliyi tərəfindən 10 (on) iş günü müddətində icradan əvvəlki son nəzarət proseduru həyata keçirilir.

5.4. Son nəzarət prosedurundan keçən investisiya layihələri dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü layihəsinə daxil edilir.

5.5. Bu Qaydaların 5.3-cü bəndində göstərilən son nəzarət prosedurundan keçməyən investisiya layihələri prioritetləşdirmə və reytinqin müəyyənləşdirilməsi prosedurunda yüksək reytinq alan digər investisiya layihələri ilə əvəz edilir.

5.6. İnvestisiya layihəsi aşağıdakı hallarda son nəzarət prosedurundan keçməmiş hesab olunur:

5.6.1. tikintiyə icazə sənədi olmadıqda;

5.6.2. torpaqların dövlət ehtiyacları üçün alınmasını təsdiq edən sənədlər olmadıqda;

5.6.3. satınalma planı olmadıqda;

5.6.4. kommunal xidmətlərə qoşulma barədə sənədlər olmadıqda;

5.6.5. əraziyə giriş imkanları məhdud olduqda və ya giriş mümkün olmadıqda;

5.6.6. layihənin aktuallığı əsaslandırılmadıqda.

### 6. İnvestisiya layihələrinin icrası

6.1. İnvestisiya layihələrinin icrası bu Qaydaların 2.16-cı bəndinin müddəaları nəzərə alınmaqla sifarişçi təşkilatlar tərəfindən təşkil edilir.

6.2. Sifarişçi təşkilat investisiya layihəsinin icrası məqsədilə normativ hüquqi aktlara uyğun satınalma yolu ilə seçilmiş investisiya layihəsinin icraçısı (podratçısı) ilə müqavilə bağlayır. İnvestisiya layihəsinin icrası ilə əlaqədar zəmanət müddəti Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 105-ci maddəsi ilə tənzimlənir. Zəmanət müddəti ilə bağlı mübahisələr, bu bəndin tələbləri nəzərə alınmaqla, mülki qanunvericiliyə uyğun olaraq həll edilir.

6.3. Hər bir layihə üzrə cari il üçün təsdiq edilmiş xərcdən artıq malların alınmasına, işlərin və ya xidmətlərin yerinə yetirilməsinə yol verilmir.

6.4. Əsaslandırılmış səbəb olmadan kiçik investisiya layihələrinin 4 (dörd) ildən, orta investisiya layihələrinin 5 (beş) ildən artıq müddətdə icra olunmasına yol verilmir. Bununla əlaqədar, dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan (investisiya xərclərindən) müvafiq vəsaitin ayrılması təmin edilir və vəsaitin bölgüsü zamanı keçid investisiya layihələrinə üstünlük verilir.

### 7. Proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsi

7.1. Proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqi investisiya layihələrinin icrasına dair hesabatın monitorinqi və investisiya layihələrinin yerində monitorinqi şəklində İqtisadiyyat Nazirliyi tərəfindən aparılır.

7.2. Proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Nazirlər Kabinetinin təsdiq etdiyi qayda əsasında həyata keçirilir.

7.3. Bu Qaydaların 7.2-ci bəndində nəzərdə tutulan qayda investisiya layihələri üzrə hesabatlılığı və monitorinqin keçirilməsi prosedurlarını müəyyən edir.

7.4. İnvestisiya layihələrinin icrasının monitorinqinin məqsədləri aşağıdakılardır:

7.4.1. investisiya layihələrinin icra planlarına uyğun tam və vaxtında həyata keçirilməsinə nail olunması;

7.4.2. investisiya layihələrinin icrası zamanı risklərin idarə edilməsi;

7.4.3. investisiya layihələrinin icrasında çevikliyə nail olunması;

7.4.4. investisiya layihələrinin icrası ilə bağlı hesabatlılığın təmin edilməsi;

7.4.5. aidiyyəti dövlət orqanlarının (qurumlarının) investisiya layihələri ilə bağlı zəruri məlumatlarla təmin edilməsi;

7.4.6. aşkar olunmuş nöqsanlarla bağlı tədbir görülməsi üçün aidiyyəti dövlət orqanları (qurumları) qarşısında vəsatət qaldırılması.

7.5. Proqrama daxil edilən investisiya layihələrinin icrasına nəzarət sifarişçi təşkilatlar tərəfindən həyata keçirilir. Sifarişçi təşkilatlar hər rüb üzrə, növbəti rübün ilk ayının 10-dək Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə, Maliyyə Nazirliyinə və Hesablama Palatasına bu Qaydaların 7.2-ci bəndində nəzərdə tutulan qaydalara uyğun olaraq investisiya layihələrinin icrasına dair dövri hesabatı təqdim edirlər.

7.6. Sifarişçi təşkilatlar investisiya layihələrinin icrası ilə əlaqədar faktiki görülmüş işlərin bu Qaydaların 2.16-cı bəndinə əsasən təsdiq edilmiş icra planına uyğunluğunu araşdırır və investisiya layihələrinin icrasına dair dövri hesabata daxil edirlər.

7.7. İnvestisiya layihələrinin yerində monitorinqi tərtib edilmiş illik plan əsasında aparılır.

7.8. İnvestisiya layihəsinin yerində monitorinqi keçirildikdə, sifarişçi təşkilata monitorinqin başlanmasından azı 10 (on) gün əvvəl yazılı bildiriş göndərilir. Bildirişdə monitorinqin keçirilməsinin əsası, mövzusu və tarixi göstərilir.

7.9. İnvestisiya layihələrinin yerində monitorinqi aşağıdakı hallarda plandankənar da keçirilə bilər:

7.9.1. sifarişçi təşkilat bu Qaydaların 7.5-ci bəndində göstərilən dövri hesabatı və bu Qaydaların 7.14-cü bəndində göstərilən yekun hesabatı təqdim etmədikdə;

7.9.2. icra planından kənarlaşmalar olduqda;

7.9.3. plan üzrə aparılmış sonuncu yerində monitorinq zamanı aşkar edilmiş çatışmazlığın sifarişçi təşkilat tərəfindən aradan qaldırılmasının yoxlanılması tələb olunduqda;

7.9.4. investisiya layihələrinin icrasına dair hesabatların monitorinqi və plan üzrə aparılmış monitorinqin nəticələri ilə razılaşmayan sifarişçi təşkilat plandankənar yerində monitorinqin keçirilməsini yazılı şəkildə tələb etdikdə;

7.9.5. investisiya layihəsinin icrasına dair mediada mənfi məlumatlar yayıldıqda;

7.9.6. investisiya layihəsinin icrası ilə bağlı vətəndaşlardan və ya digər təşkilatlardan daxil olan şikayətlərin araşdırılması zamanı məsələlərin yerində yoxlanılması tələb edildikdə.

7.10. İnvestisiya layihəsinin yerində monitorinqinin nəticələrinə dair 2 (iki) nüsxədə arayış tərtib edilir və monitorinq iştirakçıları tərəfindən imzalanmaqla rəsmiləşdirilir. Arayışın və ona əlavə edilmiş sənədlərin bir nüsxəsi sifarişçi təşkilata təqdim edilir, digər nüsxəsi isə İqtisadiyyat Nazirliyində qalır.

7.11. İnvestisiya layihəsinin yerində monitorinqinin nəticələrinə dair qeydlər İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan investisiya layihələrinin icra vəziyyətinə dair rüblük və illik hesabatlarda əks etdirilir.

7.12. İnvestisiya layihələrinin yerində monitorinqinə aidiyyəti dövlət orqanlarının nümayəndələri və müqavilə əsasında müstəqil ekspertlər və mütəxəssislər cəlb oluna bilərlər.

7.13. İqtisadiyyat Nazirliyi il müddətində Proqrama daxil edilən investisiya layihələrinin icrasının monitorinqinin nəticələri barədə icmal hesabat hazırlayaraq növbəti il martın 1-dək Nazirlər Kabinetinə və Hesablama Palatasına təqdim edir.

7.14. İnvestisiya layihəsinin icrası yekunlaşdıqdan sonra 30 (otuz) gün müddətində sifarişçi təşkilatlar İqtisadiyyat Nazirliyini bu barədə yazılı qaydada məlumatlandırır və bu Qaydaların 7.2-ci bəndində nəzərdə tutulmuş qaydalara uyğun yekun hesabatı Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə, Maliyyə Nazirliyinə və Hesablama Palatasına təqdim edirlər.

7.15. Prioritet orta və iri investisiya layihələrinin icrası tamamlandıqdan və istismar mərhələsinə keçdikdən sonra investisiya layihələri üzrə planlaşdırılmış məqsədlərə nail olunmasını müəyyənləşdirmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən müstəqil kənar qiymətləndirici cəlb edilməklə investisiya layihələrinin nəticələrinin yekun qiymətləndirilmə hesabatı hazırlanır və həmin hesabat növbəti investisiya layihələrinin hazırlanması və qiymətləndirilməsi zamanı nəzərə alınır.

### 8. Proqramın rasionallaşdırılması halları

8.1. Proqramın son 5 (beş) il müddətində maliyyələşmə göstəricilərinə əsasən orta maliyyələşdirmə dərəcəsi ilə Proqramın ümumi dəyərinin həyata keçirilməsinə 8 (səkkiz) ildən çox vaxt tələb olunarsa, İqtisadiyyat Nazirliyi Proqramın rasionallaşdırılmasını həyata keçirir.

8.2. Bu Qaydaların 8.1-ci bəndində qeyd olunan hal İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edildikdə, İqtisadiyyat Nazirliyi Proqramın rasionallaşdırılmasının həyata keçirilməsi üçün işçi qrup yaradır.

8.3. İşçi qrup tərəfindən investisiya layihələri üzrə aşağıdakılar əsas götürülməklə rasionallaşdırma aparılır:

8.3.1. investisiya layihəsi bu Qaydaların 6.4-cü bəndində göstərilən müddətdə icra edilmədikdə;

8.3.2. investisiya layihəsinin icrasının tamamlanması üçün tələb olunan vəsait smeta sənədlərində göstərilən vəsaitdən 20 faizdən çox olduqda.

8.4. Proqramın rasionallaşdırılması ilə bağlı işçi qrup tərəfindən aşağıdakılar təklif edilir:

8.4.1. investisiya layihəsinin icrasının dayandırılması;

8.4.2. investisiya layihəsinin icrasının Proqram çərçivəsində davam etdirilməsi;

8.4.3. investisiya layihəsinin dövlət–özəl tərəfdaşlığı çərçivəsində icrası məsələsinə baxılması;

8.4.4. investisiya layihəsinin (obyektin) özəlləşdirməyə çıxarılması.

8.5. İşçi qrupun rasionallaşdırma ilə əlaqədar fəaliyyəti tamamlandıqdan sonra onun nəticələri və təkliflər İqtisadiyyat Nazirliyi tərəfindən 30 (otuz) iş günü müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur.

# Milli Məclisin növbəti iclası




**Dekabrın 20-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib.**

Sahibə Qafarova Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyətinin dekabrın 17-də və 18-də qardaş Türkiyəyə rəsmi səfəri barədə məlumat verib.

Sonra plenar iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb.

Parlamentin sədri gündəliyə 11 məsələnin daxil edildiyini və ilk məsələnin üçüncü oxunuşda təqdim olunan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu söyləyib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bu qanun layihəsi ilə bağlı məlumat verib. O, sənədin birinci oxunuşda müzakirəsi zamanı deputatların bəzi məsələlərlə bağlı öz qeydlərini səsləndirdiyini bildirib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Gündəlikdəki digər 8 məsələ ikinci oxunuşda qanun layihələri olub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Diplomatik xidmət haqqında" qanunun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə fikirlərini və rəhbərlik etdiyi komitənin rəyini bildirib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev isə Əmək Məcəlləsində, Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. İqtisadi siyasət sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, komitə sədrləri Səməd Seyidov və Əli Hüseynli rəhbərlik etdikləri komitələrin bu sənəd barədə müsbət rəyini diqqətə çatdırıblar. Məsələlərlə bağlı müzakirələrdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat veriblər.

Komitə sədri Azər Əmiraslanov "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qanun layihələri ikinci oxunuşda qəbul olunub.

Sahibə Qafarova növbəti iki məsələnin möhtərəm Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

İclasda Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib.

Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verən komitə sədri Əli Hüseynli qeyd edib ki, sənəd bir sıra qanunların qüvvəyə minməsi ilə əlaqədar hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Sənədin müzakirəsində Milli Məclis sədrinin müavini Ziyafət Əsgərovun qeydi dinlənildikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Gündəliyin son iki məsələsi birinci oxunuşda qəbul edilib.

"Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu məlumat verib.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

**XQ**

# Liderin quruculuq kursu



X MƏQALƏ

**Böhran dönəmində ən cəsarətli kurs, adətən, ən təhlükəsizi olur.**

**Henri KİSSİNCER**

## Regional liderlikdə quruculuğun özəllikləri

Liderlik milli miqyasın sərhədlərini aşanda xarakteri, məzmunu və qarşısına qoyduğu vəzifələri dəyişir. Çünki artıq regionda, yəni bir neçə dövlətin qarşılıqlı əlaqələrinin mövcud olduğu məkanda sırf dövlət başçısı kimi fəaliyyət yetərli olmur. Region dövlətləri arasında münasibətlər sahəsində liderin funksiyaları daha da genişlənir. Bu baxımdan liderin fəaliyyətini regional miqyasda iki aspektə ayırmaq olar. Birincisi, lider konkret dövləti təmsil edən rəhbər kimi regional miqyasda fəaliyyət göstərir. İkincisi, lider konkret dövlətin rəhbəri kimi onu regional təşkilatda təmsil edir.

Quruculuq kontekstində bu iki aspektdən hansının həlledici olduğunu birmənalı müəyyən etmək çətindir. Çünki dövlət başçısı ölkəsinin lideri kimi milli ilə yanaşı, regional miqyasda dövləti uğura aparmalıdır. Deməli, realpolitikada hər iki funksiya vəhdətdə olmalıdır.

Lakin məsələ onunla əlaqəlidir ki, milli miqyasdakı fəaliyyətlə regional miqyasdakı fəaliyyət həmişə müəyyən nisbətdə olmalıdır. Bu halda yekun nəticə müsbət ola bilər. Nəzəri olaraq bəlkə də bu məqamın ümumi formulunu tapmaq olar. Lakin praktikada vəziyyət fərqlidir. Çünki geosiyasi, siyasi, iqtisadi, hərbi, təhlükəsizlik və s. şərtlər gözlənilmədən elə dəyişə bilər ki, bir an öncə keçərli olan fəaliyyət nəticəvericilik baxımından yeni situasiyada yararsız olar. Buna nümunə kimi kifayət qədər fakt mövcuddur.

Məsələn, Cənubi Qafqazda Rusiyanın hökmranlıq etdiyi dönəmdə uğur gətirən yanaşma və üsullar sonradan regiona təsiri daha çox olan qüvvənin fəaliyyəti nəticəsində nəinki fayda vermədi, hətta dövlət üçün ziyanla nəticələndi. Ermənistan və qismən Gürcüstan indi bu vəziyyətdədir.

Ermənistan Azərbaycanın dinamik və nəticəverici fəaliyyəti ilə yeniləşən regional geosiyasi mühitə çevik və adekvat reaksiya verə bilmədi. Əvvəlcə, o, öncəki dönəmlərdə olduğu kimi, Rusiyanın himayəsinə arxalandı. Bunun fayda vermədiyini hiss edincə eyni köləliklə Qərbə, əsasən Fransaya tərəf döndü. İndi rəsmi İrəvan faktiki olaraq Rusiya ilə Qərb arasında tərəddüd edir.

Gürcüstan M.Saakaşivili dönəmində əsas olaraq Qərbə arxalandı. Bir neçə il təhlükəsizlik və dövlət quruculuğu baxımından uğurlu da oldu. Lakin regional situasiyanın 2008-ci ildən sürətlə dəyişməsinə rəsmi Tbilisi adekvat reaksiya verə bilmədi. Sonrakı illərdə isə daha böyük yanlışlıqlar etdi. Nəticədə Gürcüstan tarixi baxımdan qısa bir müddətdə bir düşərgədən – Qərbdən asılı vəziyyətə düşdü.

2020-ci ildən sonra Qərblə Rusiya arasında mübarizə Cənubi Qafqazda geosiyasi vəziyyətə daha gərgin təsir etməyə başlayandan və xüsusilə, Azərbaycanın möhtəşəm hərbi qələbəsindən sonra sürətlə dəyişən regional situasiyaya rəsmi Tbilisi uyğunlaşmağa çalışdı. Ancaq bu dəfə onun qarşısına incik Qərb çıxdı. Bu vəziyyətin yaratdığı paradoksu rəsmi Tbilisi hələ də yaşamaqdadır.

Deməli, milli miqyasdakı uğurlu liderlikdən sürətlə dəyişən regional miqyasda uğurlu lider olmağa keçid asan deyildir. Məhz bu məqamda siyasi liderin regional təşkilatdakı funksiyasının əhəmiyyəti artır. Regional miqyasda formalaşmış təşkilatda lider elə səviyyədə uğurlu, ədalətli və inamlı olmalıdır ki, öz ölkəsində qazandığı nailiyyətləri dövlətlərarası münasibətlərə transformasiya edə bilsin. Prezident İlham Əliyevin regional liderlik fəaliyyətinə məhz bu kontekstdə nəzər salmaq lazımdır. Bunun üçün öncə bir neçə əhəmiyyətli politoloji özəlliyi vurğulamaq gərəkdir.

## Regional liderlik anlayışı

Burada siyasi-nəzəri kontekstdə maraqlı situasiya formalaşır. Belə ki, region dövlətinin başçısı (həm də lideri) təmsil etdiyi ölkədən başqa, regional təşkilatda da liderlik imkanı qazanır. Təşkilatın üzvü kimi ona rəsmi rəhbərlik edə bilər, ayrıca xüsusi fəallıqla regional proseslərə həlledici təsir də göstərə bilər. Hər bir konkret geosiyasi şərtlər daxilində lider bu iki funksional aspekti potensial olaraq özündə daşıyır.

Nümunə kimi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatını, bir vaxtlar fəal olan GUAM-ı və ya indi real fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatını (TDT) göstərə bilərik. Bunun fonunda reallaşacağı halda maraq doğuracaq "3+3" təhlükəsizlik və əməkdaşlıq platformasına da baxmaq olar. Əgər konkret Azərbaycanı nəzərdə tutsaq, ölkəmizin üzv olduğu digər regional miqyaslı təşkilatlara da nəzər salmaq mümkündür.

Bütün hallarda ümumi prinsip belədir ki, hər hansı regional miqyaslı təşkilatda ölkənin lideri həmin qurumun lideri necə ola bilər? Bunun üçün təmsil etdiyi dövlət də regional lider olmalıdırmı? Ayrıca şəxsiyyət regional lider ola bilərmi?

Etiraf edək ki, cavabı siyasi baxımdan çətin suallardır. Onu nəzərə almaq gərəkdir ki, realpolitikada müxtəlif ssenarilər ola bilər ki, bunu öncədən proqnozlaşdırmaq mümkün deyil. Gözlənilməzliklər və qeyri-müəyyənliklər liderlikdə quruculuğu da mürəkkəb fenomenə çevirə bilər.

Lakin konkret Cənubi Qafqaz təcrübəsi artıq vardır. Bu prizmada yuxarıda qoyulan suallara cavab axtaraq. Öncə vurğulamaq gərəkdir ki, Cənubi Qafqazda keçən əsrin 90-cı illərindən regional təsiri olan ziddiyyətli proseslər daha da artmışdır. Ermənistanın Azərbaycana təcavüzü, Gürcüstan – Ermənistan münasibətlərindəki qeyri-müəyyənliklər, keçən əsrin 90-cı illərinin ilk 5 ilində Gürcüstandakı ultramillətçi iqtidarların azərbaycanlılara qarşı haqsız və ədalətsiz davranışları, Rusiya – Gürcüstan münasibətlərində cücərməkdə olan qeyri-müəyyənliklər, İranın regionda separatizmi və başqa arzu olunmayan prosesləri alovlandırmaq cəhdləri, müxtəlif istiqamətlərdən dini radikalizmin regiona təsirinin artması və s. prosesləri olduqca həssas bir mənzərə yaratmışdı.

Belə bir vəziyyətdə regional miqyasda hansısa təsirli və müsbət nəticə verən addım atmaq çox çətin idi. Hər şeydən öncə isə milli səviyyədə dövləti uğurlu etmək lazım idi. Bəlkə də məhz bu səbəbdən keçən əsrin son onilliyində heç bir böyük güc Cənubi Qafqazda davamlı şəkildə uğur qazana bilmədi.

Bu, Rusiyanın MDB layihəsinə, Qərbin müxtəlif regional təşkilat yaratmaq istəyinə, İranın situasiyanı bütövlükdə nəzarətə almaq cəhdlərinə, Türkiyənin müəyyən təşkilatlar vasitəsilə regiona həlledici təsir göstərmək istiqamətindəki çalışmalarına aiddir. Avropa İttifaqının bir neçə yardım məqsədli proqramları da regionda qalıcı uğura gətirmədi. Ayrıca, Aİ-nin regional münaqişələri həll etmək və müstəqil dövlətləri demokratik aspektdə inkişaf etdirməklə bağlı atdığı addımlar nəticəsiz qaldı. Bu baxımdan GUAM-a, TRASEKA-ya, Mehriban Qonşuluq, Şərq Tərəfdaşlığı və s. layihələrə bəslənən ümidlərin puç olması situasiyanın mürəkkəbliyini təsdiq edən faktlar kimi qəbul edilə bilər.

İndi situasiyaya region dövlətlərinin milli inkişaf prizmasından baxmaq olar. O dönəmdə Azərbaycan, Gürcüstan və Ermənistan fərqli inkişaf yolu seçdilər. Regiona yaxın olan Rusiya, İran və Türkiyənin də təsiri arxa planda deyildi. Üstəlik, ABŞ və Aİ-nin maraqları ciddi əhəmiyyət kəsb edirdi. Aydın görünürdü ki, ayrıca götürülmüş müstəqil dövlətin davamlı və qalıcı inkişafı üçün dərin düşünülmüş kurs hazırlamaq lazım idi. Burada, təbii ki, şəxsiyyətin liderliyi olmadan dövlətin liderliyini yaratmaq mümkün deyildi. Çünki dövlət o zaman lider ola bilir ki, ona başçılıq edən liderin xarizması, fəaliyyəti, aldığı nəticələr, qurduğu konsepsiyalar dövləti inkişaf etdirir, onu gücləndirir.

Deməli, ilk olaraq şəxsi və dövləti liderlik zəruridir. Cənubi Qafqaz təcrübəsi göstərdi ki, bu nümunə ancaq Azərbaycanda davamlı və qalıcı ola bildi. Heydər Əliyev elə bir şəxsi liderlik nümunəsi yaratdı ki, zamanın ən çətin sınaqlarından cəmiyyəti və dövləti uğurla çıxarmaq mümkün oldu.

Eyni nəticəni Ermənistan və Gürcüstan ala bilmədi. Onların hələ ki, belə ümummilli səviyyədə qalıcı uğur əldə edə bilən liderləri yoxdur. Bu səbəbdən, hər iki dövlətin regional liderliyindən danışmaq belə imkansızdır. Bu həqiqətin fonunda Azərbaycan təcrübəsinə baxaq.

Ulu öndər Heydər Əliyev dövlət quruculuğunda strateji məqsədi güclü, demokratik, hüquqi, sülhsevər müstəqil dövlət yaratmaq kimi müəyyən etdi. Burada "güclü dövlət"in ön plana çıxarılması avtomatik olaraq güclü lider fenomenini proseslərin mərkəzinə gətirir. Yəni güclü dövləti gücsüz lider yarada bilməz! Deməli, müstəqillik mərhələsində Azərbaycan təcrübəsində güclü lider öncədən əsas məqsədlərdən biri olmuşdur.

Sonrakı addımda güclü liderin hansı keyfiyyətlərə malik olması və fəaliyyətinin əsas istiqamətlərinin müəyyən olunması aktuallaşmalı idi. Praktiki fəaliyyətdə isə liderin gücünün onun quruculuq və xilasedicilik funksiyaları ilə hansı nisbətdə olmasının aktuallığına şübhə yeri qalmır.

Beləliklə, müstəqilliyin ilk illərində güclü liderlik şəxsi miqyasda özündə xilaskarlıqla quruculuğu sintez edə bilməli idi. Həm də xilasediciliklə quruculuq fərdi deyil, dövləti miqyasda güclü olmağa xidmət etməli idi. Bu, şəxsi quruculuğun dövlətə xidmət etməsinə nail olmaq anlamına gəlir. 1993–2003-cü illərdə Heydər Əliyev bu özəlliyi Azərbaycanın idarə edilməsi sisteminə tam olaraq oturtdu. Quruculuq və xilaskarlığın digər komponentlərlə birgə güclü liderliyin atributları olması təcrübəsi postsovet məkanında Azərbaycan təcrübəsinə məxsusdur.

Bütün bunlar onu göstərir ki, Azərbaycanda şəxsi liderlik nümunəsi dövlət liderliyinin əsas yaradıcı faktoru kimi keçən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq (konkret olaraq, 1993-cü ildən) siyasi mühitdə öz layiqli yerini tutmağa başladı. Bu, elə bir prosesə təkan verdi ki, müəyyən müddətdən sonra Azərbaycan liderinin regional miqyasda aparıcı olmasını və sonrakı mərhələdə dövlət kimi regional miqyasda liderliyini təmin etdi.

İndi şəxsi aspektdə regional liderliyin əlamətlərinə baxa bilərik. Heydər Əliyevə 1993–2003-cü illərdə həm Azərbaycanın, həm də bütövlükdə Qafqazın xilaskarı kimi baxırdılar. Məhz Ulu öndərin fədakar və məharətli fəaliyyəti ilə enerji siyasəti Azərbaycanın sərhədlərini aşaraq, öncə regional və daha sonra interregional miqyasda nəticəverici oldu. 1993–1999-cu illəri xatırlayanlar bilirlər ki, Heydər Əliyev öncə Azərbaycanı və eyni zamanda, regionu bir neçə təxribatlardan xilas edərək quruculuq funksiyasını yüksək səviyyədə yerinə yetirdi. Gürcüstanı dəfələrlə məhv olmaqdan xilas etdi. O dövrdə Gürcüstana rəhbərlik edən Eduard Şevardnadze dəfələrlə Heydər Əliyevə buna görə təşəkkür etmişdir.

Bundan başqa, Gürcüstanda yaranmış enerji böhranı zamanı Heydər Əliyev lider kimi həmin problemi də həll etmişdir. Bakı – Tbilisi – Ceyhan neft ixrac boru kəmərinin tikintisi və istismarı ilə bağlı müxtəlif dairələrin Gürcüstandan istifadə edərək problemlər yaratmasının qarşısını məhz Heydər Əliyevin xilasedici və qurucu lider kimi davranışı almışdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Çin və Azərbaycanın tərəfdaşlığı əməkdaşlığa geniş meydan açır

**Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao Azərbaycan ilə Çin arasında 2024-cü ildə əməkdaşlığın yekunlarına həsr olunmuş mətbuat konfransı keçirib.**

Diplomat bildirib ki, Çin və Azərbaycan səmimi, mehriban, dost və qarşılıqlı fayda əldə etməyə çalışan bərabərhüquqlu, etibarlı tərəfdaşlardır. 1992-ci ilin aprelində diplomatik münasibətlərin qurulduğu andan indiyədək ikitərəfli əlaqələr sağlam və sabit şəkildə inkişaf edir, səmərəli əməkdaşlıqla səciyyələnir və strateji məzmun daşıyır.

esyan, Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsi sədrinin müavini Şen Yueyue kimi rəhbərlərin Azərbaycana səfərləri uğurlu olub. Prezident İlham Əliyev, Azərbaycan hökumətinin və parlamentinin rəhbərləri ilə ikitərəfli münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb, bu da müxtəlif sahələrdə iki ölkə arasında əməkdaşlığa yeni təkan verib".



Səfir açıqlamasının davamında deyib: "Xüsusilə qeyd etmək lazımdır ki, bu il iyulun 3-də Sədr Si Cinpin və Prezident İlham Əliyev Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində görüşüb və ikitərəfli münasibətlərin səviyyəsinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldildiyini birgə bəyan ediblər. Bu, ikitərəfli münasibətlərin keyfiyyətcə yaxşılaşmasına töhfə verdi və iki ölkə arasında uzun illər ənənəvi dostluğun yeni səhifəsini açdı. Prezidentlərin rəhbərliyi ilə bu il Çin və Azərbaycan arasında münasibətlər həqiqətən də məhsuldar olub.

Yüksəksəviyyəli səfərlərin intensivliyinin tarixi səviyyəyə çatdığını qeyd edən Din Tao qeyd edib ki, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin sayı iki dəfə artıb: "Bu il Prezident İlham Əliyev Çin nümayəndə heyətləri ilə dörd dəfə görüşüb. Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun Daimi Komitəsinin üzvü, Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Din Sü-

Siyasi sahədə ölkələrimizin əsas maraqlarına toxunan səfir bildirib ki, biz bir-birimizi dəstəkləyirik, Azərbaycan "Vahid Çin" prinsipinə qətiyyətlə riayət edir və "Tayvanın müstəqilliyini" müdafiə edən separatçı qüvvələri açıq şəkildə pisləyir: "Astanada keçirilən görüşdə Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Çinin ölkənin birləşdirilməsi istiqamətində böyük işini qətiyyətlə dəstəkləyir. Bu, tarixi tendensiyadır və heç bir qüvvə onu dayandıra bilməz. Çin Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü, öz milli şəraitinə uyğun inkişaf yolunu qətiyyətlə dəstəkləyir. Pekin xarici qüvvələrin insan haqları problemlərini bəhanə edərək Azərbaycanın daxili işlərinə müdaxilə etməsinə qarşı çıxış edir. Çin, Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini də qətiyyətlə dəstəkləyir və qarşıdurmanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları pisləyir".

**XQ**

# Azərbaycanın AQEM-ə sədrliyindən gözləntilər böyükdür

**Dekabrın 17-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) 2024–2026-cı illərdə sədrlik Azərbaycana keçib. AQEM-in Baş katibi Kayrat Sarıbay Azərbaycanın sədrlik çərçivəsində prioritetləri, strukturun inkişaf perspektivləri və regional əməkdaşlığın gücləndirilməsində etimad tədbirlərinin rolu barədə mediaya açıqlamasında bildirib:**




– Xarici işlər naziri Ceyhun Bayramovun qeyd etdiyi kimi, Azərbaycan Respublikasının AQEM-də sədrliyi "Daha güclü AQEM, Asiyada bağlantılar, rəqəmsallaşma və dayanıqlı inkişaf" mövzusuna əsaslanacaq. İlk növbədə, AQEM-in tamhüquqlu beynəlxalq təşkilata çevrilməsini qeyd etmək lazımdır. Bu vəzifə Qazaxıstan sədrliyinin strateji prioriteti idi. Şadam ki, bu məsələ davamlılığı təmin edərək, Azərbaycan sədrliyinin əsas istiqamətlərindən biri olaraq qalır.

Üzv dövlətlər artıq bəzi təməllər qoyublar: nazirlər keçən il yol transformasiya xəritəsini qəbul ediblər. Bundan əlavə, Azərbaycanın sədrliyi prosesin daha da institusionallaşdırılmasına yönəlib. AQEM çərçivəsində AQEM-in Biznes və Gənclər Şuraları, AQEM-in Beyin Mərkəzləri Forumu, eləcə də yeni yaradılmış Aparıcı AQEM Universitetlərinin Tərəfdaşlıq Şəbəkəsi kimi daimi strukturlar artıq uğurla fəaliyyət göstərir.

**AQEM-in Baş katibi Azərbaycanın AQEM-ə sədrliyi çərçivəsində tədbirlər proqramından hansı konkret təşəbbüslər və nəticələr gözlənildiyini belə şərh edib:**

– Azərbaycanın sədrliyinin mühüm cəhəti AQEM-in digər beynəlxalq strukturlarla tərəfdaşlığa açıq olmasıdır, çünki təşkilat əməkdaşlıq üçün çoxsahəli platforma rolunu oynayır. Gələn il üçün Azərbaycan müxtəlif istiqamətlərdə, o cümlədən kibertəhlükəsizlik, ekologiya, mədəniyyət, iqtisadiyyat, eləcə də təhlükəsiz nəqliyyat dəhlizlərinin inkişafı üzrə etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsinə dair 20-dən çox tədbirdən ibarət proqram təklif edib. Belə geniş və rəngarəng gündəm Azərbaycanın sədrliyinin məhsuldar dövr olacağını vəd edir.

**Kayrat Sarıbay Azərbaycanın beynəlxalq tədbirlərin keçirilməsi və beynəlxalq təşkilatlara sədrliyi sahəsində son illərdə qazandığı təcrübəni yüksək qiymətləndirib:**

– Bu yaxınlarda Bakı qlobal tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi məkana çevrildi. Bu tədbirin təşkili Azərbaycan hökumətindən və xalqından böyük səylər tələb etdi və onlar uğurla bunun öhdəsindən gəldilər. Açılışda şəxsən iştirak etdim və COP29-un yüksək səviyyədə keçirilməsini təsdiqləyə bilərəm.

Azərbaycanın ən böyük beynəlxalq təşkilatlardan biri olan Qoşulmama Hərəkatına sədrlik sahəsində uğurlu təcrübəsi xüsusilə diqqətəlayiqdir. Bu dövrdə mühüm institusional islahatlar aparılıb, yeniliklər tətbiq edilib. Azərbaycanın sədrliyinin əlavə olaraq daha bir il uzadılması onun uğurlu diplomatiyasını sübut edir.

Əhəmiyyətli diplomatik və iqtisadi resurslara malik olan Azərbaycan AQEM çərçivəsində mühüm rol oynamağa qadirdir.

**XQ**

# Prezident İlham Əliyevin Rusiya mediasına müsahibəsinin əks-sədası







**Dünya mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, Dmitri Kiselyova verdiyi müsahibədə səsləndirdiyi fikirləri yaymaqda davam edir.**

Prezident İlham Əliyevin dünya gündəmini dərindən maraqlandıran, eləcə regionda böyük maraq doğuran məsələlərlə bağlı hərtərəfli təhlil və şərhləri ərəbdilli media qurumları tərəfindən də geniş işıqlandırılıb.

**Birləşmiş Ərəb Əmirliklərinin "Nabd" portalında** dərc olunan yazıda dövlətimizin başçısının Azərbaycan-Ermənistan münasibətləri haqqında fikirlərinə diqqət çəkilib. Bildirilib ki, Prezident İlham Əliyev Ermənistanla sülh sazişi ilə bağlı 15 bənd üzrə razılığa gəlindiyini, 2 bəndin isə razılaşdırılmadığını qeyd edib. Bildirib ki, sülh sazişinin imzalanması üçün sərhəddə başqa dövlətin nümayəndələri və ölkələrin bir-birinə qarşı ərazi iddiaları olmamalıdır.

**Tunisin "News" nəşri** qeyd edir ki, Azərbaycan Prezidenti Gürcüstanda baş verən hadisələrdə Makronun da əlinin olduğunu bildirib. Vurğulayıb ki, Makron öz ölkəsində rahat durmur və Gürcüstana da əl atır.

**Ərəbdilli "Addiyar" portalı** isə dövlətimizin başçısının Rusiya–NATO əlaqələrinə dair münasibətinə diqqət çəkib. Portalda Azərbaycan Prezidentinin NATO-Rusiya qarşıdurmasının dünya üçün çox fəlakətli nəticələrə səbəb olacağı barədə fikrini xüsusi vurğulayıb: "Aydındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək".

**Əlcəzairin "Al Cazair Al Youm" qəzetində** dərc olunan məqalədə Prezident İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun uğursuz siyasəti barədə tənqidi fikirlərinə xüsusi yer ayırıb. Dövlətimizin başçısının "...Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir" fikrinin sitat gətirildiyi məqalədə Prezident İlham Əliyevin diktatura adlandırdığı Makron rejiminin daxili siyasəti, eləcə də Mayotda və Yeni Kaledoniyada neomüstəmləkəçi addımlarını sərt tənqid etdiyi, Parisin böyük diplomatik uğursuzluqlar yaşadığını qeyd etməsi vurğulanıb.

Misirdə yayımlanan **"Al Vasat Al Arabi" nəşri** isə dövlətimizin başçısının Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaq üçün Qərb dövlətlərindən, xüsusən ABŞ-dan siqnal gözləməsi, həmçinin Makronun uğursuz siyasəti ilə bağlı fikirlərinə yer verib.

**Türkiyənin Anadolu Agentliyində, "Yeni Şafak", "Daily Sabah" qəzetlərində, "Turkish Minute" nəşrində İndoneziyanın "Islam Times", "Islam Today" portallarında, Krım Xəbər Agentliyində, İranın Mehr Agentliyində, eləcə də Stratfor Fondunun saytında, həmçinin "usmuslims.com", "eadaily.com portallarında** yer alan məqalələrdə Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı barədə diqqət mərkəzində saxlanılıb. Məqalələrdə dövlətimizin başçısının iki qardaş ölkə arasında hərbi əməkdaşlığın ən yüksək səviyyəyə çatdığı, ölkələrimiz arasında Müttəfiqlik haqqında Bəyannamənin imzalandığı, Azərbaycan Ordusunun Türkiyə ordusu nümunəsində modernləşdirilməsi, birgə hərbi təlimlərin uğurla təşkil olunması barədə fikirlərinə geniş yer verilib. Bununla yanaşı, yazılarda Azərbaycan Prezidentinin ölkəmizin ərazisində Türkiyənin hərbi bazasının yaradılmasına lüzum qalmaması barədə fikri xüsusilə ön plana çıxarılıb.

Prezident İlham Əliyevin fikirləri Serbiya mətbuatının da diqqət mərkəzində qalmaqdadır. **"Vaseljenska" saytı** dövlətimizin başçısının Cozef Borreli Azərbaycandan uzaq durmağa çağırdığı, Ermənistanla bağlı, eləcə də Gürcüstandakı mövcud siyasi vəziyyətə toxunduğu, ölkəmizlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradıldığını vurğuladığı bildirilir.

**"Centralasia.media" portalında və Malayziyanın "The Sun" nəşrində** dərc olunan məqalələrdə dövlətimizin başçısının Azərbaycan-Ermənistan sərhədində Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində 40 nəfərlik məhdud kontingentinin olacağı məsələsinin razılaşdırıldığı, lakin sonradan Azərbaycanla razılaşdırılmadan bu missiyanın müddətinin uzadılması barədə fikrinə də yer verilib.

**"Centralasia.media" nəşri** Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində 17 mübahisəli məsələdən 15-nin artıq razılaşdırıldığını vurğuladığı qeyd olunub. Bundan başqa, Ermənistanın KTMT-dən çıxmaq üçün bəhanələr axtardığını və Vaşinqtondan siqnal gözlədiyini qeyd etməsi xüsusilə vurğulanıb.

"Ukraina.ru", "1tv.ge", "Dailymoscow.ru", "Sila-rf.ru", "Turkic.world" saytları Avropa İttifaqının xarici məsələlər üzrə nümayəndəsi Cosef Borrelin Avropanı çiçəklənən bağa, qalanlarını isə cəngəlliyə oxşatması barədə fikrini xatırladan Prezident

Şərqi Avropa, Mərkəzi Asiya, Afrika və Yaxın Şərqin iqtisadi, siyasi həyatı ilə bağlı xəbərlər yayımlayan **"IntelliNews" nəşrində** dərc olunan məqalədə Prezident İlham Əliyevin müsahibədə Fransanın Ermənistanı silahlandırması, Qərb dövlətlərinin Cənubi Qafqazda sabitliyin pozulması ilə bağlı cəhdləri barədə fikirləri ətraflı təhlil olunub. Məqalədə Prezident İlham Əliyevin Azərbaycanda bəzi regionlarda nadir hal olan milli köklərə və ənənəvi dəyərlərə sadiqliyin güclü olması və bəşəriyyət üçün təhlükəli olan bu tendensiyanın qarşısının alınmasının vacibliyi barədə fikirləri diqqətə çatdırılıb.

**Gürcüstanın "Civil.ge", "Sakartvelosambebi.ge", "Interpressnews.ge" portalları** Prezident İlham Əliyevin Gürcüstanda baş verən hadisələrdə Emmanuel Makronun da əli olduğunu qeyd etməsi, hazırda qonşu ölkədə vəziyyətin sabitləşməsi barədə fikirləri geniş işıqlandırılır: "Gürcüstanda vəziyyət sabitləşir. Biz buna şadıq. Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin.

**"Moldova-news.com" portalı** Prezident İlham Əliyevin müsahibəsində Azərbaycan-Rusiya əməkdaşlığı, rus dilinin dəyəri, NATO ilə Rusiya arasında müharibə ehtimalı, Fransanın neokolonializmindən, bölgədə vəziyyət, Ermənistan ilə sülh danışıqları və digər məsələlər barədə fikirlərini geniş işıqlandırıb.

**"Biz.nv.ua" portalında** dərc olunan məqalədə Prezident İlham Əliyevin zəngin enerji potensialına malik Azərbaycanın başqa enerji mənbəyinə ehtiyacı olmadığı barədə fikri diqqətə çatdırılıb. Buna baxmayaraq, dövlətimizin başçısının elmi məqsədlərlə kiçik reaktorların imkanlarının öyrənilməsi barədə tapşırıq verdiyi qeyd olunub.

**XQ**

# 2025-ci ilin birinci yarısında QDİƏT-ə Azərbaycan sədrlik edəcək




**Dekabrın 19-da onlayn formatda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 49-cu iclası keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, iclasda Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev iştirak edib.

Yalçın Rəfiyev çıxışında Azərbaycanın QDİƏT-in təsisçi üzvü kimi Təşkilat çərçivəsində qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın gücləndirilməsinə daim töhfə verdiyini və ölkəmizin Təşkilatın daha nəticəyönümlü, praktiki əməkdaşlıq platformasına çevrilməsi zərurətini dəstəklədiyini vurğulayıb.

Azərbaycanın Orta Dəhliz vasitəsilə regionun tranzit potensialını artırmaq və təhlükəsiz nəqliyyat marşrutları yaratmaq istiqamətində fəaliyyəti, yaşıl enerji sahəsində Avropaya ixracın artırılması və Qara Dəniz Sualtı Kabel layihəsi vasitəsilə enerji ötürülməsi ilə bağlı əldə olunan nailiyyətlərdən bəhs olunub.

Cari ilin noyabrın 11-23-də Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı (COP29) çərçivəsində Azərbaycanın beynəlxalq iqlim gündəliyinin irəlilədilməsində əldə etdiyi mühüm uğurlar, xüsusən də iqlim maliyyəsinin artırılması və karbon bazarlarına dair razılaşmalarla bağlı irəliləyişlər diqqətə çatdırılıb.

2025-ci ildə QDİƏT çərçivəsində işçi qruplarının fəaliyyətinin gücləndirilməsi və üzv dövlətlər arasında sahəvi əməkdaşlığın genişləndirilməsinin Azərbaycanın əsas prioritetlərindən biri olacağı qeyd olunub, bu istiqamətdə üzv dövlətlər birgə qarşılıqlı fəaliyyətə dəvət edilib.

Tədbirin yekununda iclasın protokolu və bir sıra vacib qərarlar qəbul olunub, 2025-ci ilin birinci yarısı üçün sədrlik Azərbaycana təhvil verilib.

**XQ**

# CAR Fransa qüvvələrinin ölkədən çıxmasını tələb edir

**Cənubi Afrika Respublikası (CAR) müdafiə və hərbi əməkdaşlıq müqavilələrinin pozulmasından sonra Fransa qoşunlarının ölkədən çıxarılmasını tələb edir.**

CAR tərəfi bütün fransız əsgərlərinin yanvarın 31-dən əvvəl ölkədən çıxması tələbini bir daha təsdiqləyib. Bu tələbin Fransa-CAR münasibətlərində yeni qıcıqlandırıcı rol oynayacağı bildirilir.

Fransızlar isə təxliyə üçün logistikanın məhdudiyyətlərinin olduğunu, ərazini təhlükəsiz və müvafiq qaydada tərk etməyin "bir göz qırpımında" baş verə bilməyəcəyini vurğulayıblar.

# Hərbçimiz minaya düşüb

**Dekabrın 20-də saat 12:00 radələrində Azərbaycan Ordusunun hərbi qulluqçusu Ziyad İlqar oğlu Salmanov Azərbaycan-Ermənistan şərti sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində xidməti-döyüş tapşırıqlarını yerinə yetirərkən piyada əleyhinə minaya düşərək xəsarət alıb.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. İlk tibbi yardım göstərildikdən sonra yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə təxliyə edilib.

Onun həyatı üçün təhlükə yoxdur.

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20 dekabr tarixli saylarında)***

## Çağırılmayan yeri dar edən qonaq həyasızlıq edir

Ancaq bu təcrübəli adamlar Fransız səfirliyində baş verəcək bir gözlənilməz görüşün qarşısını ala bilmirlər. Qonaqlığın qızğın çağında Emmanuel Makron V Respublikanın ən məşhur personajlardan biri olan Aleksandr Djuri ilə üz-üzə gəlir. Beynəlxalq müqavilələrin imzalanmasında (silah satışı, təyyarələr) həmişə yaxından iştirak edən, xüsusilə Dominik dö Villpənt və Nikola Sarkozi ilə çox yaxın olan, indi də Makronla yaxınlıq etməyə can atan bu iş adamının cibində rəsmi dəvətnamə də var. Ancaq "Le Canard enchaîné" qəzeti bir müddətdən sonra aşkara çıxaracaq ki, dəvətnamədə onun haqqında iki səhifəlik məqalə çap edir. Elə həmin ay, 2016-cı ilin noyabrında Dominik dö Villpənt "France2" telekanalındakı bir verilişdə ötkəm bir səslə etiraf edir ki, Aleksandr Djuri onun dostu olub və dostu olaraq da qalır. "Mənim onunla çox yaxın münasibətlərim var. Bilirəm ki, onun vəziyyəti çox yaxşıdır. Onunla belə maraqlanmağınız mənim üçün xoşdur. Bir adamla dostluq etmək o demək deyil ki, onunla biznes qurursan..." Onun bu sözlərindən sonra studiyada gərginlik hiss olunur.

"Le Canard enchaîné" qəzeti 8 dekabr nömrəsində Aleksandr Djurinin Əlcəzairdə Fransa səfi rliyindəki rəsmi qəbuldakı iştirakını bütün ölkəyə yayır. Bu məqalədə də, bundan sonra çap olunan məqalələrdə də qeyd olunur ki, Emmanuel Makron Aleksandr Djurinin bu qəbulda iştirakına çox pis baxıb. "Prezident çox narazı görünürdü, hətta əsəbiləşmişdi". Bir neçə həftədən sonra Ksaviye Driankurt polisin korrupsiya ilə mübarizə aparan əməkdaşlarına etiraf etdi ki, "biz qəbuldan sonra hotelə qayıdanda, Makron maşında mənə dedi ki, o gədə hələ mənimlə şəkil də çəkdirmək istəyirdi".




familiyası səhv yazılıb. "Fransa Respublikasının Prezidenti Emmanuel Makron cənab Aleksandr Djuridən acizanə surətdə xahiş edir ki, onun Əlcəzairə səfəri münasibətilə təşkil edilən qəbulda iştirak etsin".

Otuz ildən bəri ancaq başqalarının kölgəsində hərlənən bu iş adamı dövlətin bütün sirlərindən yaxşı xəbərdardır. O, indiyə qədər bütün prezidentlərlə – istər, sağçı olsun, istərsə də, solçu – dil tapa bilib. Amma tədqiqat aparan jurnalist Pier Peanın yazdığı kimi, Aleksandr Djuri Sarkozinin dövründə V Respublikanın ən vacib fiqurlarından birinə çevrildi.... Ancaq Holland prezident seçiləndən sonra Aleksandr Djurinin siyasi həyatında çətinliklər başladı. Hamının "Müsyö Aleksandr" çağırdığı bu adam əvvəllər banditizmlə məşğul olub, sonra isə, daha doğrusu 1980-ci illərin sonundan, bandit karyerasını Fransa-Afrika şəbəkələrində, xüsusən də Elf kimi məşhur neft şirkətinin yüksək vəzifəli şəxsləri Andre Tarallo və Alfred Sirven ilə davam etdirdi. Bu minvalla hakimiyyətin dəhlizlərinə ayaq basan bu adam Jak Şirakın keçmiş kabinet direktoru, Kooperasiya naziri olan Mişel Russanın da köməyindən xeyli istifadə edib.

Dövlətin yüksək vəzifəli məmurlarından biri etiraf edir ki: "Aleksandr Djuri son dərəcə güclü, arxalı, həm Fransada, həm də xaricdə nüfuzlu çevrəsi olan bir adamdır. Əlcəzairdə onun ən yaxın dostu 2010-cu ildə vəfat edən general Larbi Belkheir idi. Mərhum general onun üçün çox qapılar açmışdı. Amma onun çevrəsinin döyünən ürəyi Afrikada – Cibuti ölkəsidir. Məhz bu ölkədə Aleksandr Djuri 2002-ci ildə bankir Vahib Nacerlə tanış olur və qaynı vəkil Mohamed Arefin sayəsində bir sıra böyük miqyaslı maliyyə planları həyata keçirir. Nacer Fransa ilə Səudiyyə Ərəbistanı arasında bağlanan məşhur "Savari II" silah müqaviləsinin həyata keçirilməsində əsas rol oynayan personajlardan biridir. Ancaq məsələ burasındadır ki, 60 yaşında olan Aleksandr Djuri 2017-ci ilin iyun ayından beynəlxalq axtarışdadır – iki fransız prokuroru Serj Turner və Od Büresi onun həbsinə qərar veriblər. Aleksandr Djuri 2007-ci ildə Liviya tərəfindən Sarkozinin prezident kampaniyasının maliyyələşdirilməsində itt iham olunur. Əslən Kabil olan, cibində fransız və Əlcəzair pasportları gəzdirən bu adamın bir tərəfi də qabonludur. Qətər, Cibuti, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, İsveçrə və təbii ki, Əlcəzair kimi ölkələr arasında işgüzar səfərlər edən Aleksandr Djuri, hələ ki, Fransaya qayıtmaqdan çəkinir.

Bu axşam Fransanın Əlcəzairdəki səfirliyindəki bu rəsmi qəbulda Aleksandr Djurinin iştirakı nədənsə heç kimi təəccübləndirmir. Bir ilə yaxındır Fransa mətbuatı ölkədə car çəkir ki, 2016-cı ilin sentyabrından Liviyanın Sarkozinin seçki kampaniyasını maliyyələşdirməsi kontekstində ittiham edilən bu adam, fransız ədalət məhkəməsinin çağırışınıqulaqardına vurub ölkəyə qayıtmır. 2016-cı ilin noyabrında Le Monde qəzeti onun

Fransa səfirliyindəki qəbuldan sonra Əlcəzairin Baş naziri prezident Makronu və fransız deleqa siyasını rəsmi şam yeməyinə dəvət edir. Bu axşam yeməyi 70-ci illərdə tikilmiş məşhur El Orassi hotelinin restoranında təşkil edilir. Qəribə burasındadır ki, Əlcəzairin ən görkəmli yerində ucalan bu hotel, həmçinin Aleksandr Djurinin "baş qərargahıdır". Əlcəzairə gələndə Djuri həmişə bu hoteldə qalır. Buna görə də qətiyyən təəccüblü deyil ki, Fransa prezidentinin Əlcəzairin dövlət nümayəndələri ilə nahar etdiyi böyük salonda Aleksandr Djuri də gözə dəyir.

Fransanın Əlcəzairdəki səfirinin versiyasına görə "axşam yeməyinə dəvət olunan qonaqların dəvətnamələri – içində də cənab Djurinin dəvətnaməsi olmaqla – əvvəlcədən hazırlanmışdı. Lakin bu siyahı günorta naharına dəvət olunan qonaqların siyahısından fərqli olaraq Yelisey sarayı tərəfindən təsdiq olunmamışdı". Yeri gəlmişkən, Yelisey sarayı o vaxt "Le Canard enchaîné" qəzetinə izahat vermişdi ki: "Onu (Djuri) səfirlik özü dəvət etmişdi [...] birinci dəfə deyil ki, bu cənab nəyin bahasına olursa, olsun, prezidentə yaxınlaşmağa can atır [...] Onun israrı Makronu qəzəbləndirir". Xarici İşlər Nazirliyinin diplomatlarından (Əlcəzairdəki qəbulda iştirak edənlər də daxil olmaqla) aldığımız versiya isə tamamilə fərqlidir. Onların dediyinə görə, iki siyahı – nahara və axşam yeməyinə dəvət olunan qonaqların siyahısı Yelisey sarayına göndərilmişdi və bu iki siyahının ikisini də prezidentin Əlcəzairə səfərini təşkil edənlərdən biri – Aleksandr Benalla təsdiqləmişdi!

Polisin qarşısında Əlcəzairdəki fransız səfiri Driankurt Yelisey sarayının versiyasını detalları ilə izah edərək əlavə edəcək ki, əslində, Aleksandr Djurinin yaxın dostu olan Xarici İşlər Nazirliyinin baş katibi 64 yaşlı Moris Qurdolt-Montayn ondan şəxsən xahiş etmişdi ki, Djurini də prezidentin şərəfinə verilən axşam yeməyinə dəvət etsin.

Moris Qurdolt-Montayn balaca adam deyil, Xarici işlər Nazirliyinin tanınmış bir fiqurdur. Alan Jüppenin keçmiş kabinet rəhbəri, 2002-2007-ci illərdə Jak Şirakın məsləhətçisi olan bu adam, şəxsən Emmanuel Makron tərəfindən Xarici İşlər Nazirliyinə baş katib təyin olunub, yeri gəlmişkən bu, Makronun prezident kimi verdiyi ilk qərarlardan biridir. Bu vəzifədə o, Xarici İşlər Nazirliyi ilə Yelisey sarayı arasında tarazlıq saxlayan əvəzolunmaz bir diplomat kimi tanınır. Məmurlardan birinin dediyi kimi, Moris Qurdolt-Montayn əsl nazirdir. Çevrəsindəki diplomatların karyera qazanmasında böyük rol oynayan bu adamın Aleksandr Djuri ilə dostluğu tez bir zamanda ört-basdır edildi və unuduldu.

***(ardı var)***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 520** **Bakı şəhəri, 10 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 oktyabr tarixli 453 nömrəli, 31 oktyabr tarixli 467 nömrəli və 20 noyabr tarixli 481 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə 5603 12 100 0, 5603 13 100 0, 6307 90 980 1 və 6307 90 980 2 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2024-cü il" sözləri "31.12.2027-ci il" sözləri ilə əvəz edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 522** **Bakı şəhəri, 11 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 17 oktyabr tarixli 323 nömrəli Sərəncamının 3.3-cü bəndinin və "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının 2.5-ci bəndinin icrasını təmin etmək məqsədilə və Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci iI 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996 ) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 4-cü hissəyə aşağıdakı məzmunda iyirmi ikinci – iyirmi beşinci abzaslar əlavə edilsin:

"4-21/ Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi

4-22/ Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi

4-23/ Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi

4-24/ Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi".

**2** 5-ci hissəyə aşağıdakı məzmunda səksən altıncı – yüz yetmişinci abzaslar əlavə edilsin:

"5-85/ Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsi

5-86/ Naxçıvan Muxtar Respublikası Culfa Rayon Məhkəməsi

5-87/ Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsi

5-88/ Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsi

5-89/ Naxçıvan Muxtar Respublikası Ordubad Rayon Məhkəməsi

5-90/ Naxçıvan Muxtar Respublikası Sədərək Rayon Məhkəməsi

5-91/ Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsi

5-92/ Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsi

5-93/ Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi

5-94/ Bakı şəhəri Xətai Rayon Məhkəməsi

5-95/ Bakı şəhəri Xəzər Rayon Məhkəməsi

5-96/ Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi

5-97/ Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi

5-98/ Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi

5-99/ Bakı şəhəri Nizami Rayon Məhkəməsi

5-100/ Bakı şəhəri Pirallahı Rayon Məhkəməsi

5-101/ Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi

5-102/ Bakı şəhəri Səbail Rayon Məhkəməsi

5-103/ Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi

5-104/ Bakı şəhəri Yasamal Rayon Məhkəməsi

5-105/ Abşeron Rayon Məhkəməsi

5-106/ Ağcabədi Rayon Məhkəməsi

5-107/ Ağdam Rayon Məhkəməsi

5-108/ Ağdaş Rayon Məhkəməsi

5-109/ Ağstafa Rayon Məhkəməsi

5-110/ Ağsu Rayon Məhkəməsi

5-111/ Astara Rayon Məhkəməsi

5-112/ Balakən Rayon Məhkəməsi

5-113/ Beyləqan Rayon Məhkəməsi

5-114/ Bərdə Rayon Məhkəməsi

5-115/ Biləsuvar Rayon Məhkəməsi

5-116/ Cəbrayıl Rayon Məhkəməsi

5-117/ Cəlilabad Rayon Məhkəməsi

5-118/ Daşkəsən Rayon Məhkəməsi

5-119/ Füzuli Rayon Məhkəməsi

5-120/ Gədəbəy Rayon Məhkəməsi

5-121/ Gəncə Şəhər Məhkəməsi

5-122/ Goranboy Rayon Məhkəməsi

5-123/ Göyçay Rayon Məhkəməsi

5-124/ Göygöl Rayon Məhkəməsi

5-125/ Hacıqabul Rayon Məhkəməsi

5-126/ Xaçmaz Rayon Məhkəməsi

5-127/ Xankəndi Şəhər Məhkəməsi

5-128/ Xızı Rayon Məhkəməsi

5-129/ Xocalı Rayon Məhkəməsi

5-130/ Xocavənd Rayon Məhkəməsi

5-131/ İmişli Rayon Məhkəməsi

5-132/ İsmayıllı Rayon Məhkəməsi

5-133/ Kəlbəcər Rayon Məhkəməsi

5-134/ Kürdəmir Rayon Məhkəməsi

5-135/ Qax Rayon Məhkəməsi

5-136/ Qazax Rayon Məhkəməsi

5-137/ Qəbələ Rayon Məhkəməsi

5-138/ Qobustan Rayon Məhkəməsi

5-139/ Quba Rayon Məhkəməsi

5-140/ Qubadlı Rayon Məhkəməsi

5-141/ Qusar Rayon Məhkəməsi

5-142/ Laçın Rayon Məhkəməsi

5-143/ Lerik Rayon Məhkəməsi

5-144/ Lənkəran Rayon Məhkəməsi

5-145/ Masallı Rayon Məhkəməsi

5-146/ Mingəçevir Şəhər Məhkəməsi

5-147/ Naftalan Şəhər Məhkəməsi

5-148/ Neftçala Rayon Məhkəməsi

5-149/ Oğuz Rayon Məhkəməsi

5-150/ Saatlı Rayon Məhkəməsi

5-151/ Sabirabad Rayon Məhkəməsi

5-152/ Salyan Rayon Məhkəməsi

5-153/ Samux Rayon Məhkəməsi

5-154/ Siyəzən Rayon Məhkəməsi

5-155/ Sumqayıt Şəhər Məhkəməsi

5-156/ Şabran Rayon Məhkəməsi

5-157/ Şamaxı Rayon Məhkəməsi

5-158/ Şəki Rayon Məhkəməsi

5-159/ Şəmkir Rayon Məhkəməsi

5-160/ Şirvan Şəhər Məhkəməsi

5-161/ Şuşa Rayon Məhkəməsi

5-162/ Tərtər Rayon Məhkəməsi

5-163/ Tovuz Rayon Məhkəməsi

5-164/ Ucar Rayon Məhkəməsi

5-165/ Yardımlı Rayon Məhkəməsi

5-166/ Yevlax Rayon Məhkəməsi

5-167/ Zaqatala Rayon Məhkəməsi

5-168/ Zəngilan Rayon Məhkəməsi

5-169/ Zərdab Rayon Məhkəməsi".

**3.** 9-cu hissənin üçüncü abzası və 13-cü hissənin on doqquzuncu abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 523** **Bakı şəhəri, 17 dekabr 2024-cü il**

**"Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 134 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kəlbəcər rayonunda **Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında**" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 134 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları"nın 4-cü hissəsinin ikinci abzasına "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin nəqliyyat vasitələri" sözlərindən əvvəl "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin nəqliyyat vasitələri," sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 oktyabr tarixli 455 **nömrəli** Qərarı**)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"na aşağıdakı məzmunda 205-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 205-1. | "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 1642 |

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 229, № 7, maddələr 895, 915, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 6-cı hissəsinə aşağıdakı məzmunda 98-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 98. | Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti | |

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 17-ci hissəsinə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

| | |
|---|---|
| 17-5/ | Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 524** **Bakı şəhəri, 17 dekabr 2024-cü il**

**"Bazar iştirakçılarına dair meyarlar və onlar tərəfindən təmin edilən mallarla bağlı dövlət ehtiyatları üzrə məsul orqana məlumat təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2463 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bazar iştirakçılarına dair meyarlar və onlar tərəfindən təmin edilən mallarla bağlı dövlət ehtiyatları üzrə məsul orqana məlumat təqdim edilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | **6** |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | **7** |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | **8** |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Həsənova Sevinc Telman qızı** | **9** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | **10** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | **13, 28** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | **14, 29** |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | **15, 30** |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | **16, 31** |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | **17** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | **1** |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | **2** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | **23** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | **24** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | **27** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 525** **Bakı şəhəri, 17 dekabr 2024-cü il**

**"Strateji əhəmiyyətli malların monitorinqi qaydası və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsinin müəyyən edilməsi meyarları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2463 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Strateji əhəmiyyətli malların monitorinqi qaydası və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsinin müəyyən edilməsi meyarları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 526** **Bakı şəhəri, 18 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 5.22-ci bəndində qeyd olunmuş düsturda "34.8" rəqəmləri "39.2" rəqəmləri ilə, "16.7" rəqəmləri "18.8" rəqəmləri ilə, "7.7" rəqəmləri isə "8.7" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 527** **Bakı şəhəri, 18 dekabr 2024-cü il**

**"Rəqabət komissiyasının yaradılması, tərkibi, rəqabət komissiyası tərəfindən işlərə baxılması və qərarların qəbul edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Rəqabət komissiyasının yaradılması, tərkibi, rəqabət komissiyası tərəfindən işlərə baxılması və qərarların qəbul edilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 120 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 5, maddə 361 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 528** **Bakı şəhəri, 18 dekabr 2024-cü il**

**"Rəqabət orqanının qərarı əsasında bazarın monitorinqinin aparılması, monitorinqin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Rəqabət orqanının qərarı əsasında bazarın monitorinqinin aparılması Qaydası" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Bazar monitorinqinin nəticələrinə dair aktın forması" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Bazar monitorinqinin nəticələrinə dair aktın tərtib edilməsi Qaydası" təsdiq edilsin (3 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan İslam dünyasına daha dərindən inteqrasiya edir

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, D-8 təşkilatına ölkəmiz qoşulana qədər Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya daxil idi. D-8-in qarşısında isə üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, sosial-iqtisadi sahələrdə əlaqələri gücləndirmək əsas vəzifə kimi qoyulurdu.

Xatırladaq ki, Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 2017-ci il oktyabrın 20-də qurumun İstanbulda "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi




altında keçirilən IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həmin görüşdəki çıxışında 3 qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq dünyada baş verən gərginliklər fonunda belə bir nüfuzlu toplantının Zirvə görüşünün reallaşdırılmasının önəmini bildirib.

Nitqində son illər müsəlmanların yaşadıqları bölgələrdə baş verən münaqişələrin, təbii fəlakətlərin ciddi fəsadlarla nəticələndiyini vurğulayan qardaş ölkənin Cümhurbaşqanı qlobal ədalətsizliyin azalmaq əvəzinə, daha da genişləndiyini təəssüflə vurğulayıb, eləcə də dünyada İslamla terrorizmin əlaqələndirilməsi cəhdlərinin, islamofobiyanın və ksenofobiyanın artdığını, miqrant böhranının dərinləşdiyini diqqətə çatdırıb.

Türkiyə Prezidenti çıxışında, eyni zamanda, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı dövlətlərinin dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malik olduqlarını, sözügedən quruma üzv ölkələrin bu potensialdan tam səmərəli istifadə etmələri nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin hazırkı 100 milyard dollardan qısa müddətdə 500 milyard dollara çatdırıla biləcəyini deyib.

Prezident Rəcəb Tayyib, həmçinin iqtisadiyyat, ticarət, nəqliyyat, müdafiə sənayesi, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayaraq D-8 üzvlərinin sayının artırılmasının, qarşılıqlı ticarətin milli valyutalarla aparılmasının təşkilatın daha da güclənməsinə imkan yarada biləcəyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı isə çıxışında Azərbaycanın D-8-in üzvü olmamasına baxmayaraq, Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizi bu tədbirə dəvət etdiyinə görə öz qardaşına dərin təşəkkürünü bildirib və bunu Azərbaycan–Türkiyə qardaşlıq və dostluğunun bariz nümunəsi kimi dəyərləndirib.

Azərbaycan bu təşkilata üzvlük məsələsini həmin vaxtdan diqqətdə saxlayıb. Bu il fevralın 19-da Ankarada dövlətimizin başçısı İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşündə Cümhurbaşqanı üzvlüklə bağlı sözügedən məqama aydınlıq gətirərək deyib: "İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və D8 formatı iqtisadi və ticarət sahəsindəki əməkdaşlığımızı taclandıran digər önəmli regional təşkilatlardır. Xüsusilə İqtisadi Əməkdaşlıq Təşkilatının malik olduğu potensialdan daha çox istifadə edəcəyimizə inanıram.

Azərbaycanın D8-ə üzvlük müraciətini də ən güclü şəkildə dəstəkləyirik. Bəzi tərəddüdləri olan Misir başda olmaqla, D8 üzvləri arasında bu istiqamətdə təşəbbüslər irəli sürdüm və irəli sürməkdə də davam edəcəyik".

Bu məqamda xatırlatmaq istərdik ki, Türkiyə Prezdenti Rəcəb Tayyib Ərdoğan Qahirədə D-8 11-ci Zirvə görüşündə Azərbaycana yeni qoşulduğu təşkilatda uğurlar diləyib və ölkəmizin D-8-ə üzv olması ilə bu qurumun daha da güclənəcəyi əminliyini diqqətə çatdırıb: "Qardaş Azərbaycana təşkilatımıza xoş gəldin deyirik. Azərbaycanın D-8-ə üzvlüyü təkcə təşkilatı böyütməyəcək, həmçinin gücləndirəcək".

Prezident İlham Əliyev də bu tarixi hadisə – Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı "X" səhifəsində paylaşım edib: "Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm".

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir. Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Qeyd edək ki, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının adındakı "D" ingilis dilindəki "Developing" (inkişaf etməkdə olan) sözünün baş hərfidir, yəni bu format 8 dövləti adıçəkilən qurum daxilində bir araya gətirən təşkilatdır. Onun üzvləri İslam Əməkdaşlıq Təşkilatında yer aldıqlarından və müsəlman ölkələri olduqlarından D-8 bir sıra hallarda, həm də "İslam İttifaqı" da adlandırılır. Ekspertlər bildirirlər ki, Azərbaycanın bu təşkilatda təmsil olunmasına tam haqqı çatır. Çünki ölkəmiz, əvvəla, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına geniş həcmdə investisiyalar yatırır. Belə bir sərmayə qoyuluşu isə Avrasiyanın, o cümlədən D-8 ölkələrinin iqtisadi inkişafını şərtləndirir.

D-8 dünyada böyük iqtisadi potensiala malik bir təşkilat kimi tanınır. Üzv ölkələrdə, təqribən, 1,1 milyard insan yaşayır. 8 ölkənin iqtisadiyyatının həcmi, təxminən, 3, 8 trilyon dollar təşkil edir. Üzv ölkələrin ticarət dövriyyəsi isə 1,6 trilyon dollar səviyyəsindədir. Yəni dünya ticarət dövriyyəsinin 4,5 faizini təşkil edir. Bütün bunlarla yanaşı, 3 qitəni əhatə edən D-8 4 trilyon ABŞ dollarından artıq ÜDM-ə malikdir. Eyni zamanda, 130 milyard ticarət dövriyyəsi həyata keçirir, üzv ölkələrin əhalisinin sayı ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edir. Bu isə həm də o deməkdir ki, D-8 böyük iqtisadi potensiala malikdir.

D-8-in perspektiv əhəmiyyəti isə təşkilatın fəaliyyətində iqtisadiyyatın diversifikasiyasının önəmli yer tutması ilə bağlıdır. Başqa sözlə, D-8 ölkələri bu sahədə birgə fəaliyyət göstərərək xammal əsaslı məhsullardan asılılığı azaltmaq, istehsalat, texnologiya və xidmət sahələrinə diqqəti daha da artırmaq imkanı əldə edir.

Digər ölkələrlə əməkdaşlıq D-8 üzvü olan dövlətlər üçün enerji infrastrukturunun inkişafını prioritet təşkil edir. Ümumilikdə quruma üzv olan bir sıra ölkələrin bərpa olunan enerji sahəsində geniş potensialı var. D-8-in qarşısındakı qlobal məqsədlərindən biri də üzv ölkələr arasında ticarət sahəsindəki əngəllərin aradan qaldırılması və birbaşa investisiyaların təşviqinə nail olmaqdan ibarətdir.

Məqsədə çatmaq üçün iqtisadi inkişafa xidmət edən birgə təşəbbüslərin reallaşdırılması, hər ölkənin potensialına və gələcəyə əsaslanan iqtisadi layihələrin icrası, təcrübə mübadiləsi, daxili və xarici ticarətin inkişafı yolundakı maneələrin aradan qaldırılması, siyasi dialoqun təşviq edilməsi və genişlənməsi, texnoloji inkişafa xidmət edən innovativ layihələrin icrası, "yaşıl" enerji layihələrinin icrası proseslərinin dəstəklənməsi və rəqabət qabiliyyətinin artırılması kimi şərtlərin təmin olunması vacibdir.

Onu da deyək ki, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının qəbul etdiyi "2020-2030 D-8 10 illik Yol Xəritəsi" adlı sənəd 3 mərhələli inkişaf strategiyasına əsaslanılaraq hazırlanıb. Birinci mərhələdə, yəni 2020-2022-ci illərdə ticarət, kənd təsərrüfatı, qida təhlükəsizliyi, sənaye əməkdaşlığı və kiçik biznesin inkişafı, nəqliyyat, turizm, səhiyyə sahəsində əməkdaşlığın istiqamətləri müəyyənləşdirilib. Sonrakı mərhələdə – 2023-2027-ci illərdə üzv ölkələr arasında ticarət əlaqələrinin dərinləşməsi və daha əvvəlki dövrdə planlaşdırılan 6 istiqamətdə əlaqələrin inkişafının gerçəkləşdirilməsi nəzərdə tutulub. Nəhayət, sonuncu mərhələdə–2028-2030-cu illər ərzində isə üzv ölkələrin daxili ticarət dövriyyəsinin ümumi ticarət dövriyyəsinin 10 faizinə çatdırılacağı qarşıya mühüm vəzifə kimi qoyulub.

*V. BİNYATOĞLU*
*XQ*

# Media savadlılığının artırılması milli təhlükəsizliyin tələbidir

**Rəqəmsal transformasiya, onlayn informasiya resurslarının inkişafı, sosial media platformalarının çoxalması yaşadığımız dövrdə informasiya axınını sürətləndirir. Analitik mərkəzlər qeyd edirlər ki, indi hər gün dünyada təsəvvürə gəlməz dərəcədə çox, təqribən 2,5 kvintilyon bayt həcmində məlumat yaradılır və yayılır. İnsanlar, hətta fərdi istəkləri olmasa belə, gün ərzində yüzlərlə informasiyanı eşidir, görürü və dinləyirlər. Həmçinin, cəmiyyət üzvləri özləri də çox vaxt xəbər istehsalçısı və ya xəbər mənbəyi rolunda çıxış edirlər. İndi mobil cihazı, internet bağlantısı, sosial şəbəkə hesabı olan hər bir kəs ya xəbər alıcısı, ya da xəbər istehsalçısıdır. Yəni xəbər, məlumat emalı həyatımızın ayrılmaz bir parçasıdır.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Gündəlik xəbər dövriyyəsi təkcə etibarlı, düzgün məlumatlardan ibarət deyil. "Yanlış xəbər", "saxta xəbər", "dezinformasiya" da xəbər dövriyyəsində böyük paya malikdir. Analitik mərkəzlər qeyd edirlər ki, "saxta xəbər"in qlobal informasiya dövriyyəsində çəkisi 45-80 faiz aralığında dəyişir və dünya üçün ən aktual problemlərindən birinə çevrilir. "Saxta xəbər" insanları çaşdırır, səhv qərarlar verməsini, yanlış addımlar atmasını şərtləndirir. Bu baxımdan "saxta xəbər", "dezinformasiya" dünya üçün yeni fəlakət adlandırılır.

Bu da bir faktdır ki, "saxta xəbər" təsadüfən yaranmır. Xüsusən, "saxta xəbər"in bir növü olan dezinformasiya şüurlu şəkildə istehsal edilir, konkret hədəflərə qarşı yönəldilir və onu istehsal edənlərin məkrli niyyətlərinin təmin edilməsi üçün istifadə olunur. Rəqib dövlətlər bir-biri haqqında qəsdən saxtalaşdırılmış məlumatlar–dezinformasiyalar yaymaqla qarşı tərəfə zərər vura bilirlər. Bu baxımdan dezinformasiya termini müasir nəzəriyyələrdə "Hibrid müharibə"nin, yaxud "Assimmetrik müharibə"nin elementi kimi təsvir edilir. O, Amerika Birləşmiş Ştatlarının, Avropa İttifaqının geopolitik maraqlarının təmin edilməsi üçün istifadə olunan "soyuq silah" növlərindən biri kimi tanınır. Təsadüfi deyil ki, nüfuzlu "PolitiFact" platforması 2016-cı ildə "dezinformasiya"nı "ABŞ siyasətinin fenomeni" elan edib.

Azərbaycan da qlobal səviyyəli dezinformasiyalardan zərər çəkən ölkələr sırasındadır. Ölkənin strateji mövqeyi, qoşulduğu lokal və qlobal layihələr, həmçinin Ermənistanla münaqişə vəziyyətində olması onu total xarakterli dezinformasiya axınının hədəfinə çevirir. 2024-cü ilin iyul ayında keçirilən II Şuşa Qlobal Media Forumu zamanı qeyd olundu ki, Azərbaycan öz müstəqilliyini elan etdiyi tarixdən başlayaraq bu günə qədər dezinformasiya axınına məruz qalır. Problem 2020-ci ildə–44 günlük mübaribə dövründə daha qabarıq şəkildə üzə çıxıb. Sonradan "Laçın yolu" kampaniyası fonunda davam edib. 2023-cü ilin sentyabr ayında, yəni, antiterror tədbirlərinin keçirildiyi zaman pik nöqtəyə çatıb. Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 17-də "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyov ilə müsahibəsində COP29-a qarşı aparılan qarayaxma kampaniyasını da bu sıraya daxil edib. ABŞ-dan yayımlanan "The Washington Post", "The New York Times", Fransadan yayımlanan "Le Monde", "Le Figaro" nəşrləri tərəfindən COP29 və Azərbaycana qarşı xüsusi qaralama kampaniyasının gerçəkləşdirildiyini qeyd edib.

Məlumat üçün bildirək ki, ABŞ və Avropa İttifaqı ölkələrinin ərazisində yerləşən, dezinformasiya istehsalı ilə məşğul olan KİV-in siyahısı bu 4 qəzetlə yekunlaşmır. Müşahidələr göstərir ki, Amerika Birləşmiş Ştatlarının nəzarəti altında dezinformasiya istehsal edən, yayan, bu yolla ayrı-ayrı ölkələri hədəfə gətirib nüfuzdan salmağa çalışan geniş bir şəbəkə uzun illər ərzində formalaşdırılıb və fəaliyyət göstərir. Bu məqsədlə çox sayda transmilli KİV, beynəlxalq statuslu QHT, "insan haqları müdafiəçisi olan təşkilat"lar yaradılıb. Təsadüfi deyil ki, məşhur tədqiqat mərkəzlərindən olan "Statista" 2022-ci il üzrə hazırladığı hesabatda qeyd edib ki, qlobal informasiya məkanında dövr edən dezinformasiyaların kökü daha çox ABŞ-ın rəsmi dairələrinə bağlanır. Yəni, "saxta xəbərlər" ABŞ başda olmaqla, Qərb dövlətlərinin siyasi çevrələri tərəfindən istehsal olunur, transmilli KİV tərəfindən tirajlanır. Dövrümüzdə mövcud olan qanlı münaqişələrin, müharibələrin bir çoxu da bu mənbədən qaynaqlanır.

Bu mənada yaşadığımız dövrdə informasiya təhlükəsizliyi milli təhlükəsizliyin elementinə çevrilir. Təkcə dövlət strukturları deyil, ictimai qurumlar, ayrı-ayrı fərdlər də milli informasiya məkanının keşiyində durmalı, ölkəmizə qarşı yönəlmiş saxta xəbərlərin ifşası üçün töhfə verməlidirlər.

İndiki xəbər bolluğunda düzgün olanı seçmək, informasiya etibarlılığını müəyyənləşdirmək üçün vətəndaşların müəyyən bacarıqlara malik olması zərurəti yaranır. İnsanlar doğru xəbəri saxta xəbərdən ayırd edə bilməli, yalan xəbərin təsirinə düşməkdən yayınmağı bacarmalıdırlar. Bir sözlə, insanlar xəbər istehsalı, emalı və istehlakı barədə ən azı ümumi bilgilərə malik olmalıdırlar ki, bütün bu elementlərin hamısı "media savadlılığı" proqramında ifadə olunur.

2022-ci ildən qüvvəyə minmiş "Media haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə media savadlılığının artırılmasını zəruri tələb kimi irəli sürür. Qanunun 10-cu maddəsi ölkə vətəndaşlarının media savadlılığının artırılması yönündə öhdəlikləri müəyyən edir. Buna uyğun olaraq, müxtəlif proqramlar icra olunur, tədbirlər gerçəkləşdirilir.

Əlamətdar haldır ki, Medianın İnkişafı Agentliyi media savadlılığının artırılması yönündə işlərin səməriliyini təmin etmək üçün xüsusi proqram və internet informasiya resursu hazırlayıb. 2023-cü ildə Agentlik tərəfindən "Medialiteracy.media.gov.az" portalı yaradılaraq istifadəyə verilib. Bu portal media savadlılığı istiqamətdə məlumat almaq istəyənlər üçün mühüm töhfəyə çevrilib. Medianın İnkişafı agentliyi paralel olaraq "media savadlılığı həftəsi" mövzusunda kampaniyalar təşkil edir. Agentliyin media savadlılığının artırılması üzrə proqramları bu cür sistemli şəkildə təşkil etməsi vətəndaşların mövzuya marağını artırır. Fikrimcə, bu cür proqramların və kampaniyaların təşkil olunması Azərbaycanda media savadlılığının inkişaf etdirilməsini stimullaşdırır, nəticədə ölkəmizə qarşı yönəlmiş dezinformasiyaların ifşa edilməsinə şərait yaradır.

# D-9-un yol xəritəsi və ünvanı məlumdur

## *Əsas hədəf üzv dövlətlərin birgə tərəqqisidir*

**Birmənalı şəkildə deyə bilərik ki, İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində Azərbaycanın yekdilliklə D-8 təşkilatına üzv seçilməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin növbəti təntənəsidir. Bu uğur, eyni zamanda, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına üzvlüyündən başladığı yolun məntiqi davamı sayılmalıdır.**

Əslində, Azərbaycanın D-8-ə üzv qəbul olunması ilə D-9-a çevrilən İqtisadi Əməkdaşlıq Təşkilatında ölkəmizin xüsusi çəkiyə malik söz sahibi olacağı şəksizdir. İndidən görünən odur ki, əlverişli coğrafi mövqeyə, geniş iqtisadi potensiala malik, transmilli nəqliyyat qovşaqlarının üstündə yerləşən, eləcə də Cənubi Qafqazın aparıcı dövləti statusunu qazanan Azərbaycanın G-8-ə üzvlüyü İƏT-in həm daxildə, həm də beynəlxalq müstəvidə mövqelərini daha da gücləndirəcək. Bu müstəvidə biz Azərbaycanın İslam dünyasında həmrəyliyin möhkəmlənməsinə, İslami dəyərlərin dünyada təbliğinə və İslamofobiya ilə mübarizədə verəcəyi önəmli töhfələrin şahidi olacağıq.

Azərbaycan yeni statusunda beynəlxalq tribunalardan narahat dünyamızın problemlərini daha ötkəm səslə bəyan edəcək, qitələr və sivilizasiyalararası əməkdaşlığın və dostluğun alternativinin olmadığını isbatlayacaq. Bakı əsas müzakirə mövzusu məhz bu dəyərlərin qorunması olduğu ən nüfuzlu beynəlxalq forum, konfrans və sammitlərə dəfələrlə evsahibliyi edib. Buradan edilən çağırışları təkcə İslam ölkələri deyil, xristian Qərb də hələ unutmayıb.

Bu da maraqlı faktdır ki, təməli 28 il bundan əvvəl İstanbulda qoyulan D-8 bu günədək genişlənməyib. İƏT-in Qahirə Sammitində Azərbaycanın üzvlüyə qəbulu ilə genişlənən təşkilatı artıq D-9 adlandırmaq olar. Danılmaz həqiqət ondan ibarətdir ki, bu, rəsmi Bakının regionda, eləcə də beynəlxalq müstəvidə yaratdığı yeni geosiyasi reallıqların təzahürü olmaqla yanaşı, Azərbaycanın həm Şərqin, həm də Qərbin "gücləri" tərəfindən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilməsinin isbatıdır.



Coğrafiyası üç qitəni əhatə edən, ÜDM-i 4 trilyon ABŞ dollarını aşan, 130 milyard ticarət dövriyyəsini həyata keçirən, üzvlərinin əhalisinin sayı ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən (1,2 milyard nəfərdən çox), nəhəng iqtisadi areala malik "İslam Səkkizliyi"nə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan yüksək etimadın nümunəsi sayılmalıdır. Bundan başqa, Azərbaycanın siyasi qüdrəti də, əlbəttə, həm D-8, həm də İƏT üçün müstəsna rol oynayacaq. Məhz rəsmi Bakının timsalında hər iki təşkilatın beynəlxalq müstəvidəki çəkisi daha da artacaq. Azərbaycanın yeni üzv kimi təşkilat daxilində oynayacağı rolu dünya liderləri də yaxşı başa düşür, müsbət qiymətləndirirlər. Bu baxımdan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın üzvlüyü ilə bağlı təbrikində qeyd etdiyi fikirlər xüsusi əhəmiyyətə malikdir: "Azərbaycanın təşkilatımıza üzv olması ilə birlikdə bu gün dünəndən daha güclüyük".

İƏT-in XI Sammitinə evsahibliyi edən Misir Prezidenti Əbdül Fəttah əs-Sisi Azərbaycanın təşkilata üzvlüyünün İslam ölkələri arasında əlaqələrdə yeni səhifənin açacağına əminliyini bildirib. İslam dünyasının iki aparıcı dövlətin liderlərinin səsləndirdikləri bu fikirlər Azərbaycanın beynəlxalq aləmdə artan danılmaz roluna verilən qiymətlə yanaşı, həm də onun D-8-in bundan sonrakı fəaliyyətinə verəcəyi töhfələrə olan inamla bağlıdır.

Başqa bir məqam isə ondan ibarətdir ki, məhz rəsmi Bakının D-8-ə üzvlüyü ilə islamafobiyaya qarşı mübarizə daha da güclənəcək. Azərbaycan onsuz da indiyə qədər bu istiqamətdə fəal işlər görürdü. İndi isə islamofobiyaya qarşı mübarizədə Azərbaycanın daha təsirli addımlar atmasına şərait yaranacaq. Bu, əlbəttə, təkcə Azərbaycan yox, D-8-in bütün üzvləri və bütövlükdə müsəlman dünyası üçün ciddi dividenddir.

*(ardı 12-ci səhifədə)*

Diplomatik savaş

# Avstraliyalı deputatlar fransızların yolunu gedirlər

**Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş ərazilərində 32 il mövcud olmuş, varlığına ordumuzun Zəfər yürüşü nəticəsində 2023-cü ildə son qoyulmuş separatçı xunta rejiminin "qlavar"larının cinayət işi üzrə ittiham aktının 2024-cü il dekabrın 16-da baş prokuror tərəfindən təsdiq edilərək baxılması üçün aiddiyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilməsi erməni lobbisinin ölkəmizə qarşı təzyiqlərinin yeni dalğasının başlanmasına rəvac verib. Dünyanın hər yerində, əsasən Qərb ölkələrində özlərinə "yuva salmış" ermənilərin pulla ələ aldıqları parlament üzvləri bu istiqamətdə xüsusi canfəşanlıq edirlər. Deməк olar ki, hər gün hansısa Qərb ölkəsinin qanunverici orqanında Azərbaycanla bağlı bədnam təşəbbüslər irəli sürülür.**

Qərəzli yanaşmanın əks olunduğu, məsələlərə subyektiv, birtərəfli qaydada yanaşıldığı bu qətnamələrin az qala birinin mürəkkəbi qurumamış digəri hazırlanaraq müzakirəyə çıxarılır. Əlbəttə, Azərbaycan cəmiyyəti bu kağız parçalarının ölkəmizə qarşı xeyli müddətdir, ələlxüsus, 44 günlük Vətən müharibəsindən və lokal xarakterli antiterror tədbirlərindən sonra geniş vüsət almış iftira və böhtan kampaniyasının ayrılmaz tərkib hissəsi olduğuna qətiyyən şübhə etmir. Avropa Parlamentinin dekabrın 19-da qəbul etdiyi qərəzli qətnaməsinə Milli Məclisin elə həmin gün yayımlanan münasibətində bildirildiyi kimi, xüsusən süni şəkildə yaradılmış bütün əngəlləri dəf edərək, iqlim dəyişmələri ilə mübarizədə dünya ictimaiyyətinin səylərini birləşdirməyə nail olan ölkəmizin əldə etdiyi uğurlar fonunda bu kampaniyanın müxtəlif "elementlər"lə zənginləşdirilərək daha da genişləndiriləcəyi gözlənilən idi. Bu mənada, azərbaycanofob, türkofob və islamofob qüvvələrin cəmləşdiyi Avropa Parlamenti də bu kampaniyaya mütləq öz "töhfəsini" verməli idi. Qəbul edilmiş qətnamənin nə dərəcədə qərəzli olduğunu anlamaq üçün təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ölkəmizin ərazisində insanlıq əleyhinə cinayət törətməkdə təqsirləndirilən keçmiş separatçı rejimin nümayəndələri və terrorçular bu sənəddə "erməni hərbi əsirlər" kimi təqdim olunur.

Avroparlamentarilərin "haray"ına bugünlərdə uzaq Avstraliyadan olan iki deputat "yetişib". Onlardan biri Maykl Sukkar, digəri Pol Fletçerdir. M.Sukkar bir neçə gün öncə Azərbaycanın Avstraliyadakı müvəqqəti işlər vəkili Vaqif Cəfərova müraciət edərək keçmiş xunta rejiminin sayca üçüncü "qlavarı", ona ən uzun müddətə (2007–2020-ci illərdə–S.H.) başçılıq etmiş Bako Saakyanı dərhal (?) azad etməyə çağırıb. O, məktubunda səfirliyi Saakyanın zamini kimi çıxış etmək niyyəti barədə məlumatlandırıb və "Artsaxın keçmiş prezidenti" adlandırdığı cinayətkarın fiziki və psixi vəziyyəti ilə bağlı aylıq hesabatlar verməyə çağırıb: "Mənim Saakyanın zamini olmaq istəyim erməni "siyasi məhbuslar"ın vəkillərinin, xüsusən də Cared Qenserin yaydığı hesabatlarla bağlıdır. Cənab Qenser BMT-nin xüsusi məruzəçisinə "dəhşətli işgəncə və qeyri-insani rəftar" halları barədə məlumat verib".

M.Sukkarın bu əməli Avstraliyada yaşayıb fəaliyyət göstərən hayların sevincinə səbəb olub. Avstraliya erməni milli komitəsinin icraçı direktoru Mikael Kolokosyan deputat M.Sukkara B.Saakyanın siyasi zamini olmaq istəyinə görə dərin minnətdarlığını bildirib, "ədalət uğrunda mübarizədə" belə təbliğatın vacibliyini vurğulayıb.

Avstraliya parlamentinin daha bir üzvü Pol Fletçer isə Bakını vaxtilə özünü qondarma rejimin "parlament sədri" kimi qələmə verən hərbi cinayətkar David İşxanyanı "dərhal azad etməyə" çağırıb. Avstraliyalıların seçmiş olduğu nümayəndə seçiciləri qarşısındakı öhdəliyini unudaraq, çağırışını 2019-cu ilin sentyabrında İşxanyanla Avstraliya parlamentində keçirdiyi görüşdən "məmnun qalması" faktı ilə əsaslandırıb. Deyib ki, bu səbəbdən İşxanyanın Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasında saxlanması onu xüsusi narahat edir. Eyni zamanda, Fletçer çağırışında "Avstraliya Azərbaycanı izləyir" kimi əndrabadi cümlə işlədib.

Qeyd edək ki, Avstraliya parlamenti iki palatadan – Nümayəndələr Palatası və Senatdan ibarətdir. Maykl Sukkar Nümayəndələr Palatasında 2013-cü ilin sentyabrından bəri Viktoriya ştatının dairələrindən birini təmsil edir. O, Liberal Partiyanın üzvüdür. Eyni zamanda, Sukkar müxtəlif vaxtlarda maliyyə nazirinin müavini və mənzil inşaatı naziri vəzifələrində çalışıb. Pol Fletçer də Liberal Partiyanın üzvüdür. O, parlamentdə 2009-cu ildən bəri Yeni Cənubi Uels ştatını təmsil edir. 2015–2022-ci illərdə əvvəlki hökumətlərdə nazir vəzifəsini də tutub. Hər iki şəxsin keçmişi ilə bağlı kiçik araşdırma apardıqda onların bundan əvvəl də ermənilərə lobbiçilik etdikləri, daha doğrusu, onlardan pul alaraq sözlərini çatdırdıqları aydın olur. Məsələn, bu iki şəxsin bilavasitə təşəbbüsü ilə 2019-cu ilin avqustunda Avstraliyada "Artsaxla dostluq cəmiyyəti"nin yaradıldığı elan olunub.



Cəmiyyətə digər şəxslərlə yanaşı, federal parlamentin deputatları və senatorları, nazirlər də daxil idi. Onun işində Fletçerin qanunverici orqanda təmsil etdiyi Yeni Cənubi Uels ştatının baş naziri, ştat parlamentinin yuxarı və aşağı palatalarının sədrləri xüsusi fəallıq göstərirdilər. Məhz həmin ilin avqustunda İşxanyan Avstraliyaya səfər edib, baxmayaraq ki, Fletçer tarixi qarışdırır və beş il əvvəlin sentyabr ayından danışır. Üstəlik, həmin il iyulun 30-da federal parlamentdə İşxanyanla birgə getmiş Qarabağ separatçıları üçün rəsmi qəbul təşkil olunub. Yeri gəlmişkən, 2019-cu ilin elə iyul ayında Sidneyin kənarında yerləşən Rayd şəhəri ilə erməni cinayətkarların "Stepanakert" adlandırdıqları tarixi Azərbaycan şəhəri Xankəndi arasında dostluq münasibətlərinin qurulduğu bəyan edilib.

Burada belə bir sual yaranır: Avstraliyanın bəzi deputatları Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edəndə, hərbi cinayətkarları öz vətənlərində yüksək qonaqpərvərliklə qarşılayanda beynəlxalq hüququn norma və prinsiplərini pozduqlarını heç düşünürdülərmi? Əlbəttə, sual ritorikdir və cavab aydındır. Qərb dövlətlərini təmsil edən şəxslər Azərbaycanla bağlı hər bir məsələyə ikili standartlar çərçivəsində yanaşırlar. Bu hadisə də onlardan biridir.

Avstraliyalı deputatların hərəkəti onların fransız həmkarlarının əməllərini yada salır. Həmin əməllərin nədən ibarət olduğunu isə Prezident İlham Əliyev dekabrın 17-də "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində aydın izah edib: "...İkinci Qarabağ müharibəsi başlananda onlar açıq şəkildə işğalçıların tərəfini tutdular. Bu, ilk belə siqnal idi ki, münasibətlərimizdə heç də hər şey qaydasında deyil. Lakin onların tərəfindən verilən siqnal idi. Sonra onlar bu nəticələri hər halda qəbul etməyə məcbur oldular, amma bununla yanaşı, əllərindən gələni etdilər ki, prosesə zərər versinlər. Bu yaxınlarda Baş nazir vəzifəsindən qovulmuş cənab Barnye hələ 2020-ci ildə fransız siyasətçisi qismində Qarabağa qanunsuz şəkildə səfər etmişdi. Yəni bütün bu müdaxilə cəhdləri ona gətirib çıxardı ki, münasibətlərimiz, sadəcə, böhran həddinə çatdı, sonradan daha da pisləşdi. 2023-cü ilin sentyabrından sonra onlar beş dəfə bu məsələni Təhlükəsizlik Şurasına daşımağa cəhd etdilər və beş dəfə də uğursuzluğa düçar oldular. Bizi dəstəkləyən ölkələrin sayı onlara həmin məsələni hətta iclasın gündəliyinə salmağa da imkan vermədi. Sonra onlar başqa yolla getdilər, – necə deyərlər, biz başqa yolla Avropa İttifaqına gedirik, – Azərbaycana qarşı sanksiyalara cəhd etdilər. Nəyə görə? Ona görə ki, biz öz suverenliyimizi bərpa etmişik? Burada da uğursuzluğa düçar oldular. Bizə qarşı kinləri, necə deyərlər, daha çox artdıqdan sonra isə onlar indi bizi nüfuzdan salmaq üçün bütün metodlardan istifadə edirlər".

Yaxşı olar ki, M.Sukkar, P.Fletçer, eləcə də onların timsalında digər deputatlar Azərbaycanla bağlı hətərən-pətərən danışmaqdansa, Avstraliya xalqının ölkənin aborigen xalqlarının təmsilçilərinin ştatların parlamentində tamhüquqlu deputat kimi təmsil olunmalarına dair etdikləri çoxsaylı çağırışlara reaksiya versinlər. Yeri gəlmişkən, qeyd edək ki, Avstraliya Statistika Bürosunun 2023-cü ildə açıqladığı məlumata görə, 2021-ci ildə yerli avstraliyalıların bu hüququnun həyata keçirilməsinə dair referendumda ölkə əhalisinin 40 faizdən çoxu müsbət fikir bildirib. Aborigenlər hazırda Avstraliyanın bütün əhalisinin 4 faizdən azını təşkil edir və onlar insan inkişafı indeksi üzrə çox yüksək yerdə qərarlaşmış bu ölkənin ən yoxsul vətəndaşlarıdır. Lakin, görünür, avstraliyalı deputatlar üçün ştatların yerli sakinlərinin taleyi eynicinsli şəxslərin nikahlarının qanuniləşdirilməsindən (bu, 2017-ci ildə baş verib–S.H.) və ya Qarabağdakı hərbi cinayətkarların həbsi və ədalət mühakiməsi önünə çıxarılmalarından daha az əhəmiyyət daşıyır.

**Mövzu üzrə XQ-nin sualını cavablandıran politoloq Yeganə Hacıyevanın sözlərinə görə, Avstraliya Cənubi Qafqazdan o qədər uzaqdadır ki, orada yaşayanlar, o cümlədən avstraliyalı siyasətçilər, deputatlar proseslərin necə olmasından tam xəbərsizdirlər:** "Avstraliyada bir sıra şəxslər var ki, onlar erməni diasporu ilə yaxın olmaları, ermənilərə lobbiçilik etmələri səbəbindən belə absurd açıqlamalar verirlər. Bu cür məsuliyyətsiz açıqlamalar Qərb dünyasında siyasətin necə səriştəsiz insanlar tərəfindən aparıldığını bir daha sübut edir. Onların çağırışları ilk növbədə hüquqa hörmətsizlikdir. Saxlanılan şəxslər ölkəmizin daxili qanunvericiliyi, eləcə də beynəlxalq hüquq, BMT konvensiyaları tərəfindən cinayət kimi təsnif edilən əməllərdə ittiham olunurlar. Həmin şəxslər toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə törədilən cinayətlərdə ittham olunurlar. Bu cinayətlərə sülh və bəşəriyyət əleyhinə törədilən əmələr, soyqırımı, terrorçuluğun dəstəklənməsi, maliyyələşdirilməsi, ekologiyanın məhv edilməsi kimi ağır cinayətlər daxildir. Onların bir çağırışla azadlığa buraxılacaqlarına inanmaq absurddur. Amma bu absurdluq Qərb siyasətinin simasıdır".




Y.Hacıyeva bildirdi ki, bu cür çağırışlar, eyni zamanda, ölkəmizin məhkəmə-hüquq sisteminə hörmətsizlikdir: "Onlar bununla ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsiplərindən xəbərsiz olduqlarını ortaya qoyurlar. Yəni məramının nə olmasından asılı olmayaraq, belə çağırışlar etmək bütün hallarda səriştəsizlikdən irəli gəlir və qəbulolunmazdır".

***Səxavət HƏMİD***
***XQ***



# AP-dən Azərbaycana "qərəz yağışı"

(əvvəli 1-ci səhifədə)

AP-nin anti-Azərbaycan motivli hərəkət və davranışlarının arxasında Ermənistan amili var. Qurumun deputatları, nəyin bahasına olursa-olsun, rəsmi İrəvanı Bakı qarşısında üstün mövqeyə gətirmək istəyirlər. İstəklərini ölkəmizi gözdən salmaq məramları ilə reallaşdırmağa cəhd göstərirlər. Mövcud trayektoriyada isə COP29 məsələsində Azərbaycana hədyanlar yağdırmaq, bir növ, adət halını alıb.

Beləliklə, qətnamədə bildirilir ki, guya rəsmi Bakı 2023-cü ildən bəri xüsusilə COP29 sammiti ətrafında repressiyaları kəskinləşdirib və intensivləşdirib. Sən demə, Qarabağın keçmiş rəhbərləri də daxil olmaqla 23 erməni hərbi əsir də repressiya qurbanı imiş. Söhbət hərbi cinayətkarlardan gedir. O cinayətkarlardan ki, əlləri minlərlə dinc azərbaycanlının qanına batıb. Budurmu AP-nin ədaləti?!

Əlbəttə, AP-dən ədalət gözləyəcək deyilik. Qurumun qətnaməsinin birbaşa Azərbaycanla Ermənistan arasında sülh mühitinin formalaşmasına maneçilik törətməyə hesablandığı və pensionerlər klubunun "direktivləri" Fransadan aldıqları gün kimi aydındır. Deməli, bir tərəfdə Bakı və İrəvan barış yaratmaq üçün müzakirələr aparırlar, digər yanda isə AP Azərbaycanı qınayır, elə təəssürat yaradır ki, sanki ölkəmiz sülh istəmir. Yaxşı bəllidir ki, sülh istəməyən və Cənubi Qafqazda eskalasiya mühiti yaratmaq naminə əlindən gələni edən rəsmi Parisdir və Fransa rəhbərliyi vaxtaşırı AP-nin uşaq oyuncağına oxşayan deputatlarını ona görə ortaya salır ki, beynəlxalq ictimai rəydə Azərbaycanın mənfi, despot obrazı formalaşsın, sonra da iddia edilsin ki, belə bir dövlətlə sülhə gəlmək mümkünsüzdür. Necə deyərlər, həmin dalğa, həmin koordinat.

Qeyd edək ki, bir vaxtlar AP-də Aİ-ni və üzv dövlətləri "Qarabağda atəşkəs rejiminin və insan hüquqlarının çoxsaylı pozulması hallarına görə" Azərbaycanın guya məsuliyyət daşıdığını da bildirilirdi. Bundan başqa, onlar Aİ-nin Xarici siyasət üzrə ali nümayəndəliyini "Qarabağın erməni əhalisinin hüquqlarına və təhlükəsizliyinə hörmətlə yanaşmağa həqiqi iradə nümayiş etdirənə" qədər, Azərbaycanla tərəfdaşlıq sazişinin yenilənməsi üzrə danışıqları dayandırmağa çağırmışdılar. 2024-cü il yanvarında AP-nin Brüsseldəki binasında "Dağlıq Qarabağın mədəni və dini irsinin qorunması" adlı konfransın təşkili və orada Qarabağdakı mədəni və dini irslə bağlı ənənəvi erməni tezisləri təkrarlanması da eyni məkrli ssenarinin davamı olmuşdu.

Xatırladaq ki, AP-nin oktyabrdakı qərəzli qətnaməsindən sonra Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko ölkəmizin Xarici İşlər Nazirliyinə çağırılmış, ona etiraz notası təqdim edilmişdi. Səfir Mixalkonun diqqətinə çatdırılmışdı ki, Aİ-nin müxtəlif institutları vasitəsilə ölkəmizə qarşı qarayaxma kampaniyasının davam etdirilməsi, suverenliyimizə və ərazi bütövlüyümüzə qəsd edən, daxili işlərimizə müdaxilə edən bəyanat və addımları Ermənistanda revanşizmi təşviq edir, regionda sülh səylərinə xələl gətirir...

Bəli, gündəmdə Ermənistandakı revanşizmin fonunda regionda sülh səylərinə xələl gətirilməsi məsələsi var. Bunun üçün isə rəsmi İrəvanı daha çox illüziya bataqlığına sürükləmək, onun reallıq hissini tamamilə itirməsinə nail olmaq lazımdır. Bunun üçün kollektiv Qərb Ermənistana var gücü ilə dəstək verdiyini göstərməlidir. Ona görə də müxtəlif təsisatlar anti-Azərbaycan ritorikalarını gücləndiriblər və görünür, qarşıdakı müddətdə mövcud tendensiya daha yeni "çalarlar" qazanacaq. İtirən isə Ermənistan olacaq. Buna heç bir şübhə yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# D-9-un yol xəritəsi və ünvanı məlumdur

(əvvəli 11-ci səhifədə)

Azərbaycan XİN-in ölkəmizin D-8-ə üzv qəbul olunmasına dair mətbuat üçün yaydığı məlumatında qeyd olunduğu kimi, bu hadisə Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və etimadın bariz nümunəsidir. Bu formatda regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi-ticari, nəqliyyat, kommunikasiya və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyinin vurğulandığı məlumatda deyilir ki, üzvlərinin əhalisinin sayının, ümumilikdə, dünya müsəlmanlarının 60 faizini təşkil edən və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir.




Məlumatda qeyd olunur ki, ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasına, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq: "Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü, eyni zamanda, İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq".

Beləliklə, Azərbaycanın sözügedən təşkilata üzvlüyü ilə nəinki ölkənin xarici siyasət kursunda, həm də müsəlman aləmində yeni mərhələnin başlanğıcı demək olacaq. Bu mərhələnin yekunu isə İƏT-in və D-9-un üzvü olan inkişaf etmiş müsəlman dövlətlərindən birinin BMT Təhlükəsilzik Şurasının daimi üzvü kimi müstəsna status qazanması olmalıdır. Məhz bu strateji istiqamətə yönəlik "yol xəritəsi"nın cızıldığını "Dünya beşdən böyükdür" deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, BMT strukturunda islahatların aparılması zərurətini qeyd edən Azərbaycan Prezidenti İlham Əliyevin mesajları fonunda müşahidə etmişik.

Məqsəd və hədəfləri bəlli olduğu D-9-un yolunun üzərində görünəcək maneələri, Azərbaycan daxil olmaqla, İƏT üzvlərinin qətiyyətlə aşacağına əminik.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qarabağ yeni layihələrin pilot meydanıdır

**Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyovla müsahibəsində dövlətimizin başçısı jurnalistin "Rusiya şirkətləri Qarabağın bərpasında iştirak edirmi?" sualına cavabında bildirib ki, işğalçının dağıtdığı yaşayış sahələrinin yenidən qurulmasında Rusiya şirkətlərinin sayı az olsa da, fəaliyyətlərində səmərəlilik diqqət çəkir. Ölkə rəhbəri hazırda Həştərxan vilayətinin qubernatorunun tapşırığına əsasən, Qubadlı rayonunda uşaq bağçasının tikildiyini, Qarabağda Rusiyanın ilk investisiya layihəsi olan "KamAZ" xidmət mərkəzinin bərpa-quruculuq prosesində yaxından iştirak etdiyini də vurğulayıb.**



Xatırladaq ki, istər rusiyalı, istərsə də digər xarici iş adamlarının Qarabağ və Şərqi Zəngəzurda səmərəli fəaliyyət göstərmələri üçün onlara 2023-cü il yanvarın 1-dən 10 il müddətinə gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilər üzrə güzəştlər verilib. Ümumiyyətlə, Azərbaycanda formalaşan əlverişli biznes mühiti və xarici investorlar üçün yaradılan cəlbedici imkanlar, habelə tətbiq edilən vergi və gömrük güzəştləri xarici sərmayədarların ölkəmizə marağını artırıb. Bərpaolunan enerji, sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və logistika, rəqəmsallaşma kimi bir çox sahələrdə xarici investorlarla birgə uğurlu layihələrin həyata keçirilməsi daim diqqətdə saxlanılıb.

Bu gün işğaldan azad edilən ərazilərdə yaşayış sahələrinin salınması sürətlə həyata keçirilir, məktəblər, xəstəxanalar, sosial obyektlər tikilir və bütün bu tikinti-quruculuq işləri keçmiş məcburi köçkünlərin ləyaqətli şəkildə məskunlaşdırılmasına xidmət edir.

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Prezident İlham Əliyevin çıxışlarının birində bununla bağlı söylədiyi fikir diqqət çəkir: "Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, – həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə".

Onu da qeyd edək ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl" enerji zonası elan edib. Dövlətimizin başçısının 2021-ci ildə imzaladığı müvafiq sərəncamla işğaldan azad olunan ərazilərin bərpası üzrə konsepsiya hazırlanıb. Eyni zamanda, Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl" enerji zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiqlənib.

Ötən müddətdə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalının gerçəkləşdirilməsi, enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsi, elektrik nəqliyyat vasitələrindən istifadə üçün infrastrukturun qurulması, tikililərin damlarında bərpaolunan enerji qurğularının yerləşdirilməsi, xüsusən günəş panellərinin quraşdırılması, həmçinin küçələrin və yolların LED lampaları ilə işıqlandırılması kimi, "yaşıl" həllərin tətbiqi istiqamətində genişmiqyaslı işlər görülüb.

Dövlət başçısı müsahibədə bununla bağlı fikirlərini belə ifadə edib: "Qarabağda və Şərqi Zəngəzurda son 3 ildə təxminən 300 meqavatlıq kiçik SES-lərin yaradılması layihələrini artıq həyata keçirmişik və iki ildən sonra bu, 500-ə çatacaq. Əlavə olaraq, külək və günəş energetikasını xarici investisiyalar hesabına fəal şəkildə inkişaf etdiririk. Dünya Bankının qiymətləndirməsinə görə, təkcə Xəzərdə külək enerjisi ehtiyatları 157 min meqavatdır. 2030-cu ilə qədər artıq imzalanmış müqavilələr və indi yerinə yetirilənlər bizə 6 min meqavat verəcək".

Bu məqamda onu da qeyd edək ki, təkcə Qarabağda deyil, ümumiyyətlə, Azərbaycanda son illər sözügedən sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. Məsələn, MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası – 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub: "Masdar" şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 meqavatlıq, Biləsuvarda isə 445 meqavatlıq GES və Abşeron-Qaradağ rayonları ərazisində 240 meqavatlıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən 3 yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Respublikada "yaşıl" enerjinin reallaşdırılması üçün normativ hüquqi bazanın formalaşdırılması da diqqət mərkəzində saxlanılıb. "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Qanundan irəli gələn 4 alt qanunvericilik aktı təsdiqlənib. "Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası" əsasında bağlanan müqavilələr və keçiriləcək hərraclarla bağlı hüquqi çərçivə müəyyənləşdirilib. Bununla da investorların səmərəli fəaliyyətinə əlverişli zəmin yaradılıb. Eyni zamanda, fəal istehlakçıların dəstəklənməsi və "yaşıl" sertifikatlarla bağlı qaydalar təsdiqlənib. Bütün bunlarla bərabər, bərpaolunan enerji mənbələri üzrə informasiya sistemi formalaşdırılaraq artıq istifadəyə verilib.

Hazırda ölkəmizdə "yaşıl" enerjidən istifadənin genişləndirilməsi məqsədilə dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerji ixracı, "yaşıl" enerjinin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, "yaşıl" hidrogen, elektromobillik və digər məsələlərlə bağlı layihələr hazırlanır. Ümumiyyətlə, "yaşıl" inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsi məsələsi daim diqqətdə saxlanılır.

Prezident İlham Əliyev sözügedən müsahibəsində jurnalistin "Bu yaxınlarda Azərbaycan nəhəng iqlim sammitinə evsahibliyi etdi. Hansı çətinliklərlə üzləşməli oldunuz və bu sammitin əsas nəticələri nədən ibarətdir?" sualını da ətraflı cavablandıraraq deyib: "Başlıca çətinlik ondan ibarət idi ki, bizim vaxtımız az idi. Bir qayda olaraq, ölkələrə hazırlıq üçün 2 il vaxt verilir. Bizim isə 11 ayımız var idi. Bunun səbəbi o idi ki, ötən ilin dekabrında qərar qəbul edilməsinə iki-üç gün qalmış Ermənistan hələ də Azərbaycanın namizədliyini bloklayırdı. COP29-un Bakıda keçiriləcəyi ilə bağlı konsensus olmadığına görə məsələ son günlərdə həll edildi. Ona görə də hazırlaşmaq üçün bizim cəmi 11 ayımız var idi və bu, ən böyük çətinlik idi. Çünki biz 70 mindən çox insanı qəbul etmək üçün şərait yaratmalı idik. Qeydiyyatdan 76 min iştirakçı keçmişdi. Onları yerləşdirmək, mehmanxana fondunun sertifikatlaşdırılmasını yenidən aparmaq, – belə ki, bizim mehmanxana fondunda bu qədər yer yoxdur, – qonaqların yerləşdirilməsi məkanlarını müəyyən etmək lazım idi".

Dövlətimizin başçısının müsahibədə vurğuladığı kimi, Azərbaycan həmin çətinliklərin öhdəsindən fədakarlıqla gəldi. Belə ki, qısa müddətdə müxtəlif istirahət zonaları müəyyənləşdirildi, həmçinin tikilmiş, amma hələ istifadəyə verilməmiş mənzil fondu obyektləri mehmanxana normalarına uyğun vəziyyətə gətirildi. Bu, çox böyük təşkilati iş idi və Azərbaycan onun öhdəsindən şərəflə gəldi. Bütün bunlarla bərabər, məlum qüvvələrin Azərbaycana qarşı paxıllıqla müşayiət olunan qərəzi, qarayaxma kampaniyası haqq-ədalət qarşısında məğlub oldu, heç bir nəticə vermədi. Ən böyük qələbə isə COP29 əldə edilən uğurlara görə "Bakı dönüşü" adlandırıldı. Çünki Paris Sazişinin 6-cı maddəsi razılaşdırıldı, 2015-ci ildən müzakirə olunan karbon bazarları problemi həll edildi. Bu, ölkələrə kvotaları satmağa və bununla da qlobal emissiyanı arzuolunan həddə saxlamağa şərait yaratdı.

## Dəniz nəqliyyatında sərnişindaşıma artıb

**Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda dəniz nəqliyyatı ilə 7 milyon 932,5 min ton yük daşınıb. Bu barədə XQ-yə Dövlət Statistika Komitəsindən məlumat verilib.**




Bildirilib ki, yüklərin 48,6 faizi neftin payına düşüb. Hesabat dövründə ölkənin dəniz limanları tərəfindən 12 milyon 921,3 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 10 milyon 377 min tonunu və ya 80,3 faizini tranzit yüklər təşkil edib. 2024-cü il dekabr ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi isə 591,3 min ton olub.

Cari ilin 11 ayında dəniz nəqliyyat ilə 26 min nəfər sərnişin daşınıb ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 19,3 faiz çoxdur.



## Yeni nəhəng bərə-gəmi inşa olunur

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda "Ro-Pax" tipli sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyan bərə-gəminin inşası sürətlə davam etdirilir.**

Artıq gəminin baş mühərriklərinin quraşdırılması prosesi başa çadırılıb. Ümumilikdə isə, bu nəhəng su nəqliyyatının gövdə hissəsi üzrə işlərin 80 faizi tamamlanıb. Hazırda gəmi üzrə boru, elektrik, havalandırma və digər sahələrlə bağlı işlər layihə planına uyğun davam etdirilir.

Xatırladaq ki, bu, ASCO-nun sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda tikilən sayca üçüncü "Ro-Pax" tipli gəmidir. Bundan öncə inşa edilərək təhvil verilən eyni tipli "Azərbaycan" və "Zərifə Əliyeva" gəmiləri hazırda Orta Dəhliz üzrə yükdaşımaların həyata keçirilməsində uğurla istismar olunur.

## AYİB ölkəmizin etibarlı maliyyə tərəfdaşıdır

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycanın ən böyük institusional investoru və uzunmüddətli tərəfdaşıdır. Ötən 30 ildən artıq bir dövr ərzində bank ölkəmizdə mühüm, strateji və uzunmüddətli layihələrin maliyyələşdirilməsində yaxından iştirak edib.**




AYİB-nin ölkəmizdəki daimi nümayəndəliyinin rəhbəri Natali Mouravidze yerli mətbuata açıqlamasında bildirib ki, təmsil etdiyi qurum indiyədək Azərbaycanda 194 layihəyə 4 milyard avrodan çox sərmayə qoyub. Onun sözlərinə görə, bank bu illər ərzində Azərbaycanda investisiya, texniki əməkdaşlıq və islahatlar vasitəsilə iqtisadiyyatın şaxələndirilməsini dəstəkləyib.

Qurum rəsmisi deyib ki, yerli bizneslərin kreditləşdirilməsi və ticarətin dəstəklənməsi üçün bank "AccessBank", "Bank Respublika" və Azərbaycan Beynəlxalq Bankını maliyyələşdirib: "Biz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ilə 42 milyon dollar məbləğində kredit sazişi imzalayaraq Azərbaycanın nəqliyyat potensialının artırılmasına öz töhfəmizi vermişik. Son üç il ərzində bizim bərpaolunan enerjiyə məcmu investisiyalarımız 1,2 giqavatı ötüb ki, bu da Azərbaycanın mövcud bərpaolunan enerji potensialının təxminən yarısını təşkil edir. Xüsusilə, ən böyük nailiyyət bu il Qafqazın ən böyük günəş enerjisi obyekti olan Biləsuvar və Neftçalada 760 meqavatlıq "yaşıl" enerjiyə dair müqavilənin imzalanması oldu".

## 11 ayda meyvə-tərəvəz ixracından 620 milyon dollar qazanc!

**Bu ilin yanvar–noyabr aylarında Azərbaycandan xaricə 628 milyon ABŞ dolları dəyərində 610 min ton meyvə-tərəvəz göndərilib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 2,1 faiz və ya 13,2 milyon dollar, həcmi isə 4,9 faiz və ya 31,7 min ton azalıb. Xatırladaq ki, 2023-cü ilin 11 ayında ölkəmizdən xarici bazarlara 641 milyon 188 min dollar dəyərində 641 min 740 ton meyvə-tərəvəz ixrac edilib.**



Yanvar-noyabr aylarında Azərbaycandan xaricə ixrac olunan meyvə tərəvəz məhsullarının sırasında pomidor birinci olub. Hesabat dövründə xarici ticarət tərəfdaşlarımıza 155,4 milyon dollar dəyərində 129,8 min ton bu növ məhsul göndərilib. Sonrakı yerlərdə 115,9 milyon dollar dəyərində 18,3 min ton meşə fındığı, 86,5 milyon dollarlıq 120,3 min ton xurma, 53,2 milyon dollarlıq 66,9 min ton alma, 25,8 milyon dollarlıq 29,4 min ton nar və 20,5 milyon dollarlıq 48,2 min ton kartof qərarlaşıb.

Xatırladaq ki, cari ilin 11 ayında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 2,58 faiz, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 20,32 faiz təşkil edib.

## İstehlak bazarı 5 faiz böyüyüb



**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-noyabr aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 67,4 milyard manat (hesabat dövrü ilə müqayisədə 5 faiz çox) təşkil edib.**

Məlumata görə, bu göstəricinin 80 faizini pərakəndə ticarət, 3,1 faizini isə ictimai iaşə dövriyyəsi, 16,9 faizini isə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri təşkil edib.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 4,7 faiz artaraq 64,7 milyard manata bərabər olub ki, onun da 46,7 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 600 manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 34 manat çox vəsait xərcləyib.

## Sitrus bağlarına da sığorta ödənib

**Azərbaycanda sitrus meyvələri istehsalı üzrə iri sığorta ödənişi həyata keçirilib. Kənd Təsərrüfatı Nazirliyindən XQ-yə verilən məlumata görə, Aqrar Sığorta Fondu tərəfindən Lənkəranda aqrar sahədə fəaliyyət göstərən "Mriya" MMC-yə limon, naringi və portağal bağına dəyən zərər görə 27 min manat ödəniş edilib.**

Bildirilib ki, donvurma nəticəsində sözügedən təsərrüfatın sitrus bağlarına ciddi ziyan dəyib. Nəticədə, təsərrüfat zərərlə üzləşib. Bununla belə, meyvə bağları sığortalı olduğu üçün Aqrar Sığorta Fondu dəymiş zərəri kompensasiya edib.

Ümumilikdə isə, 2023-2024-cü illər ərzində Lənkəran – Astara regionunda bitkiçilik sığortası üzrə 238 min manat sığorta ödənişi edilib. Ötən il bölgə fermerlərinə 61,5 min manat ödəniş edildiyi halda, cari ildə bu rəqəm 3 dəfəyə yaxın artaraq 176 min manatdan çox olub.

Yeri gəlmişkən, bu ildən ölkəmizdə aqrar sığortanın əhatə etdiyi məhsulların siyahısı genişlənib. Bu baxımdan ötən il Lənkəran – Astara regionunda arpa, buğda və ərik məhsulu üzrə ödənişlər edildiyi halda, 2024-cü ildə arpa, buğda, çəltik, badam, ərik, kartof, noxud, limon, naringi və portağal məhsulları üzrə də ödənişlər edilib. Bununla yanaşı, bölgə üzrə sığorta hadisələrinin əhatə etdiyi risklər də genişlənib. Belə ki, Lənkəran – Astara regionunda ödənişlər əsasən, dolu, fırtına, qasırğa, normadan artıq qar yağması, sel-subasma, şaxtavurma, 3-cü şəxslərin hərəkəti və vəhşi heyvanların hücumu nəticəsində dəyən zərərlər üzrə edilib.



Lənkəran – Astara regionunda heyvandarlıq üzrə də aqrar sığorta ödənişi həyata keçirilib. Təkcə onu qeyd etmək kifayətdir ki, son 2 ildə bölgədə heyvandarlıq üzrə 11 min 720 manat ödəniş edilib. Həmin vəsait isə Lənkəran və Astara rayonlarının heyvandarlarına verilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Naxçıvanda yüksəlişin yeni mərhələsinin önəmli hədəfləri və ilk uğurları



**Naxçıvan ölkəmizin ərazisində ən qədim və davamlı yaşayış məskəni, Azərbaycan dövlətçiliyi tarixində önəmli rolu və mövqeyi olmuş diyar kimi tanınır. Tarixin bütün dövrlərində yadelli hücumlara qarşı mübarizədə, yabançı təsirlərin qarşısının alınmasında bu torpağın oğulları qeyrət və dirəniş göstəriblər. Rusiya imperiyası zəifləmiş Qacarlar dövlətindən Azərbaycanın quzeyini qoparanda Naxçıvan İrəvanla birlikdə 15 il dözüş gətirərək azadlığını qorumuşdu. Bir əsr sonra kommunist ideologiyası əsasında yenilənən qırmızı imperiya Qərbi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradıb Naxçıvanı da oyuncaq quruma qatmaq istəyəndə də bu qeyrət qalası qətiyyətlə taleyini Azərbaycanla bağlamışdı.**

Sovet imperiyasının çöküşü zamanı Ermənistan xaç dünyasındakı himayədarlarının köməyi ilə Qarabağ və Naxçıvanı ələ keçirmək uğrunda çoxillik savaş açanda da qədim Nuh yurdu hədsiz mərhumiyyətlərə dözüb düşmənlərin niyyətlərini gözlərində qoydu. O çətin illərdə ümummilli lider Heydər Əliyevin 1990–1993-cü illərdə Naxçıvandakı xilaskarlıq missiyası tarixə həm də Azərbaycanın dövlətçiliyinin bərpası üçün zəruri əsasların yaradılması ilə yazıldı.

Ulu öndər 1993-cü ilin böhranlı yayında müstəqilliyimizin taleyi təhlükədə olan zaman xalqın tələbi ilə Azərbaycan rəhbərliyinə qayıdandan sonrakı dövrdə də Naxçıvanın qorunması və blokada şəraitində normal yaşaması üçün bütün tədbirləri həyata keçirdi. Son 21 ildə Naxçıvan Muxtar Respublikasının şəhər və kəndləri Ulu öndərin tövsiyə və vəsiyyətlərinə uyğun olaraq, Prezident İlham Əliyevin diqqət və qayğısı, dövlətin üstün himayəsi ilə simasını tamamilə dəyişib.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnib.

Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaradıb. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi yeni prioritetə çevrilib. Bu isə öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur.




**Əyilməzlik ünvanıdır Naxçıvan**

Hazırda Naxçıvan Muxtar Respublikasında mövcud iri müəssisələrin istehsal etdikləri məhsulların həm daxili bazarda satışının dəstəklənməsi, həm də xarici bazarlara çıxışının artırılması istiqamətində də lazımi dəstək tədbirləri həyata keçirilir. Bununla yanaşı, muxtar respublikanın zəngin təbii ehtiyatları və xammal bazası əsasında sənaye sahələrinin yaradılması imkanları genişləndirilir.

Naxçıvan Muxtar Respublikasında enerji və ərzaq təhlükəsizliyi məsələləri dövlət tərəfindən həyata keçirilən prioritetlər sırasındadır. Ötən əsrin sonlarında muxtar respublikanın blokadaya salınması energetika sektorunun inkişafını ləngitsə də, indi bu sahə yeni yüksəliş dövrünü yaşayır. Əvvəllər elektirk enerjisini kənardan alan Naxçıvan Muxtar Respublikası artıq enerji ixracatçısı kimi mövqeyini getdikcə artırır.

Qədim Naxçıvan diyarında Azərbaycana bağlı muxtariyyət yaradılmasının 100-cü ildönümündə gələcək inkişafın yeni konturları cızılır, qarşıda duran vəzifələr müəyyənləşdirilir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq olunmmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”ı növbəti 5 il üçün əsl fəaliyyət proqramı kimi qəbul edilir. Belə ki, yeni proqramda təklif olunan istiqamətlərin qlobal təşəbbüslərə açıq olması sürətlə dəyişən dünyanın innovativ tələblərinə inteqrasiyasını da hamı üçün əlçatan edir.

Müasir çağırışlara uyğunluğu nəzərə alınaraq hazırlanmış bu mühüm dövlət sənədi muxtar respublikaya daha yaxşı günlər vəd edir. Bir sözlə, Azərbaycan dövlətinin hərtərəfli diqqət və qayğısı insanlarda Naxçıvanın sabahına inamını bir qədər də möhkəmləndirir, onları qurub-yaratmağa ruhlandırır. İndi muxtar respublikada böyükdən kiçiyə hamı dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icrasına, doğma diyarın inkişafına öz töhfəsini verməyə çalışır. Bu da Naxçıvan şəhərinin, eləcə də muxtar respublikanın digər yaşayış məskənlərinin daha parlaq, bundan da gözəl gələcəyinə ümidləri artırır.



Bir məsələni də qeyd edək ki, Naxçıvanın yerli icra qurumlarının ölkə mərkəzi ilə əlaqəsindəki bir sıra süni maneələr dövlət proqramının sürət və keyfiyyətlə icra olunmasına əngəllər törədir. Naxçıvandan göndərilmiş layihələrin ekspertiza və tenderdən keçirilməsi əsassız olaraq aylarla gecikdirilir. Yerli imkan və təşəbbüslərin lazımınca dəstəklənməməsi də dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin yüksək səviyyədə icrasına mane olur.

Bütün bunlara baxmayaraq, muxtar respublika həyatın bütün sahələrində cari ili uğurlarla yola salmağa hazırlaşır. Bugünlərdə Naxçıvana ezamiyyə zamanı ayrı-ayrı sahələrdə daha yüksək nəticələr əldə etmiş qurumların illik hesabatlarını yığcam şəkildə təqdim edirik.

**Tapdıq Əliyev, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini:**



– “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2024-cü illər üçün Dövlət Proqramı” üzrə Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulan Naxçıvan şəhəri, Şərur, Babək və Ordubad rayonlarında Vergi ödəyicilərinə xidmət mərkəzlərinin istifadəyə verilməsi məqsədilə 2023-cü ildən başlayaraq 4 Xidmət Mərkəzi vaxtından əvvəl qurularaq vergi ödəyicilərinin və vətəndaşların istifadəsinə verilib. Bundan başqa, Təfsilatlı Tədbirlər Planına əsasən, dövlət satınalmaların vahid internet portalına inteqrasiyası, həmçinin Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətində dövlət əmlakının reyestr proqram təminatı qurularaq inteqrasiya gerçəkləşdirilib. Dövlət Proqramında nəzərdə tutulmuş Şərur Sənaye Məhəlləsinin sənədləşdirmə işləri də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sifarişi ilə başa çatmaq üzrədir.

Ötən dövr ərzində kənd təsərrüfatı məhsullarının emalı üzrə müxtəlif təyinatlı müəssisələrin yaradılması təşviq edilib, cari ilin 11 ayı ərzində Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun və Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına kənd təsərrüfatı yönümlü və emalı təyinatlı 56 layihəyə 3 milyon manatdan çox dövlət maliyyə dəstəyi göstərilib.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 157 nömrəli Sərəncamı ilə “İnvest in Nakhchivan” veb-səhifəsinin hazırlanması nəzərdə tutulub. Bu məqsədlə 2024-cü ilin ötən dövrü ərzində tender elan olunub, qalib müəyyən edilmiş “GUYS” MMC ilə 9 min 390 manat məbləğində satınalma müqaviləsi bağlanılıb və veb-səhifənin hazırlanması istiqamətində işlər başa çatmaq üzrədir.

Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin digər icraçı olduğu bəndlər üzrə də işlər davam etdirilib, nazirlik yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən “Orqanik Naxçıvan” Publik Hüquqi Şəxsin fəaliyyətinin təkmilləşdirilməsi və aqroklasterlərin yaradılması məqsədilə daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilib, güzəştli mənzil tikintisi üçün dövlət mülkiyyətində olan, yaşayış məntəqələrinin torpaqlar kateqoriyasına aid ərazinin planı hazırlanıb və dövlət reyestrindən çıxarış verilib. Bununla yanaşı, Ordubad şəhərinin qədim məhəllələrinin, eləcə də yaradılacaq Dövlət Tarix-Mədəniyyət Qoruğunun əhatə etdiyi ərazinin xəritəsi hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

Təfsilatlı Tədbirlər Planında sənaye parkının yaradılması ilə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin səlahiyyətləri çərçivəsində ərazilər təklif edilib. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 hektar torpaq sahəsində Naxçıvan Sənaye Parkının yaradılması haqqında 5 dekabr 2024-cü il tarixli Fərman imzalanıb.

Bu park muxtar respublikada sahibkarlığın inkişafı üçün müasir texnologiyaların tətbiq olunacağı, rəqabətqabiliyyətli məhsul istehsalına yönələn müasir bir mərkəz olacaq. Parkın fəaliyyətinin təşkili, inkişafı və digər tərdbirlər Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən həyata keçiriləcək.

Fərmanda da qeyd olunduğu kimi, Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili üçün ərazinin yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinə ilkin olaraq 500 min manat vəsait ayrılıb.

Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən azad olunurlar. Həmçinin istehsal üçün gətirilən texnika və avadanlıqlara 10 il müddətinə əlavə dəyər vergisi və gömrük rüsumu tətbiq edilmir.

Ölkənin digər bölgələrində yaradılan sənaye parkları kimi, Naxçıvan Sənaye Parkı da Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvanın iqtisadiyyatına, o cümlədən ölkəmizin iqtisadiyyatına öz töhfəsini verəcək.

Bu Fərman möhtərəm cənab Prezidentin Naxçıvana göstərdiyi diqqət və qayğının daha bir bariz nümunəsidir.

**Tural Murtuzəliyev, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəis müavini:**



– Naxçıvan Muxtar Respublikası bu gün Azərbaycanın ən qabaqcıl “yaşıl” enerji zonalarından biri kimi tanınır. Qədim diyarın enerji infrastrukturunda ümumi güc 244,8 meqavatdır. Bu gücün 44,04 faizini təşkil edən 107,8 meqavatlıq bərpaolunan enerji – su, günəş və külək elektrik stansiyalarından əldə olunur.

Hazırda Naxçıvanda 5 Su Elektrik Stansiyası (SES), 3 Günəş Elektrik Stansiyası (GES), 1 Külək Elektrik Stansiyası (KES) və 1 Külək–Günəş Hibrid Elektrik Stansiyası fəaliyyət göstərir. Bu stansiyalarda istehsal olunan elektrik enerjisi sayəsində Naxçıvanda “yaşıl” enerjinin payı aylar üzrə artır. Ümumilikdə, elektrik enerjisinin 55 faizi bərpa olunan mənbələrdən alınır. Çaylarda suyun səviyyəsinin yüksək olduğu dövrlərdə bu göstərici hətta 100 faizə çatır.

“Yaşıl” enerji istifadəsi atmosferə buraxılan karbon emissiyalarını əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. Azərbaycanın əsas hədəflərindən biri 2050-ci ilə qədər karbon emissiyalarını 40 faiz azaltmaqdır. Naxçıvanda “yaşıl” enerji payının 55 faizə çatması bu məqsədə doğru atılan mühüm addımlardan biridir.

Yeri gəlmişkən, bu məqamda diqqətçəkən bir faktı xatırlatmaq istərdim. Belə ki, Naxçıvan Dövlət Energetika Xidməti buraxılan karbon emissiyasını dəfələrlə bir günlük sıfıra salıb. Buna isə yalnız “yaşıl” enerjidən istifadə etməklə nail olub.

Muxtar respublikada ümumi gücü 39,4 meqavat olan günəş elektrik stansiyaları fəaliyyət göstərir. Gələcəkdə dövlət–özəl tərəfdaşlığı çərçivəsində yeni günəş və külək elektrik stansiyalarının qurulması da planlaşdırılır. Bu məqsədlə 7992 hektar əkinə yararsız torpaq sahəsi də müəyyənləşdirilib.

Bununla yanaşı, hazırda Naxçıvanda 500 meqavat gücündə günəş elektrik stansiyasının tikintisi ilə bağlı araşdırmalar aparılır. Bu layihə II Şuşa Qlobal Media Forumunda dövlət başçısı tərəfindən xüsusi vurğulanıb.

Qədim diyarımızın enerji ixrac potensialı, xüsusilə Türkiyə və Avropa istiqamətində diqqət çəkir. Hazırda Türkiyəyə elektrik enerjisi ixracı ilə bağlı TEİAŞ və Naxçıvan Energetika Xidməti arasında “Əməliyyat müqaviləsi” bağlanması üzrə sənədləşmə işləri aparılır. ENTSO tərəfindən isə 75 meqavat ixrac və 40 meqavat idxala icazə verilib.

Naxçıvanda külək və günəş enerjisi üzrə 1500 meqavat gücündə istehsal sahələrinin yaradılması planlaşdırılır. Bu istehsal gücünün ən azı 1000 meqavatının Türkiyə və Avropa bazarlarına ixracı hədəflənir. Bu məqsədlə layihələndirmə işləri üçün xarici investisiyaların cəlb edilməsi əsas prioritetlərdəndir. Artıq Türkiyə, Çexiya, Birləşmiş Ərəb Əmirlikləri və Almaniyadan olan şirkətlərlə müəyyən görüşlər də keçirilərək məsləhətləşmələr aparılıb.

Naxçıvan Muxtar Respublikasının “yaşıl” enerji sahəsində inkişafı təkcə iqtisadi deyil, eyni zamanda, ekoloji baxımdan böyük əhəmiyyət kəsb edir. Bu yanaşma həm regional inkişafı, həm də Azərbaycanın qlobal iqlim öhdəliklərinin yerinə yetirilməsini dəstəkləyir.

Hazırda “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində qədim diyarda enerji infrastrukturunun yenidən qurulması və müasirləşdirilməsi istiqamətində bir sıra əhəmiyyətli layihələr həyata keçirilir. Məsələn, 132/110/35/10 kV-luq “Culfa” yarımstansiyasında quraşdırma işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 oktyabr tarixli sərəncamı ilə 1 milyon 687 min 400 manat vəsait ayrılıb. Layihə çərçivəsində 2 ədəd 16 MVA güc transformatoru satın alınıb. Yarımstansiyada sənədlərin (layihə, inşaat cizgiləri, mühəndis-geoloji hesabatlar və s.) hazırlanması, asfalt örtüyünün çəkilməsi və digər abadlıq işləri üçün 2024-cü il 6 iyun tarixli sərəncamla əlavə 150 manat vəsait ayrılıb.

Bundan başqa, Naxçıvan Modul Elektrik Stansiyasında qaz porşenli mühərrik aqreqatlarının təmiri məqsədilə Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə, ümumilikdə, 8 milyon manat vəsait ayrılıb. “Wartsila Services Switzerland LTD” və “Vartsila Azərbaycan” MMC ilə imzalanmış müqavilələr çərçivəsində artıq bir sıra mühərrik aqreqatlarının təmiri tamamlanıb. Qalan mühərriklərin təmirinin ardıcıllıqla həyata keçiriləcəyi planlaşdırılıb.

Onu da qeyd edim ki, 35/10 kV-luq “Sədərək” və “Nəzərabad” yarımstansiyalarının yenidən qurulması üçün, ümumilikdə, 1 milyon 632 min 800 manat vəsait ayrılıb. Layihə üzrə 6 ədəd 6300 kVA güc transformatoru alınıb. Quraşdırılacaq avadanlıqların alınması üçün tender prosesi davam etdirilir.

Araz Su Elektrik Stansiyasının yenidən qurulması da diqqətdə saxlanılır. Qeyd edim ki, artıq 50 ildən çoxdur istismar olunan bu stansiyanın tam yenidən qurulması planlaşdırılır. Stansiyanın köhnəlmiş hidroturbin və hidrogeneratorlarının dəyişdirilməsi məqsədəuyğun sayılıb. Layihələndirmə və yenidənqurma işlərinin “Azərenerji” ASC tərəfindən həyata keçiriləcəyi nəzərdə tutulub.

Biləv SES-in su kanalının təmiri üçün 2024-cü ildə, ümumilikdə, 900 min manat vəsait ayrılıb. Müayinə və layihələndirmə işləri artıq tamamlanıb, layihə ekspertizaya təqdim edilib. 110/35/10 kV-luq “Çeşməbasar” və “Sədərək” yarımstansiyalarının layihələndirilməsi və tikintisi üçün ayrılmış vəsait çərçivəsində mühəndis-geoloji işlər və avadanlıqların alınması üzrə işlərə başlanılıb. 36 MVt-lıq Ordubad SES-də işlər müvəqqəti dayandırılıb. Bunun səbəbi Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi sənədinin yenidən işlənməsi ilə bağlı olub. Bu istiqamətdə Türkiyənin “EKOTEK” şirkəti ilə müqavilə imzalanıb.

Bir məsələni də xatırladım ki, 20 kənddə elektrik şəbəkələrinin yenidən qurulması üçün, ümumilikdə, 500 min manat ayrılıb. Layihələndirmə işləri tender yolu ilə həyata keçirilib, işlərin icrası davam edir. Ordubad rayonunda yerləşən 15,6 MVt-lıq “Tivi” SES-in tikintisi üçün ayrılmış vəsait çərçivəsində layihələndirmə və torpaq sahələrinin qiymətləndirilməsi işləri də həyata keçirilib.

Naxçıvanda energetika layihələrinin uğurla icrası ölkənin enerji təhlükəsizliyini gücləndirmək, iqtisadi və sosial inkişafa töhfə vermək məqsədi daşıyır. Dövlətin dəstəyi ilə həyata keçirilən bu layihələr bölgənin elektrik təchizatının daha dayanıqlı və müasir texnologiyalara əsaslanmasını təmin edəcək.

**(ardı 15-ci səhifədə)**




# Naxçıvanda yüksəlişin yeni mərhələsinin önəmli hədəfləri və ilk uğurları

(əvvəli 14-cü səhifədə)

**Fərid BAĞIRZADƏ, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən:**



– Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla ədaləti və beynəlxalq hüququ təmin etmiş qalib dövlət olan Azərbaycan, eyni zamanda, vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişlərə yol açan güclü sosial siyasətə malikdir.

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu bu uğurlu sosial siyasətin Prezident İlham Əliyev tərəfindən sosial sahəyə xüsusi qayğı ilə davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizdə bütün sahələrdə davamlı tərəqqi prosesləri sosial nailiyyətlərlə tamamlanıb və əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılması təmin olunub.

Dövlətimizin başçısının uğurlu siyasətinin mərkəzində vətəndaş amili, vətəndaş rifahının təminatı dayanır. Ölkə rəhbərinin tapşırıqları əsasında 2018-ci ildən etibarən 4 böyük sosial islahat paketi icra olunub. 4 milyondan çox vətəndaşı əhatə edən həmin sosial islahatlar nəticəsində minimum aylıq əməkhaqqında 2,7 dəfə, minimum pensiyada 2,5 dəfə, orta aylıq əməkhaqqında 65 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə, orta aylıq pensiyada 2,4 dəfə, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı sosial yardımın orta aylıq məbləğində 2,5 dəfə artım reallaşıb, 10-dan çox yeni sosial ödəniş növü təsis olunmaqla və sosial təminat sistemində bir sıra humanist yanaşmalar, güzəştlər tətbiq edilməklə bu sistemin əhatə dairəsi daha da genişləndirilib. Qeyd olunanlardan əlavə, 2025-ci ildə ölkəmizdə 5-ci sosial islahat paketinin icrasına başlanılması nəzərdə tutulub.



Naxçıvan Muxtar Respublikasında da əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlərin icrası uğurla davam etdirilir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə muxtar respublikada əmək, məşğulluq və sosial müdafiə xidmətlərinin müasir formada göstərilməsi, eyni zamanda, elektron xidmətlərin tətbiqi yüksək səviyyədə həyata keçirilir.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi"nin strukturuna daxil olan altsistemlərdən 16-sı Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sistemi üzrə tam tətbiq olunur. Həmçinin 2 altsistemin isə yaxın zamanlarda tətbiq edilməsi planlaşdırılır. Bu istiqamətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin törəmə təşkilatı olan "DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin dəstəyi nəticəsində mühüm addımlar atılmaqdadır.

Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələri üzrə, ümumilikdə, 160 xidmətdən 134-ü muxtar respublikada göstərilir. Bunlardan 83-ü elektron, 37-si isə proaktivdir. Muxtar respublikada göstərilən xidmətlər sırasında pensiya və sosial müavinətlər proaktiv qaydada təyin olunur.

Muxtar respublikanın bütün rayonlarında Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq, müvafiq sahə üzrə sosial siyasəti həyata keçirən Vətəndaş qəbulu otaqları istifadəyə verilib. Həftənin iş günləri ərzində saat 09:00-dan 18:00-ə kimi fəaliyyət göstərən, müasir texnologiyalarla və avadanlıqlarla təmin edilən qəbul otaqlarında "bir pəncərə" sistemi və "e-sosial" internet portalı vasitəsi ilə vətəndaşlara açıq iş şəraitində xidmət göstərilir.

Elektron xidmətlərin və məlumat bazalarının ölkənin analoji qurumunun sistemləri ilə inteqrasiyası üçün bizim nazirlik sistemi üzrə göstərilən elektron xidmətlər və məlumat bazası Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sistemlərinə tam inteqrasiya olunub.

2024-cü ilin 11 ayında işaxtaran və işsiz vətəndaşların əmək fəaliyyətinə cəlb olunması, gənclərin və qadınların məşğulluğunun təmin olunması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Ölkə Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanı ilə təsdiqlənən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq yaradılan "Əmək və məşğulluq" altsisteminin muxtar respublikada tam tətbiqinə 2023-cü ildən başlanılıb. Bu sistem əmək münasibətlərinin tənzimlənməsi və məşğulluğun təmin edilməsi proseslərində işəgötürənlər və işçilərin, işsiz və işaxtaranların vahid elektron platformada cəmləşməsinə, insan resursları ilə işin təşkilinə və bu sahədə şəffaflığın gerçəkləşdirilməsinə zəmin yaradan elektron platformadır.

Qeyd edim ki, bu ilin yanvar-noyabr aylarında, ümumilikdə, 2047 nəfər göndəriş əsasında işlə təmin olunub. Naxçıvan şəhəri, Babək, Şərur, Kəngərli və Sədərək rayonları üzrə vakansiyaları əhatə edən əmək yarmarkaları keçirilib.

Muxtar respublikasda müvəqqəti məşğulluğun təmin edilməsi məqsədilə "Məşğulluq haqqında" Qanuna uyğun olaraq ilkin peşə hazırlığının olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyan iş yerlərinə vətəndaşların cəlb olunaraq məşğulluğun təmin edilməsi üçün müvafiq işlər aparılır. 2023-cü ildən etibarən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə muxtar respublikada işaxtaran və işsiz şəxslərin haqqı ödənilən ictimai işə cəlb olunması üçün 1000 vakant yerdən ibarət kvota ayrılıb. Bununla da 960 nəfər "DOST İş Mərkəzi" MMC, 344 nəfər "Naxçıvan DOST İş Mərkəzi" MMC olmaqla, ümumilikdə, haqqı ödənilən ictimai iş üzrə 1304 nəfər çalışıb.

Dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar olunması, habelə əmək müqaviləsinin müddətinin bitməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və "Məşğulluq haqqında" Qanunla müəyyənləşdirilən qaydada işsiz kimi qeydiyyata alınmış şəxslərə işsizlikdən sığorta ödənişi təyin edilir. Muxtar respublikada icrasına ilk dəfə 2023-cü ildən başlanan işsizlikdən sığorta ödənişi çərçivəsində cari ilin ötən dövrü ərzində 244 şəxsə təyinat aparılıb, bu istiqamətdə 389 min 351 manat ödəniş həyata keçirilib.

Onu da bildirim ki, hesabat dövründə 12 nəfər imtiyazlı şəxs nəqliyyat vasitəsi ilə təmin edilib. Növbəlilik reyestrində olan digər 11 nəfərə nəqliyyat vasitəsinin verilməsi 2024-cü ilin dekabr ayında nəzərdə tutulub. Bununla da növbəlilik reyestrində olan bütün vətəndaşların nəqliyyat vasitəsi ilə təminatı yekunlaşacaq. Ümumilikdə nazirliyimiz tərəfindən bugünədək imtiyazlı şəxslərə 618 avtomobil və 327 mənzil (fərdi ev) təqdim edilib. 29 mənzilin isə yaxın aylarda təhvil verilməsi planlaşdırılıb.

Muxtar respublikada Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının təminatına dəstək məqsədilə yaradılmış "Dəstək" Fondunun fəaliyyəti çərçivəsində müvafiq kateqoriyadan olan imtiyazlı şəxslərə maddi dəstək göstərilir. Cari ilin yanvar-noyabr aylarında bu fond tərəfindən 205 şəhid ailəsi, 55 müharibə veteranı və 204 müharibə ilə əlaqədar əlilliyi müəyyənləşdirilən şəxsə, ümumilikdə, 989 min 653 manat vəsaitin ödənişi həyata keçirilib.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi də diqqətdə saxlanılır. Hazırda əhalinin dövlət tərəfindən "bir pəncərə" prinsipi ilə təklif edilən əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışın təmin edilməsi məqsədilə Naxçıvan şəhərində tikintisi davam edən DOST Mərkəzinin 2025-ci ilin ilk yarısında açılışı nəzərdə tutulur. Həmçinin muxtar respublikanın rayonlarında vətəndaşlara "bir pəncərə" prinsipi ilə qeyd olunan xidmətlərin göstərilməsi məqsədilə vətəndaş qəbulu məntəqələrinin yaradılması ilə bağlı Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki təşkilatların inzibati binalarının layihələndirilməsi davam etdirilir. Vətəndaş qəbulu məntəqələrinin 2025-2026-cı illər ərzində əsaslı təmir olunaraq fəaliyyətə başlaması nəzərdə tutulur.

**Bəhruz Əsgərov, "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri:**



– "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" tərəfindən cari ildə "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksinin, Culfa şəhərdaxili, Culfa rayonu Darıdağ Arsenli Su Müalicə Mərkəzi və Naxçıvan şəhəri 6-cı küçənin avtomobil yolları əsaslı təmir edilib.

Xatırladım ki, Babək rayonunda yerləşən və 3-cü texniki dərəcəyə uyğun olan Əshabi-Kəhf ziyarətgahına gedən avtomobil yolunun əsaslı təmirinə 2023-cü ilin dekabr ayında başlanılıb. Əsaslı təmir zamanı yararsız asfalt qatı frezlənib, torpaq işləri aparılıb, yolun alt təbəqəsini möhkəmləndirmək üçün əraziyə qum-çınqıl materialı verilib, avtomobil yolunda yağış və arx sularının kənarlaşdırılması üçün yol kənarlarına 2085 metr 2 nömrəli və 692 metr 3 nömrəli beton su kanalı çəkilib, 10 beton su keçidi inşa edilib, 95 metal boru su keçidi quraşdırılıb, avtomobil yolunda yerləşən bir körpü də əsaslı şəkildə təmir olunub.

Avtonəqliyyat vasitələrinin daha rahat hərəkətini təmin etmək məqsədilə 13 min 900 metr uzunluğunda 3 qat asfalt örtüyü salınıb, müvafiq yerlərdə sürət həddini nizamlamaq, təhlükəsiz hərəkəti təmin etmək üçün avtomobil yolunda 80 yol nişanı və 600 işıq əksetdirici siqnal dirəkləri quraşdırılıb.

3-cü texniki dərəcəyə uyğun olan Culfa şəhərinin mərkəzi avtomobil yollarının əsaslı təmirinə 2024-cü ilin avqust ayında başlanılıb. Uzunluğu 7,8 kilometr olan avtomobil yollarında yararsız asfalt qatı sökülərək ərazidən daşınıb, torpaq işləri görülüb, yolun alt təbəqəsini möhkəmləndirmək üçün əraziyə qum-çınqıl materialı verilib, avtomobil yolunda yağış və arx sularının kənarlaşdırılması üçün yol kənarlarına 3153 metr 2 nömrəli və 73,5 metr 6 nömrəli beton su kanalı çəkilib, 1 beton su keçidi, 78 ədəd metal boru su keçidləri quraşdırılıb.



Avtonəqliyyat vasitələrinin daha rahat hərəkət etməsi üçün 7800 metr uzunluğunda 2 qat asfalt örtüyü salınıb. Müvafiq yerlərdə sürət həddini nizamlamaq üçün avtomobil yolunda 52 yol nişanı quraşdırılıb.

Culfa rayonunda yerləşən 3-cü texniki dərəcəyə uyğun olan Darıdağ Arsenli Su Müalicə Mərkəzinə gedən avtomobil yolunun əsaslı təmirinə 2023-cü ilin oktyabr ayında başlanılıb. Görülən işlərə əsasən, 3,5 kilometrlik yolun yol əsası bərkidilib, avtomobil yolunda yağış və arx sularının kənarlaşdırılması üçün yol kənarlarına 2038 metr uzunluğunda beton su kanalı çəkilib, 10 metal boru su keçidi quraşdırılıb.

Avtonəqliyyat vasitələrinin müalicə mərkəzinə daha rahat hərəkət etməsi üçün 3500 metr uzunluğunda 3 qat asfalt örtüyü salınıb. Müvafiq yerlərdə sürət həddini nizamlamaq, təhlükəsiz hərəkəti təmin etmək üçün avtomobil yolunda 52 yol nişanı və 156 işıq əksetdirici siqnal dirəkləri quraşdırılıb.

Naxçıvan şəhərində yerləşən 3-cü texniki dərəcəyə uyğun olan 6-cı küçə avtomobil yolunun əsaslı təmirinə 2024-cü ilin iyul ayında başlanılıb. Görülən işlərə əsasən, 6 metal boru su keçidi quraşdırılıb və 2100 metr uzunluğunda 2 qat asfalt örtüyü salınıb.

Hazırda uzunluğu 9,6 kilometr olan Naxçıvan şəhəri Əliabad qəsəbədaxili avtomobil yolunda torpaq və suötürücü kanalın çəkilməsi işləri aparılır və 4 kilometr məsafədə 1-ci qat asfalt-beton örtüyü salınıb. Uzunluğu 6,3 kilometr olan Şərur rayonunun Təzəkənd avtomobil yolunun 3,3 kilometrliyində isə yol əsasının tikintisi işləri davam edir. 3 kilometr məsafədə 1-ci qat asfalt-beton örtüyü salınıb və işlər layihəyə uyğun davam etdirilir.

Ümumi olaraq cari ildə Dövlət Proqramı çərçivəsində 27,3 kilometr avtomobil yolu əsaslı təmir olunaraq vətəndaşların istifadəsinə verilib.

Qeyd edək ki, Agentlik 2025-ci ildə layihəyə uyğun olaraq həm Naxçıvan şəhərinin bir neçə küçəsində (Babək məhəlləsi, Hacıniyyət kəndi, 6-cı məhəllə, Qaraçuq İnzibati Ərazi Dairəsi avtomobil yolu, Xətai məhəlləsi, S.Vurğun – N.Naxçıvani – M.H.Şəhriyar–H.Rəhmanov-58-ci, 61-ci məhəllə), həm də muxtar respublikanın digər bölgələrində (Babək, Şərur, Şahbuz rayonlarının mərkəzində, Culfa rayon Yaycı kəndində, Nehrəm qəsəbəsində, Culfanın Kırna-Dizə-Gal-Şurut, Şərurun Muğancıq-Müslüm və Cəlilkənd-Düdəngə avtomobil yolunda) əsaslı təmir işləri həyata keçirəcək.

**Mirməcid Seyidov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri:**



– Muxtar respublikada gənclər, bədən tərbiyəsi və idman sahələrində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi müvafiq sahədə qanunvericiliklə müəyyənləşdirilən hallarda normativ tənzimləməni həyata keçirir, dövlət proqramlarının və inkişaf konsepsiyalarının icrasını öz səlahiyyətləri daxilində gerçəkləşdirir, gənclər üçün yaradıcılıq, iş və karyera mühitinin formalaşmasına kömək edir. Eyni zamanda, gəncləri zərərli vərdişlərdən qorumaq və ya uzaqlaşdırmaq üçün stimulverici, maarifləndici tədbirlər görür. Nazirlik bütün bunlarla yanaşı, gənclərin vətənpərvər ruhda, azərbaycançılıq ideologiyasında tərbiyəsi, hərbi xidmətə hazırlıq səviyyəsinin, intellektual bilik və bacarıqlarının artırılması sahəsində layihələr reallaşdırır, əhalinin bütün yaş qrupları, o cümlədən sağlamlıq imkanları məhdud uşaq və gənclərin idman xidmətlərinə əlçatanlığını təmin etmək, onların peşəkar fəaliyyətinin təşkilinə, işgüzar və karyera yüksəlişlərinə nail olmaq üçün davamlı addımlar atır.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi gənclərin asudə vaxtının səmərəli təşkili, şəxsi inkişafı, fəaliyyətinin qiymətləndirilməsi və dəstəklənməsinə önəm verir, müxtəlif idman növləri üzrə muxtar respublika miqyaslı yarışların və təlim-məşq toplanışlarının həyata keçirilməsini təmin edir, idman yarışlarının qaydalarını, ənənəvi və yeni idman növləri üzrə işin təşkilini, eləcə də aparılmasını tənzimləyən metodik, normativ sənədlərin hazırlanması zamanı təkliflər verir. Nazirlik bütün bunlarla bərabər, muxtar respublikada mövcud olan idman növlərinin reyestrini hazırlayıb təsdiq edir, idmanda dopinqə qarşı mübarizə tədbirlərini həyata keçirir. Nazirlik tərəfindən gənclərin idmana təşviqi sahəsində atılan addımlar davam etdirilməkdədir. Muxtar respublikada, ümumilikdə, 27 min 204 nəfər idmançı aktiv fəaliyyətdədir. Onlardan 16 min 439-u (ümumi sayın 60,43 faizi) 14-29 yaşlı gənclərdir.

Artıq bir neçə gündəndən sonra tarixə qovuşacaq 2024-cü il Naxçıvanda gənclər və idman sahəsi baxımından da məhsuldar və yaddaqalan oldu. Cari il ərzində gənclər və idman siyasətinin əsas istiqamətləri üzrə 15 min 162 nəfər iştirakı ilə 187-si gənclər sahəsini, 162-si isə idman sahəsini əhatə etməklə, ümumilikdə, 340 tədbir keçirildi.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə iştirakçı sayında 1438 nəfər artım qeydə alınıb. Nazirlik və tabeliyində olan gənclər və idman idarələri tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar 3791 nəfərin iştirakı ilə 243 tədbir, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar 9889 nəfərin iştirakı ilə 202 tədbir keçirilib.

Naxçıvan gəncləri 2024-cü ili uğurla başa vururlar. Nəsrin Babayeva ölkə üzrə "İlin gənci" nominasiyaları üzrə mükafatlandırma mərasimində təltif olunan gənclər sırasında oldu, bir çox naxçıvanlı gənc ölkə üzrə qrant müsabiqələrinin qalibi olmaqla muxtar respublikada uğurlu layihələr icra etdilər, nazirliyin dəstəyi ilə könüllülər ölkəmizdə təşkil olunan düşərgələrdə, eləcə də xaricdə keçirilən mübadilə proqramlarında iştirak etməklə yeni təcrübələr qazandılar. "Sərhəd" hərbi idman oyunu üzrə ölkə birinciliyində muxtar respublikanı təmsil edən "Ordubad" komandası üçüncü yerə layiq görüldü. İdmançılarımız cari ildə ölkəmizlə yanaşı, Türkiyə, Rusiya, Gürcüstan, Bəhreyn, Monqolustan, Belarus və Bolqarıstanda keçirilən müxtəlif səviyyəli yarışlarda iştirak edərək önəmli nailiyyətlərə nai oldular. Belə ki, Naxçıvan idmançıları dünya, Avropa, ölkə və beynəlxalq səviyyəli yarışlarda 71-i qızıl, 69-u gümüş, 54-ü bürünc medal olmaqla, ümumilikdə, 194 medal qazandılar.

*Hazırladılar:*
***Tahir AYDINOĞLU,***
***Vaqif BAYRAMOV,***
***Səbuhi HƏSƏNOV***
***XQ***

**Bakı–Naxçıvan–Bakı**

# Azərbaycanda İslam dövrü arxeologiyası: reallıqlar və hədəflər

**Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**İslam dininin meydana gəlməsi, İslam ideologiyası bayrağı altında formalaşan Xilafət imperiyasının sərhədlərinin geniş ərazilərə yayılması ümumdünya tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Bu isə dünyanın geniş bir hissəsini əhatə edən xalqların və mədəniyyətin transformasiyası, ənənələrin qarşılıqlı surətdə zənginləşməsi, daha da inkişaf etməsi demək idi.**



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pir Ömər Sultan ziyarətgahında

Təbiidir ki, İslamın erkən yayıldığı ölkələrdən biri olaraq Azərbaycan da bu prosesin içində idi. Beləliklə, yeni tarixi dövrün tələblərinə uyğun olaraq Azərbaycan şəhərlərinin ruhu və siması sürətlə dəyişərək, yeniləşərək sırf özünəməxsus kaloritlərlə zənginləşməkdə idi. Bu isə hər şeydən öncə Azərbaycan şəhərlərinin daxili quruluşu və infrastrukturunda, sənət ənənələrindəki yeniliklərdə özünü göstərməkdə idi. Xüsusən də İslam dövrü memarlığı Azərbaycan şəhərlərinin mahiyyət etibarilə keyfiyyət göstəricisini müəyyən edən əsas dəyərlərdən oldu. Əzəməti və möhtəşəmliyi ilə insanları valeh edən müxtəlif təyinatlı qalalar, qala bürcləri, qala qapıları, məscidlər, minarələr, türbələr, körpülər, mayaklar, mədrəsələr, ziyarətgahlar, məzarlıqlar, sanitariya mədəniyyətinin göstəricisi olan hamamlar, kəhrizlər, ovdanlar, buzxana-anbarlar, dini ritualların icrasında istifadə olunan alət və əşyalar yeni dövr Azərbaycan şəhərlərinin simasını xarakterizə edən başlıca elementlər idi.

Bununla paralel olaraq, xalqımıza xas olan qədim dini və milli tolerantlıq ənənələri zəminində ölkəmizdə yaşayan digər konfessiyalardan olan insanların düşüncə və etiqadlarına ehtiram ənənələrinin həssasiyyətlə qorunduğu da xüsusi qeyd olunmalıdır. Qədim dövrlərdə, Orta əsrlərdə, lap elə Azərbaycanın çar Rusiyası və Sovetlər imperiyası tərkibində olduğu dövrdə tikilən, davamlı olaraq fəaliyyət göstərməkdə olan çoxsaylı xristian məbədləri, sinaqoqlar və ziyarətgahlar bunun əyani və təkzibolunmaz sübutlarıdır.

Əfsuslar olsun ki, erməni kilsəsi və ona havadarlıq edən bəzi Qərb dairələri uzun illərdir ki, davamlı olaraq Azərbaycandakı bu tolerantlıq mühitindən sui-istifadə etməklə xalqımıza məxsus bir çox tarixi-mədəni dəyərləri inkar etmək, onu özününküləşdirmək siyasəti yeritmişlər.



Kələxana türbələr kompleksində yeni aşkar olunmuş erkən sufi mərkəzinin səmadan görüntüsü

Təəssüf ki, son 200 il ərzində Azərbaycanın da tərkibində olduğu imperiyaların siyasi və dini mərkəzləri tərəfindən bu ifrat və məkrli antiislam xətti müdafiə və təşviq olunmuşdur. Bunun nəticəsidir ki, Azərbaycanın İslam dövrü tarixinin real və dürüst mənzərəsi iki əsr ərzində necə deyərlər pərdə arxasında qalmağa məhkum edilmişdir. Beləliklə, Orta əsr Azərbaycan dövlətlərinin tarixi, onlara məxsus mədəni irs sanki filtirdən keçirilməklə, tam olaraq İslam düşüncəsi və dəyərlərindən təcrid olunmuş halda təqdim edilmişdir. İslamın bu məmləkətə bəxş etdiyi və formalaşdırdığı müsbət və mütərəqqi olan milli-mənəvi və maddi dəyərlərin unudulması siyasəti yeridilmişdir. Təbiidir ki, belə bir qüsurlu yanaşma olduğu şəraitdə Azərbaycan tarixi və mədəniyyətinin real və dürüst tədqiqi və təqdimi mümkün olmayıb. Bütün bunların fəsadlarının Azərbaycan üçün nə dərəcədə ağır, təhlükəli və qəbuledilməz olduğunu Cənubi Qafqazda əzəli torpaqlarımız hesabına Ermənistan adlı bufer dövlət yaradılarkən, həmin oyuncaq dövlət tərəfindən ölkəmizə qarşı zaman-zaman ərazi iddiaları səsləndirilərkən, çoxsaylı terror aktları törədilərkən və nəhayət, Qarabağ işğala məruz qalarkən, çox gec olsa da, artıq bütün dünya da baş verənləri görmüş və bilmiş oldu. Baş verənlər, əslində, elə Azərbaycan elmi, xüsusən də tarix və arxeologiya elmləri, bu istiqamətdə fəaliyyət göstərməli olan elmi idarə və təşkilatlar üçün də bir dərs oldu.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən, xüsusən də ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra dövlətimizin ideoloji əsasları əski imperiya tör-töküntülərindən miras qalan qaranlıq ləkələrdən tədricən xilas oldu. Məlum oldu ki, uzun illər ərzində Qarabağın İslam dövrü abidələrində, demək olar ki, əsaslı tədqiqat və araşdırma işi aparılmayıb. Əksinə, həm Ermənistan tərəfindən, həm də bizim tərəfimizdən bütün resurslar məhz xristian abidələrinin öyrənilməsi istiqamətində cəmlənib. Bu cür düşünülməmiş strategiyanın məhz erməni maraqlarına xidmət etdiyi tam olaraq nəzərdən qaçırılıb. Əfsuslar olsun ki, çar Rusiyası və Sovet hakimiyyəti illərində digər qonşu dövlətlər tərəfindən Azərbaycana qarşı olan ərazi iddiaları da əsla nəzərə alınmayıb. Uzun illər ərzində Azərbaycanın şimal və şimal-qərb regionunun İslam dövrü arxeoloji və memarlıq abidələrinin tədqiqi istiqamətində olan çox ciddi boşluqlar da məhz bundan xəbər verir.

İndiki halda ölkə Prezidenti cənab İlham Əliyevin fərman, sərəncam, tapşırıq və tövsiyələri əsas götürülməklə Azərbaycan elmində müəyyən islahatlar aparılmaqdadır. Doğrudur, bu islahatların tempi və əhatə dairəsi hələ ki, elmi ictimaiyyəti o qədər də qane etmir. Yəni, elm adamları daha yaxşısını və daha mükəmməlini arzulayırlar. Təbiidir ki, Azərbaycan arxeologiya elmi, Arxeologiya və Antropologiya İnstitutu da bu islahatlar prosesinin içindədir. Bu sahədə uğurlar əldə etməyin yeganə dürüst yolu isə ilk növbədə Arxeologiya və Antropologiya İnstitutunun strukturunun təkmilləşdirilməsi və elmi-tədqiqatların prioritet istiqamətlərinin müəyyən olunmasından keçir. Bu kontekstdə Arxeologiya və Antropologiya İnstitutunun struktur tərkibində "Azərbaycanın İslam dövrü arxeologiyası" şöbəsinin yaradılması, sözsüz ki, önəmli addım kimi dəyərləndirilə bilər.

Son illər Bakı, Beyləqan, Qəbələ, Şəmkir, Şabran, Şamaxı, Gəncə, Kiran, Ağsu, Şəhərgah şəhər yerlərində, Basqalda Şeyx Məhəmməd məscidi, Ağdamda İmarət kompleksi, Şamaxıda Pir Ömər sultan ziyarətgahı, Kələxana türbələr kompleksi və digər abidələrdə aparılan arxeoloji tədqiqatlar da bu elmi istiqamətin nə dərəcədə perspektivli və əhəmiyyətli olduğunu bir daha təsdiq edir. Fikrimizcə, özünün pik mərhələsində olan Azərbaycan–Türkiyə əlaqələri, Türk Dövlətləri Təşkilatının gündən-günə möhkəmləndiyi, 51 üzv dövlətdən ibarət İslam Əməkdaşlıq Təşkilatı ilə çoxtərəfli əlaqələrin, qarşılıqlı təmasların, o cümlədən müvafiq elmi mərkəzlər arasında işgüzar əlaqələrin miqyası və əhəmiyyətinin sürətlə artdığı indiki dönəmdə, təbiidir ki, arxeoloq alimlər qarşısında da yeni üfüqlər açılıb.



Pir Ömər Avaxılı Şirvaniyə aid türbənin kitabəsi: "Bu mübarək məshəd şeyx, zahid, abid, müqəddəs təriqət sahibi Şeyx Öməridir. Allah əziz ruhlarını müqəddəsləşdirsin. 812-cu il rəbiəl-əvvəl (1409-cu ul iyul ayı)"

Etiraf etməliyik ki, vahid, böyük, əzəmətli türk xalqları tarixinin və mədəniyyətinin öyrənilməsi və təqdimatı baxımından arxeoloq alimlərin də görməli olduğu işlər olduqca çoxdur. Fikrimizcə, arxeoloq alimlər indi hər şeydən əvvəl nə etməli və nədən başlamağı müəyyənləşdirməlidirlər. Yəni ilkin olaraq bilməliyik ki, qardaş xalqların tarixi-mədəni irs kolleksiyasında nələr var. Biz hələ ki, biri-birimizin tarixi-mədəni irsinə, bu sahədə aparılan tədqiqatların nəticələrinə yetərincə bələd deyilik. Ən yaxşı halda, sadəcə olaraq, informativ şəkildə bilirik ki, türkiyəli, qazaxıstanlı, özbəkistanlı, qırğızıstanlı, türkmənistanlı, tatarıstanlı həmkarlarımızın tarixi-mədəni irsin qorunması və tədqiqi istiqamətində kifayət qədər yaxşı təcrübə və nailiyyətlər var. Artıq vaxt yetişmişdir ki, müştərək ekspedisiyalar yaradılsın, birgə layihələr üzərində işlənilsin. Tariximizin və mədəniyyətimizin hər birimiz üçün ümumi olan ortaq dəyərlərini müəyyən edək. Ümumini zənginləşdirən, daha da maraqlı və cəlbedici olan özəllikləri, lokal xüsusiyyətləri araşdıraq.

Sovet dönəmində hər il ölkədə aparılan arxeoloji tədqiqatların yekununa həsr olunmuş Ümumittifaq sessiyaları keçirilirdi, onun materialları "Arxeoloji kəşflər" adı altında nəşr olunurdu. Yaxşı olardı ki, türk dövlətləri və xalqlarının timsalında bu ənənəni bərpa edək. Hər ilin yekununda bir araya gələk, bir-birimizi məlumatlandıraq, nəticələri ümumiləşdirək və s. Bundan əlavə, ayrı-ayrı elmi istiqamətlər üzrə seminarlar, elmi konfrans və simpoziumlar keçirə bilərik. Ortaq nəşrlərin olması da çox vacib məsələdir. Müəyyən təcrübə və məlumat bazasına yiyələndikdən sonra türk xalqlarının tarixi-mədəni irsinə aid ümumiləşdirilmiş kataloq və ensiklopediyalar nəşri barədə də düşünmək olar. Əlbəttə ki, bütün bunları etmək üçün bir- birimizi və sahib olduğumuz tarixi-mədəni dəyərləri daha yaxından tanımalıyıq. Bunun üçünsə qarşılıqlı təmaslar intensivləşdirilməlidir.

Azərbaycanda İslam dövrü abidələrinin arxeoloji tədqiqinə gəlincə, etiraf edək ki, sovet dönəmində arxeoloji axtarışların bu istiqaməti aktual hesab edilmirdi. İslamın həyat və düşüncə tərzimizə gətirdiyi yeniliklər görməzliyə vurulmaqda idi. Şəhərlərimizin plan quruluşunda, memarlıq görkəmində müşahidə olunan yeni çalarlar da həmçinin, Gəncə, Şəmkir, Şamaxı, Qəbələ, Bərdə, Şabran, Naxçıvan, Beyləqan, Ağsu kimi orta əsr şəhərlərinin ictimai-mədəni və dini həyatında xüsusi yeri olan əzəmətli məscidlər, insanları maarifləndirmək missiyasını icra edən mədrəsələr, müqəddəs yerlər, türbələr, ziyarətgahlar, Qərb dünyası ilə müqayisədə sanitariya mədəniyyətinin bariz göstəricisi olan hamamlar, çarhovuzlar, su xətləri şəbəkəsi – bütün bunlar İslam dəyərləri fonunda təşəkkül tapan və qısa zaman kəsiyində hər yanda populyar olan çox ciddi yeniliklər idi.

Uzun illər tarix elmimizdə dominant olan belə bir tezis vardı: monqollar gəldi, hər şeyi dağıtdı, məhv etdi, şəhərlərdə aqrarlaşma prosesi başladı və s. Mən 80-ci illərdə Azərbaycanın son orta əsrlərə aid keramikası ilə bağlı araşdırmalar apararkən hiss elədim ki, bu, heç də belə deyil. Monqol istilası dönəmi və xüsusən də ondan sonrakı dönəmdə Azərbaycan şəhərlərinin memarlıq görkəmində, sənətkarlığın, xüsusən də dulusçuluq və miniatür sənətinin inkişafında, sözün əsl mənasında çox ciddi bir intibah müşahidə edilib. Mən bununla heç də onu demək istəmirəm ki, monqollar heç nəyi dağıtmadı və s. Onu demək istəyirəm ki, monqollar həm də bizim coğrafiyanı dünyanın böyük bir hissəsi ilə qovuşdurdu, beləliklə də mədəniyyətlərin daha geniş arealda transformasiyasına şərait yaradılmış oldu. Hesab edirik ki, artıq qardaş Türk dünyasının elmi mərkəzləri ilə bütün bu məsələlər ətrafında daha əhatəli müzakirələr aparmaq və fikir mübadiləsi etmək zamanı yetişib.

Türk dünyası İslam dünyasının çox mühüm, həm də olduqca əhəmiyyətli bir tərkib hissəsidir. Çox mühüm geosiyasi potensialı, mədəni birliyi, günü-gündən yüksələn və daha da möhkəmlənməkdə olan həmrəyliyi ilə varlığını nümayiş etdirən Türk Dövlətləri Təşkilatı. Təsadüfi deyildir ki, son illər türk dövlətləri və onları təmsil edən xalqlar arasında əlaqələr, xüsusən də mədəni və siyasi əlaqələr yüksələn templə inkişaf etməkdədir. Bu dövlətləri və onların xalqlarını bir-birinə yaxın, qohum və qardaş edən çox dərin tarixi köklər və ortaq dəyərlər mövcuddur. Xoş olan odur ki, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin siyasiləri də, elm və mədəniyyət xadimləri də, sözün əsl mənasında, bu dəyərlərin fərqindədirlər.

Fikrimizcə, bu yerdə Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də keçirilən andiçmə mərasimində Türk xalqları və dövlətlərinin birliyindən, əməkdaşlığından və həmrəyliyindən bəhs edərkən demiş olduğu aşağıdakı kəlamı bir daha yada salmaq yerinə düşər: "Türk Dövlətləri Təşkilatı... bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır!"

Son illər Beynəxalq Türk Akademiyasının bu istiqamətdə gördüyü işləri, xüsusilə qeyd etmək istərdik. Beynəlxalq Türk Akademiyası xətti ilə təkcə son bir il ərzində Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Azərbaycanda keçirilən silsilə elmi-mədəni tədbirlər bunu deməyə əsas verir. Bu yerdə Beynəlxalq Türk Akademiyasının təşəbbüsü və təşkilatçılığı ilə bu il oktyabrın 15-dən 18-dək türk dövlətləri arxeoloqlarının Şuşada keçirilən birinci toplantısının əhəmiyyətini xüsusi olaraq qeyd etməyə dəyər. Məlumat üçün onu da bildirək ki, Macarıstan və Monqolustandan olan arxeoloq alimlərin də qoşulduğu toplantı iştirakçılarının Şuşa səfəri çərçivəsində Ağdam, Xocalı, Əsgəran, Füzuli və digər yaşayış məntəqələrində erməni vandallarının törətmiş olduqları dağıntıları acı təəssüf hissi və ürək ağrısı ilə seyr etmək imkanı da olmuşdur.

Arxeoloqların Şuşa toplantısını giriş sözü ilə Azərbaycanın görkəmli şərqşünas alimi, Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev açdı. O, son vaxtlar türk xalqları və dövlətləri arasında gedən sürətli inteqrasiya prosesi və bu proses çərçivəsində elm adamları qarşısında duran hədəflərdən bəhs edərək, ilk toplantının məhz Şuşada keçirilməsinin önəmini xüsusi olaraq vurğuladı. AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, dosent Fərhad Quliyev müstəqillik illərində Azərbaycanda aparılan arxeoloji tədqiqatlardan bəhs etdi. Tədbirdə iştirakçı ölkələrin çıxış edən nümayəndələri Azərbaycanın Qarabağ Zəfəri, Şuşanın fəthi, işğal dönəmində şəhər və kəndlərimizin ermənilər tərəfindən viran edildiyi, tarixi-mədəni dəyərlərimizin vandalcasına məhv olunduğu, torpaqlarımız azad edildikdən sonra qısa zaman kəsiyində Azərbaycan dövləti tərəfindən həyata keçirilməkdə olan genişmiqyaslı abadlıq və quruculuq işləri barədə fikir, mülahizə və təəssüratlarını bildirdilər.

Toplantı çərçivəsində dinlənilən məruzə və çıxışlar Türk dünyası məkanına daxil olan ölkələrdə arxeoloji tədqiqatların miqyası və səviyyəsini öyrənmək baxımından hər kəs üçün çox əhəmiyyətli oldu. Məsələn, Macarıstan nümayəndəsinin çıxışında ölkə ərazisində 140 minə qədər arxeoloji məkan olduğu, Monqolustan arxeoloqların isə hər il 15 ölkədə aparılan arxeoloji qazıntılarda iştirak etdiyi, ölkə daxilində isə xarici donorların iştirakı ilə 100-ə qədər arxeoloji ekspedisiyanın fəaliyyət göstərdiyi bildirildi. Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tatarıstan alimlərinin arxeoloji tədqiqatlarda müasir texniki və texnoloji üsul və vasitələrdən istifadə, öyrənilən abidələrin konservasiyası, muzeyləşdirilməsi və nəhayət, elmi axtarışların nəticələrinin nəşrinə dair məruzə və çıxışları da maraqla dinlənildi. Geniş və işgüzar müzakirələr əsasında Türk dünyası arxeoloqlarının gələcək fəaliyyətinə yönəlik rəsmi sənəd– deklarasiya qəbul olundu. İştirakçılar vaxtaşırı toplanmaq, müştərək ekspedisiyalar təşkil etmək, ortaq nəşrlər, o cümlədən, ortaq arxeoloji terminlər lüğətinin və Türk dünyasının görkəmli arxeoloq alimləri seriyasından ensiklopedik nəşrlərin hazırlanması barədə razılığa gəldilər. Növbəti ildən başlayaraq, ilkin olaraq, Qarabağ ərazisindəki abidələrdən birində Türk dünyası arxeoloqlarının iştirakı ilə kompleks ekspedisiyanın fəaliyyətə başlayacağı barədə qərar da hər kəs tərəfindən rəğbətlə qarşılandı.

Qonaqların Şuşa gəzintisi də çox maraqlı və təsirli anlarla yadda qaldı. Genişmiqyaslı abadlıq və quruculuq işlərinə rəğmən, şəhərin bütün kvartallarında çoxsaylı dağılmış, uçurulmuş evlər və iri ictimai binalar erməni vandalizminin qara ləkələri olaraq hələ də göz dağlamaqdadır. Yəni, bir "dövlət", bir "xalq" nə qədər cəllad xislətli olmalıdır ki, bu dərəcədə vəhşiliklər törədə bilsin?! Bunu edən ermənilərdir, Ermənistan adlı bədnam, oyuncaq və bufer dövlətdir! Bunu görməmək, lənətləməmək olarmı?!

Gəncə qapıları önündə gəzişərkən, ciyərdolusu dərindən nəfəs alaraq və ətrafdakı ecazkar təbiət mənzərələrini seyr edərkən sanki bir anlığa məst olan qonaqların Şuşadan hələ də doymadığı onların üz-gözündən çox aydın hiss olunmaqda idi. Amma xudahafizləşmək zamanı da yetmişdi. Əminliklə deyə bilərik ki, o insanlar qəhrəman Şuşamızı, onun ecazkar təbiət və tarixi lövhələrini Azərbaycan arxeoloqları ilə əl-ələ verərək bu yerlərdə tədqiqatlar aparmaq üçün yenə də gələcəklər.



Ağsu hamamı

***Qafar CƏBİYEV,***
***AMEA Arxeologiya və Antropologiya İnstitutu İslam dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor***

Zəfər yolçuları

# Ahıskadan başlanan şöhrət yolu

**Ahıska türklərinin qəlbində əbədi bir sürgün acısı, köç yarası, vətən həsrəti var. 80 ilə qədər bir müddətdə bu acı hekayələrinin üstünə yeniləri də yazılıb. Ahıskalıların taleyinin şərəfli səhifələri də var və bunu yazanlardan biri də nur üzlü şəhid İlham Məmmədov olub.**



İlhamın anası Bahar Məmmədova və ailəsi 1937-ci ildə Ahıskadan sürgün olunarkən Yevlaxda məskunlaşa bilib. Nemətabadda doğulub böyüyən Bahar Elxan adlı kəndlisi ilə ailə həyatı qurub və iki övladı olub. Ər-arvad alınlarının təri, əllərinin zəhməti ilə uşaqları böyüdüblər.

Evin yeganə oğul övladıydı İlham, özündən başqa bir bacısı qaldı. Gözü oyulmuş bulaq kimi göz yaşı içinə axan Elxan kişi oğul dərdindən beli bükülsə də, İlhamdan fəxrlə danışır, adı gələn kimi əyilmiş qamətini dik tutur.

Nemətabad Yevlaxın Vətənə ən çox igidlər və şəhidlər verdiyi kəndidir. Bu kəndin orta məktəbi I Qarabağ müharibəsinin şəhidi Hüseynxan Əhmədovun adını daşıyır və II Qarabağ müharibəsində qəhrəmanlıqla döyüşərək qazi və şəhid olan nemətabadlı gənclərin dördü də bu məktəbin yetirməsidir.

İlham Məmmədov 23 fevral 1992-ci ildə dünyaya göz açıb. Hər uşaq kimi kəndin yollarında qarğı atını çapıb, xəyalla gerçəklik arasında uşaqlıq dünyasını yaşayıb. Tay-tuşları ilə bir-birinə sarılıb güləşən, taxta tapançalarla "dava-dava" oynayan uşaqların içində ən zirəyi olub.

İlhamın xoşbəxt uşaqlığının son günü, illərdən bəri vətəninin düşmən tapdağı altında əzildiyini öyrəndiyi gün idi. Ağlı kəsirdi artıq, həyatın uşaqlıqda qurduğu xəyallar qədər asan olmadığını anlayırdı. Kənd məktəbini bitirdikdən sonra – 2011-ci ildə hərbi xidmətə yollandı. Əsgəri borcunu verdikdən sonra kəndə dönmədi. Damarındakı əsil türk qanı, vətən sevgisi onu hərbi hissədə qalıb xidmətini davam etdirməyə sövq elədi.

2013-cü ildə Bakıda 6 aylıq snayperçi kursu keçir və bu sahədə addım-addım irəliləyərək, Naftalandakı "N" saylı hərbi hissədə kiçik çavuş rütbəsində xidmətini davam etdirir. İlham 2016-cı ilin məlum Aprel döyüşlərində iştirak edir və ayağından yaralanır. Müalicə alıb, sağalar-sağalmaz yenidən hərbi hissəyə dönür. Artıq təkcə hərbçi kimi deyil, döyüşçü kimi də təcrübə qazanmışdı. Silahdaşları danışır ki, hərbi hissədə keçirilən yarışlarda həmişə İlham 1-ci olurdu. Onu bu uğurlarına görə xüsusi kursa göndərəcəklərmiş.




İkinci Qarabağ müharibəsi başlamazdan bir neçə gün əvvəl məzuniyyət götürüb evlərinə gəlir. Ailəsi, qohum-əqrabaları ilə görüşüb, bir neçə gün dincəlmək istəyirmiş. Ermənilərin rəzilliyindən, ordumuzun gücündən, Aprel döyüşlərindən danışır. Elə o günlərdə II Qarabağ savaşı başlayır və İlham tez geriyə, öz hərbi hissəsinə qayıdır.

Nemətabad kənd bələdiyyəsinin sədri Xudabaxış Rüstəmbəyli deyir ki, gəldiyi bir-iki gün idi, müharibə xəbərini eşidən kimi yola çıxdı. Valideynlərinin yalvarışlarına sakitləşdirici cavab verdi: "Narahat olmayın ey, müharibəyə getməyəcəm". Amma hamımız bilirdik ki, bizim tanıdığımız İlham birbaşa cəbhəyə gedir.

İlham hərbi hissəyə qayıtdıqdan sonra sevincək üçrəngli bayrağımıza sarılaraq rəqs edib, "Torpaqlarımızın işğal altında qalmasına son qoyacağıq artıq, düşməni məhv edəcəyik!", – deyə sevincdən qanad açıb. O şənliyin videosunu İlhamın döyüş dostları sonralar ailəsinə təqdim ediblər. İlham sanki toy-bayramdaymış. Həmin gün sinif yoldaşlarına da zəng edərək, halallıq alıb, deyib ki, sabah "toyumuz" başlıyır. O, bununla üstüörtülü şəkildə düşmənə tutacaqları "toy"dan bəhs edib.

Evlərinə də son dəfə zəng edib, qürurla danışıb, amma döyüşə girəcəyi haqqında yenə də bir kəlmə deməyib.

İlk döyüşü Suqovuşandan başlayıb və Talış kəndində davam edib. Dəqiq snayper atəşilə düşmən hədəflərini vuran İlhamın məhv etdiyi canlı düşmənlərin sayı 65-dən çox olub. Təəssüf ki, müharibənin elə ilk günü aldığı yaradan Talış uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhadətə qovuşub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan İlham Yevlaxın Şəhidlər xiyabanında dəfn olunub.

Anası Bahar xanımın acı taleyinə bir də övlad yarası əlavə olunub. Şəhid balasının adına otaq ayırıb, şəkillərlə, bayraqlarla bəzəyib. Bir ana kimi onun üçün necə kədərli olsa da, həmişə oğlundan qürurla bəhs edir.

***Əminə YUSİFQIZI,***
***Əməkdar jurnalist***

# Milli təbabət elmi hesabat verir



**Səhiyyə Nazirliyində Elmi-Tədqiqat institutları və mərkəzlərinin rəhbərlərinin iştirakı ilə 2024-cü ilin yekunlarına və növbəti ildə reallaşacaq tədbirlərə həsr olunan iclas keçirilib.**

Nazir Teymur Musayev səhiyyə sisteminin inkişafının ölkəmizdə prioritet məsələlərdən olduğunu vurğulayıb. O qeyd edib ki, cari ildə nazirlik ölkədə səhiyyə infrastrukturunun daha da möhkəmləndirilməsi, xidmət səviyyəsinin artırılması, maddi-texniki bazanın, kadr potensialının gücləndirilməsi və rəqəmsallaşdırma işlərinin genişləndirilməsi istiqamətində uğurlu addımlar atıb.

T.Musayev elektron sənəd dövriyyəsinə keçid, səhiyyədə rəqəmsallaşdırma və innovativ texnologiyalarının daha geniş tətbiqi, işğaldan azad edilən ərazilərdə səhiyyə ocaqlarının inşası və digər istiqamətlərdə mühüm işlərin görüldüyünü bildirib. Səhiyyə sahəsinin rəqəmsallaşdırılması çərçivəsində önəmli yenilik – Elektron Resept Sisteminin bu il mayın 1-dən istifadəyə verildiyini vurğulayıb.

O, Səhiyyə Nazirliyinin tabeliyində Respublika Qan Bankının yaradıldığını, 9 Elmi-Tədqiqat İnstitutunun nazirliyin tabeliyinə verildiyini də diqqətə çatdırıb.

İclasda qarşıda duran vəzifələr və fəaliyyət istiqamətlərindəki çatışmazlıqlar təhlil edilib, gələcək üçün sistemli yanaşmanın tətbiqinə imkan verən müasir idarəçilik strategiyası, əhali üçün daha əlçatan və mütərəqqi tibbi xidmətlər platformasının hazırlanmasının vacibliyi qeyd edilib. "Elektron Resept Sistemi"ndən daha geniş istifadənin reallaşdırılması və nazirliyin tabeliyindəki bütün qurumlarda bu sistemə keçidlə bağlı tapşırıqlar verildiyi vurğulanıb.

Nazirliyin tabeliyindəki elmi-tədqiqat institut və mərkəzlərinin rəhbərlərinin hesabatları dinlənilib. Çıxışçılar qeyd ediblər ki, 2024-cü ildə tibb ocaqları bir sıra yenilik və uğurlara imza atıb, habelə müəssisə daxilində əməliyyatxana və şöbələr əsaslı təmir olunub. Hesabat dövründə "Böyük Qayıdış" proqramı çərçivəsində Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə qurumun tabeliyindəki müəssisələr işğaldan azad olunan ərazilərdə vətəndaşlar üçün sağlam həyat tərzinin təşviqi ilə bağlı maarifləndirici aksiyalar və müxtəlif istiqamətlərdə kompleks tibbi müayinələr keçirib.

Diqqətə çatdırılıb ki, cari ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Pediatriya, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya institutlarını ziyarət edib. Hər iki tibb müəssisəsinə yüksəktezlikli süni tənəffüs cihazları, küvəzlər və digər müasir tibbi avadanlıqlar hədiyyə olunub. Leyla Əliyeva, həmçinin nazirliyin Milli Hematologiya və Transfuziologiya Mərkəzini ziyarət edib. Tibb ocaqlarında müalicə alan uşaqların valideynləri ilə görüşüb, yaradılan şəraitlə tanış olub.

Bundan əlavə, oktyabrda Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası çərçivəsində TDT-nin üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirliklərinin elmi-tədqiqat institutları və mərkəzləri arasında onkologiya, kardiologiya, oftalmologiya, pediatriya, travmatologiya və ortopediya sahələrinə aid bir sıra Anlaşma Memorandumları imzalanıb. I Türk Dövlətləri Kardioloji Qurultayı, ET Ağciyər Xəstəlikləri İnstitutunun 80 illik və Sümük İliyi Transplantasiyasının 10 illik yubileylərinə həsr olunan beynəlxalq elmi-praktik konfrans keçirilib.

Sonda əldə olunan nailiyyətlərlə yanaşı, problemlər də diqqətə çatdırılıb. Nazirliyin tabeliyində fəaliyyət göstərən elmi-tədqiqat institut və mərkəzlərində müasir yanaşmalara əsaslanan korporativ idarəetmə mexanizmlərinin tətbiqinin vacibliyi qeyd edilib, qurum rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Əmək müqaviləsi gələcək üçün də mötəbər təminatdır

**Hər bir dövlətin əsas məqsədlərindən biri vətəndaşlarının həyat şəraitini yaxşılaşdırmaq, onlar üçün güclü sosial təminat sistemi yaratmaq, sosial hüquqlarını daha etibarlı şəkildə qorumaqdır. Təbii ki, insanların sosial şəraitinin yaxşılaşması, ilk növbədə, dövlətin yüksək iqtisadi inkişafa nail olmasından bilavasitə asılıdır. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkəmizdə 2024-cü ilin yanvar–noyabr aylarında 113 milyard 282 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əhalinin hər nəfərinə ÜDM 11 min 104 manat təşkil edib.**

Artım əmək bazarı ilə sıx bağlı olub və işəgötürənlərlə işçilər arasında bağlanan əmək müqavilələrinin sayını artırıb. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən iş yerlərinin rəsmiləşdirilməsi və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 482 min 194 vahid artıb və 2024-cü ilin dekabr ayının 1-nə 1 milyon 884 min 109 olub. Qeyri-neft sektorunun özəl bölməsində isə həmin göstərici 450 min 212 vahid artaraq 990 min 134 təşkil edib. Amma hələ də az da olsa, əmək qanunvericiliyi tələblərinin pozulması halları davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) bu ilin 9 ayında işəgötürənlər tərəfindən 2 128 halda əmək qanunvericiliyinin tələblərinin pozulması faktını aşkar edib. Həmin hüquq pozuntuları daha çox işçilərin əmək müqaviləsi olmadan işlərə cəlb edilməsi ilə bağlıdır.

Bəs əmək müqaviləsinin imzalanmamasının fəsadları nədir? Əmək müqaviləsi işçinin hüquqlarının qorunmasına təminat verə biləcək əsas sənəd olub işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirir. Onun leqallaşdırılması ilk növbədə vətəndaşların sosial maraqlarının təmin olunmasına yönəldilib. Lakin bəzi hallarda əmək müqaviləsi ilə bağlı problemlər yaranır. Bütövlükdə, vergi ödəyiciləri üzrə bu problemlər 3 əsas qrupa bölünür. Birinci problem vergi ödəyicilərinin əmək münasibətlərini rəsmiləşdirmədən işçiləri ayrı-ayrı işlərə cəlb etməsidir. Bu daha çox ticarət və xidmət sektorunda müşahidə olunur. İkinci problem işçilərin bir qismi ilə əmək müqaviləsinin bağlanması, əksəriyyət təşkil edən digər qismi ilə isə rəsmiləşdirilmənin aparılmamasıdır. Bu, əsasən tikinti və istehsal sektorunda çalışan vergi ödəyicilərində rast gəlinən tipik haldır. Üçüncü qrup problem isə ikili mühasibatla bağlıdır. Bir sıra vergi ödəyiciləri iş yerlərini rəsmiləşdirsələr də, ikili mühasibat apararaq, əmək haqlarını real göstərmir, bu yolla vergi və sosial ayırmaların ödənilməsindən yayınırlar. Son vaxtlar bu neqativ hal minimuma endirilib. Üstəlik, əmək haqqının və son haqq-hesabın ödənilməməsi, işçilərin icbari sığorta edilməməsi və əməyin mühafizəsi qaydalarında da qanun pozuntularına rast gəlinir.



Qeyd edək ki, əmək müqaviləsi bağlanmadıqda işəgötürən vergi və sosial ayırmaları ödəməkdən yayınır və bu böyük həcmdə vəsait itkisinə səbəb olur. İşçilər isə ödənişli əmək məzuniyyətindən, birdəfəlik müavinətlərdən, əməkhaqqının ödənilməsindən, ipoteka və digər kreditləri almaq hüququndan, eyni zamanda, gələcəkdə layiqli pensiya təminatından məhrum olurlar.

Digər neqativ hal, yuxarıda bildirildiyi kimi, əmək müqaviləsində qeyd olunan əmək haqqının, əslində, veriləndən aşağı olmasıdır. Məsələn, ola bilər ki, müqavilədə 200 manat əmək haqqı yazılsın, amma işçi 500 manat alsın. Bu da vergidən yayınma hallarına gətirib çıxarır. Çünki əməkhaqqı mühasibatlıq sənədlərində tam əksini tapmadıqda həm sığorta fonduna, həm də vergi şəklində dövlət büdcəsinə vəsaitlər daha az daxil olur. Yəni bu məqsəd üçün nəzərdə tutulan vəsaitlərin bir hissəsi işəgötürən tərəfindən oğurlanır. Əgər əmək müqaviləsi olsa və əməkhaqqı leqallaşsa, işçilər həm o maaşı qanuni alarlar, həm də bilərlər ki, gələcəklərinə təminatlı pensiya yığırlar. Çünki əmək müqaviləsi ilə işləmək, vergi ödəmək gələcəkdə yüksək əmək pensiyası almaq şansını artırır. Əmək müqaviləsi olmayanlar isə daha aşağı əmək pensiyası alacaqlar. Bu da ki, pensiya yaşı çatan zaman maddi cəhətdən müəyyən problemlərin yaşanmasına gətirib çıxarır.

İqtisadçı Əli Mustafayevin sözlərinə görə, əmək müqaviləsi bağlanmadıqda işəgötürən öz üzərinə qanunla götürməli olduğu öhdəliklərdən imtina etmək imkanı qazanır. Bu, işəgötürən tərəfindən iş və istirahət vaxtı üzrə əmək qanunvericiliyinə əməl edilməməsinə şərait yaradır və öz növbəsində, işəgötürən tərəfindən işçinin sosial müdafiə olunma, güzəşt və imtiyazlardan istifadə etmə, məcburi və əlavə sığortalar və s. kimi öhdəliklərdən imtina etməsi ilə nəticələnir. Əmək müqaviləsi yoxdursa, işəgötürən işçini istənilən zaman heç bir vəsait ödəmədən işdən azad edə bilər.

Xatırladaq ki, əmək müqaviləsi olmadan çalışanların təhlükəsizliyi də minimum səviyyədə olur. İstehsalatda baş verən qəzalar zamanı əmək münasibətlərini rəsmiləşdirməyən işçilərin hüquqları pozulur və onlar müəssisələrdən heç bir təzminat ala bilmirlər. "Bəzən işəgötürənlər qeyri-rəsmi şəkildə işçi ilə əlaqə yaradır, onlara sosial təminatları ilə bağlı problemlərini həll edəcəklərinə söz verirlər. İnsanlar da hüquqlarını bilmədikləri üçün inanırlar. Bu adamlar sonradan əmək əlillərinə çevrilir və öz hüquqlarını tələb edə bilmirlər. Çünki ortada onun hüquqlarını təmin edən əmək müqaviləsi yoxdur".

Əmək müqaviləsi necə bağlanır? Bu neqativ halların aradan qaldırılması istiqamətində Azərbaycanda bir sıra tədbirlər həyata keçirilir. Əmək Məcəlləsinə edilən dəyişiklik əsasında artıq əmək müqaviləsi elektron informasiya sistemində elektron sənəd formasında bağlanır. Əmək müqaviləsi bildirişi isə ləğv olunub. Yeni dəyişikliklər rəqəmsal xidmətlərin genişləndirilməsinin hüquqi əsaslarını müəyyən edən normativ hüquqi aktların təkmilləşdirilməsinə xidmət edir. Bu dəyişikliklər işçi qüvvəsi ilə bağlı dəqiq göstəricilər əsasında təhlillərin aparılmasına imkan yaradır. Vahid platforma üzərindən rəqəmsal idarəetmənin tətbiqi məlumat mübadiləsini asanlaşdırmaqla, bu sahədə süründürməçilik, saxtakarlıq, korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasına gətirib çıxarır.

İlk olaraq işçinin şəxsiyyət vəsiqəsinin FİN kodu qeyd olunur. İşə götürən tərəf işçinin məlumatlarını Əməyin Məşğulluğu Alt Sisteminə (ƏMAS) daxil edib elektron müqavilə sənədi formalaşdırır. Müqaviləni imzalamaq istəyən vətəndaş ƏMAS platformasında şəxsi kabinetinə daxil olmalıdır. Platformaya daxil olduqdan sonra "Onlayn əmək müqaviləsi" linkinə klikləməklə "Onlayn əmək müqaviləsi reyestri"nə, ardınca da "Təsdiq gözləyən əmək müqavilələri" bölməsinə keçid etməlidir. Növbəti addımda işçi öz kabinetində əmək müqaviləsi ilə tanış olur, ehtiyac olarsa düzəliş olunması üçün geri göndərir və ya elektron imza (SİMA Rəqəmsal imza, ASAN imza, SİMA Token) ilə imzalayaraq, qəbul edir. Sonda işəgötürən tərəfindən əmək müqaviləsi elektron imzalanaraq qanuni qüvvəyə minir.

Əmək müqaviləsi ilə bağlı məlumatların elektron informasiya sisteminə daxil edilməsi bu sahədə şəffaflığın, iş yerlərində əmək müqavilələri bağlayanların sayının artmasına gətirib çıxarır: Bu, gəlir vergisi və sosial ödənişlərlə bağlı hesablamaların düzgün aparılmasına imkan verir, qeyri-leqal məşğulluqla mübarizədə önəmli rol oynayır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti bu sahədə fəaliyyətini uğurla davam etdirir. Xidmət bu il aşkarlanan hüquq pozuntularını elektron sistem üzərindən həyata keçirdiyi dövlət nəzarəti tədbirləri, habelə ərizə və müraciətlərin araşdırılması zamanı aşkar edir. Bu da ona vaxtında hüquq pozuntularının aradan qaldırılması üçün qanunvericiliyə uyğun tədbirlər görməyə imkan verir. Bu barədə bildirilir: "Xidmətin elektron sistem üzərindən həyata keçirdiyi dövlət nəzarəti tədbirləri, habelə ərizə və müraciətlərin araşdırılması zamanı aşkar edilən həmin hüquq pozuntuları daha çox işçilərin əmək müqaviləsi olmadan işlərə cəlb edilməsi, əmək haqqının və son haqq-hesabın ödənilməməsi, işçilərin icbari sığorta edilməməsi və əməyin mühafizəsi qaydalarının pozulması və s. ilə bağlı olub. Qeyd olunan hüquq pozuntularının hamısının aradan qaldırılması təmin edilib".

Beləliklə, əmək müqaviləsi işçilərin əmək hüquqlarının, eyni zamanda, gələcək sosial təminat hüquqlarının qorunmasında vacib məlumat mənbəyidir. O, ilk növbədə işçi hüquqlarının təminatı, onun firavan gələcəyinin təməlidir. Əmək müqaviləsi həm də vergidən və sosial ödənişlərdən yayınmanın qarşısının alınmasında rol oynayan mühüm sənəddir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## Aida İmanquliyeva – 85

# BDU-da görkəmli şərqşünas-alimin yubileyi





**Dünən Bakı Dövlət Universitetində görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın anadan olmasının 85 illik yubileyi ilə bağlı "Ərəbşünaslıq və şərqşünaslıq: müasir dünyada mədəniyyətlərarası dialoq" mövzusunda respublika elmi konfransı keçirilib.**

Məclisin açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev görkəmli alim Aida İmanquliyevanın Azərbaycan şərqşünaslıq elmindəki xidmətlərindən danışaraq qeyd edib ki, Aida İmanquliyeva Azərbaycanda ilk şərqşünas qadın professor olub: "O, Şərq və Qərb mədəniyyətləri arasında yeni körpülər yaradan qiymətli əsərlər yazıb, apardığı tədqiqatlarla ölkəmizdə ərəb ədəbiyyatının tədqiqi istiqamətində yeni mərhələnin əsasını qoyub. Alimin araşdırmaya cəlb etdiyi, mühüm elmi nəticələr aldığı ərəb məhcər ədəbiyyatı şərqşünaslıq elmimizdə əsl yenilik idi".

Rektor bildirib ki, "Məhəbbət və gözəllik, ağıl və kamal elə mənəvi işıqdır ki, qəlbi nurlandırır" deyən Aida xanımın elmi yaradıcılığı çox zəngindir. O, 30 il Şərq mədəniyyətini, mənəvi dəyərlərini, ictimai-siyasi fikrini araşdırıb, yaradıcılığı ilə Azərbaycan şərqşünaslıq elminin inkişafı tarixində parlaq səhifə açıb. Şərqşünas alimin çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur.

Aida xanım elmi fəaliyyəti dövründə bir sıra sanballı əsərlər yazıb, eyni zamanda, respublikamızda və xarici ölkələrdə keçirilən nüfuzlu beynəlxalq konfranslarda yüksək elmi səviyyəsi ilə seçilən məruzələrlə çıxış edib. Onun tədqiqat əsərləri və məruzələri elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb, əsərlərinə çoxsaylı istinadlar olunub.

Qeyd edilib ki, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda elmi işçidən direktor vəzifəsinə qədər yüksələn alim fəaliyyəti dövründə bu sahədə yeni elmi istiqamətlər müəyyən edib, məktəb yaradıb. Görkəmli alimin elmi rəhbərliyi ilə çoxsaylı dissertasiyalar müdafiə olunub, ərəb ədəbiyyatı sahəsində tanınmış mütəxəssislər hazırlanıb. Aida xanımın müəyyən etdiyi istiqamətlər alimin ardıcılları tərəfindən bu gün də öyrənilir, tədqiq olunur.

Aida İmanquliyeva BDU-nun şərqşünaslıq fakültəsində ərəbşünas kadrların hazırlanması işinə də böyük töhfə verib. 20 ildən artıq müddətdə ərəb ədəbiyyatından dərs deyib, mühazirələr oxuyub, xüsusi kurslar aparıb, dissertasiya və diplom işlərinə rəhbərlik edib. Onun rəhbərliyi ilə ərəb filologiyası şöbəsində 10-dan çox namizədlik dissertasiyası müdafiə edilib, ərəb ədəbiyyatının, ərəb – Azərbaycan ədəbi əlaqələrinin müxtəlif sahələrini araşdıran monoqrafiyalar, kitablar yazılıb.

Konfransda görkəmli şərqşünas alimin zəngin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş edilib.

Məclisin davamında AMEA prezidenti akademik İsa Həbibbəyli bildirib ki, professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq məktəbinə yeni filoloji istiqamət gətirib. Onun ərəb ədəbiyyatına həsr etdiyi tədqiqatlar, monoqrafiyalar, məqalələr, yetirmələrinin yazdığı əsərlər şərqşünaslığın filoloji, ədəbiyyat qolunu inkişaf etdirib. Görkəmli alim ərəb məhcər ədəbiyyatına dair əsərləri ilə Azərbaycan, bütövlükdə dünya şərqşünaslıq elminə əvəzsiz töhfələr verib.

Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov isə deyib ki, şərqşünaslıq elminin əsasını mədəniyyətlər, dinlər, insanlar arasında körpü yaratmaq təşkil edir. Professor Aida İmanquliyevanın da bütün elmi fəaliyyəti Şərqlə Qərbi vəhdət şəklində öyrənməyə, mədəniyyətlərarası dialoqa həsr olunub. Bu baxımdan Aida İmanquliyeva Azərbaycan elminin, ziyalılığının işığı kimi daim parlayacaq.

Milli Məclisin deputatı Jalə Əliyeva, BDU şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, AMEA Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, BDU ümumi dilçilik kafedrasının müdiri akademik Nizami Cəfərov, Bakı Yunus Əmrə İnstitutunun direktoru Səlcuk Karakılıç, BDU ərəb filologiyası kafedrasının müdiri dosent Vüqar Qaradağlı professor Aida İmanquliyeva ilə bağlı xatirələrini bölüşüb, onun Azərbaycanın elm və təhsil tarixindəki müstəsna rolundan, cəmiyyətə, elmə, təhsilə, mədəniyyətə verdiyi əvəzsiz töhfələrdən danışıblar.

Elmi konfransda qeyd olunub ki, Şərq – Qərb mədəni əlaqələrinin inkişafında, Azərbaycan fəlsəfi fikrinin İslam aləmində yayılmasında professor Aida İmanquliyevanın tədqiqatlarının önəmli rolu var.

Konfrans işini 8 bölmədə davam etdirib.

**XQ**

## Qulu Məhərrəmli – 70

# Jurnalist, dilçi, pedaqoq



**Dünən AMEA Dilçilik İnstitutunda Əməkdar jurnalist, media professoru Qulu Məhərrəmlinin anadan olmasının 70 illik yubileyi münasibətilə "Televiziya və radio verilişlərində ədəbi dil problemləri" mövzusunda elmi sessiya keçirilib.**

Elmi məclisdə Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli Qulu Məhərrəmlini müasir Azərbaycan mətbuatının, televiziya sənətinin və jurnalistika elminin görkəmli nümayəndəsi kimi səciyyələndirib. Elmi işlər üzrə direktor müavini dosent Baba Məhərrəmli, dilçi professor İsmayıl Məmmədli, BDU-nun jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Vüqar Əliyev, media professoru Allahverdi Məmmədli, dilçi dosent Təranə Şükürlü, şair-publisist Vaqif Bəhmənli, elmi işçi Şamama Təvəkkülova yubiliyarın elmi-publisitik və pedaqoji fəaliyyəti ilə bağlı məruzələrlə çıxış ediblər.

İnstitutun şöbə müdiri, professor Sayalı Sadıqova, BDU-nun dilçi dosenti İsmayıl Məmmədov, Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri, Əməkdar jurnalist Tahir Aydınoğlu yubiliyarı təbrik ediblər, onun çoxşaxəli fəaliyyətinin bir-birini tamamlayaraq jurnalistika, elm və ali təhsildə bənzərsiz nümunə yaratdığını vurğulayıblar.

Yubiliyara Dilçilik İnstitutunun fəxri fərmanı təqdim edilib.

Sonda Qulu Məhərrəmli göstərilən səmimi diqqətə, verilən yüksək dəyərə görə təşəkkürünü bildirib.

*

**Yubiley günlərində professor Qulu Məhərrəmlinin "Televiziyada dil və nitq situasiyası" adlı nəzəri oçerklərdən ibarət yeni kitabı da (Bakı, "Füyuzat", 2024) nəşr olunub.**




Kitab görüntüyə əsaslanan televiziyada işlənən şifahi nitqin funksional-struktur xüsusiyyətləri və ekran dilinin özəlliklərinin araşdırılmasına həsr edilmişdir. Ədəbi dilin ekranda tətbiqi, sözün təsvirlə qarşılıqlı əlaqəsi, audiovizual səciyyə daşıyan ekran nitqinin ekstralinqvistik cəhətləri, dildənkənar situasiya, konsituasiya, müəllif mətninin linqvistik mahiyyətinin aşkara çıxarılması məsələləri əsərdə öz əksini tapmışdır.

Araşdırmada ekrandakı şifahi sözün xüsusiyyətləri, telenitqin semantik-üslubi çaları, nitqin konstruktiv prinsipləri, ədəbi tələffüz və ekranda nitq mədəniyyəti ilə bağlı digər aktual problemlər də nəzərdən keçirilmişdir.

Kitabın elmi redaktoru, BDU-nun Azərbaycan dilçiliyi kafedrasının dosenti İsmayıl Teymuroğlu (Məmmədov) yazdığı ön sözdə göstərir ki, son illərdə Azərbaycan dilinin struktur inkişafı, danışıq dili və ədəbi dilimizin funksional üslubları öyrənilsə də, mətbuatın, televiziya və radio dilinin tədqiqatı sahəsində həll edilməmiş problemlər hələ də qalır. Haqqında söhbət gedən problemin tədqiqi tanınmış jurnalist, analitik və araşdırmaçı Q.Məhərrəmlinin elmi yaradıcılığının əsasında dayanan mövzulardan biridir. "Yaxşı cəhətdir ki, Qulu müəllim həm teleradio işinin, həm də dilçiliyimizin elmi-nəzəri və praktik problemlərini dərindən bilən mütəxəssisdir. Yəni o, eyni zamanda, həm jurnalistikanın tədrisi, həm televiziya və radio yaradıcılığı, həm də Ana dilimizin praktik məsələlərinin tədqiqi ilə məşğuldur və bu sahədə ciddi elmi araşdırmalarını davam etdirir".

Dosent İ.Məmmədov əminliyini bildirir ki, elmi ictimaiyyətimiz professor Qulu Məhərrəmlinin bu dəyərli tədqiqat işini maraqla qarşılayacaqdır.

***XQ***

## İlin yekunları

# Ədəbiyyatşünaslığımız mənəvi dünyamızı zənginləşdirir

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 2024-cü ildə gördüyü işlər öz əhatəliliyi ilə diqqət çəkir. Ötən həftə institutda keçirilən elmi şura iclasında bu barədə ətraflı danışılıb, qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən bəhs olunub.**



Hesabat ilində AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin, eyni zamanda, rəhbərlik etdiyi Ədəbiyyat İnstitutunda Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamlarının, Nazirlər Kabinetinin qərarlarının, habelə dövlət proqramlarının icrası ilə əlaqədar sanballı tədbirlər həyata keçirilib.

Dövlət başçısının 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamı ilə bağlı akademik İsa Həbibbəyli "Yaşıl artım və dayanıqlı inkişaf", "Yaşıl dünyamızı qoruyaq", "Yaşıl dünya gözlərə nur verən elmin işığında" kimi elmi konfranslarda və BMT-nin iqlim dəyişmələri konfranslarının 2024-cü il noyabrın 11–22-də Bakıda keçirilən 29-cu sammitində iştirak edib, eləcə də məruzələr oxuyub. Eyni zamanda, AMEA rəhbəri Çin Xalq Respublikasına səfəri çərçivəsində bu ölkənin Biomüxtəlifliyin Qorunması və Yaşıl İnkişaf Fondunun rəhbəri ilə görüşüb, AMEA ilə təşkilat arasında əməkdaşlıq memorandumu imzalayıb. Respublika və beynəlxalq tədbirlərdə institutun alim və mütəxəssislərinin iştirakı və məruzələri də əhatəli olub.

Ölkə rəhbərinin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" 25 yanvar 2024-cü il tarixli sərəncamı ilə bağlı institutda yaddaqalan tədbirlər görülüb. "Məhəmməd Füzuli və Sultan Baho: Azərbaycan və Pakistan arasındakı ədəbi əlaqələr", AMEA Rəyasət Heyəti, AMEA-nın Humanitar və İctimai Elmlər bölmələri və İraq–Azərbaycan Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" adlı beynəlxalq elmi konfranslar, "Məhəmməd Füzuli və Türk dünyası" mövzusunda konfrans, III Türk dünyası Ədəbiyyat və Kitab festivalında "Məhəmməd Füzuli – 530" paneli və digər tədbirlər keçirilib. Eləcə də Füzuli irsini əhatə edən tədqiqat əsərlərinin təqdim olunmasının başlıca məqsədi mütəfəkkir şairi dünyaya daha yaxından tanıtmaq olub.

Azərbaycan Prezidentinin "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında", "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı haqqında" və "Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamları ilə əlaqədar institutda maraqlı elmi tədbirlər təşkil olunub, o cümlədən tədqiqat əsərləri nəşr edilib.

Sona yetməkdə olan 2024-cü ildə Ədəbiyyat İnstitutunda 2 istiqamət, 8 problem, 19 mövzu, 133 iş üzrə tədqiqat aparılıb, onlardan 95-i tamamlanıb, 38 iş üzərində isə tədqiqatlar davam edir. 2024-cü il üzrə mühüm elmi nəticələri əks etdirən, institutun alim və mütəxəssislərinin müəllifi olduğu bədii əsərlərin, dərsliklərin, tərcümələrin, konfrans materiallarının, impakt faktorlu məqalələrin, eyni zamanda, tərtib edilmiş kitabların siyahısı da böyükdür. Konkret olaraq qeyd edək ki, institut əməkdaşlarının 4-ü xaricdə olmaqla 76 kitab və monoqrafiyası, 249-u xaricdə, 18-i impakt faktorlu olmaqla, ümumilikdə, 1164 məqaləsi çap olunub.

İlin son akkordları kimi, on cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin VII cildinin I hissəsinin, "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyasının VIII cildinin – Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyasının və "İşıq adam" kitabının, həmçinin Nemət Bəsirin "Əsərləri"nin də çapa təqdim edilməsi barədə qərar verilib.

"Elektron Ədəbiyyat İnstitutu" üzrə də bu il perspektivli nəticələr əldə edilib. Akademik platformalarda işin təşkili və jurnalların elektron variantlarının yaradılması sayəsində Ədəbiyyat İnstitutu virtual məkanda geniş təbliğ olunub. Bu elm müəssisəsinin rəqəmsal mühitə inteqrasiyası təqdirəlayiqdir. Artıq müəyyən müddətdir ki, Ədəbiyyat İnstitutunun "Google scholar"da korporativ hesabı yaradılıb, nəticədə humanitar elmlər sahəsində alimlərin məqalələrinə olan istinadların sayı artıb. Yeri gəlmişkən, AMEA səviyyəsində Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası – TÜBİTAK vasitəsilə dünyaya çıxış imkanları xeyli genişləndirilib.

Yekunlara həsr olunan elmi şura iclasında AMEA prezidenti, akademik İsa Həbibbəyli, akademiya Rəyasət Heyəti aparatının Humanitar Elmlər Bölməsinin Elmi şurasının sədr müavini, akademik Teymur Kərimli Ədəbiyyat hesabat ilində görülən işləri təqdir ediblər. İnstitutun yeni qəbul olunmuş doktorant və dissertantlarının 2025-ci il üçün fərdi iş planlarının təsdiqindən də bəhs olunub ki, bu da uğurlu perspektivlərə hesablanan addımdır.

Qazanılan uğurların fərəh doğurması ilə bərabər, humanitar və ictimai elmlərin qarşısında prioritet vəzifələr də durur. Elektron elmin formalaşması istiqamətində fəaliyyət daha da dəstəklənməlidir. Akademik İsa Həbibbəyli demişkən, elektron Akademiya artıq bir zərurətdir. Bu gün alimlər fəaliyyətini yüksək reytinqli elmi bazalarda yer alan jurnallarda məqalələrinin sıx dərc edilməsinə yönəltməlidirlər. İnanırıq ki, Ədəbiyyat İnstitutunun fəaliyyətində, hesabatların təqdim olunması mərhələsində dünya elminin yenilikləri və Azərbaycan elmi qarşısında qoyulan yeni çağırışlar da birmənalı olaraq nəzərə alınacaq.

***Ə.ƏLİYEV***
***XQ***

# Bakı ilə Minskin teatr əməkdaşlığı

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı ilə Yanki Kupala adına Belarus Milli Akademik Teatrı arasında ikitərəfli əməkdaşlıq müqaviləsi imzalanıb.**



Bu barədə XQ-yə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı məlumat verərək bildirdi ki, sənədi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov və Yanki Kupala adına Belarus Milli Akademik Teatrının direktoru Aleksandr Şestakov imzalayıblar.

Belarus Respublikası mədəniyyət nazirinin 1-ci müavini Dmitri Şlyaxtin isə qurulan əməkdaşlığı ölkələrimizin teatr sənəti sahəsində yeni mərhələ adlandırıb.

İlham Əsgərov Azərbaycan və Belarusun Mədəniyyət nazirliklərinə göstərdikləri dəstəyə görə təşəkkürünü bildirərək deyib ki, memoranduma əsasən, yaradıcı kollektivlərin qastrollarının, mədəniyyət günlərinin, festivalların, sərgilərin və digər mədəni tədbirlərin təşkili, mədəniyyət xadimlərindən, bədii və yaradıcı kollektivlərdən ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərləri planlaşdırılıb.

Aleksandr Şestakov isə imzalanan memorandumu rəhbərlik etdiyi teatrın həyatı üçün vacib hadisə kimi dəyərləndirib. O, gələn il Bakı ilə Minsk arasında olacaq mübadilə qastrollarına hazırlıqların başladığını diqqətə çatdırıb.

Mərasimdə iştirak edən ölkəmizin Belarusdakı səfiri Məhərrəm Əliyev böyük tarixə və yaradıcılıq imkanlarına malik olan iki milli teatr arasında qurulan əməkdaşlığı yüksək qiymətləndirib. O qeyd edib ki, dost ölkələr olan Belarus və Azərbaycan arasında müxtəlif sahələrdə nümunəvi əməkdaşlıq və təcrübə mübadilələri mövcuddur. Teatrlar arasında imzalanan müqavilə mədəniyyət sahəsində atılan vacib addımdır və səhnə sənətinin inkişafına mühüm töhfə verəcək.

Xatırladaq ki, bundan 2 il əvvəl Azərbaycan Dövlət Akademik Musiqili Teatrı ilə Mogilyov vilayətindəki V.İ. Dunin-Martsinkeviç adına Dram və Komediya Teatrı arasında da əməkdaşlıq müqaviləsi bağlanmışdır.

***XQ***

# Avropa İttifaqı Kiyevə 47 milyard avro hərbi yardım göstərib

*Bu, NATO-nun Ukraynada anti-Rusiya plasdarmı yaratmaq siyasətinə xidmət edir*

**Avropa İttifaqı ölkələri 2022-ci ilin fevralından bu günə qədər Kiyevə 47,3 milyard avro hərbi yardım göstərib. Ukrayna bunun 41,2 milyard avrosunu birbaşa üzv ölkələrdən, 6,1 milyard avronu isə "Ukraine Facility" fondu çərçivəsində alıb. Məlumatı Avropa Komissiyasının xarici siyasət xidmətinin rəsmi nümayəndəsi Anita Hipper təsdiqləyib. O əlavə edib ki, Ukraynaya Rusiyanın təcavüzü ilə mübarizədə dəstək üçün yardımın ümumi məbləği 130 milyard avro təşkil edib və bu rəqəm artmaqda davam edir.**





Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen isə bildirib ki, Ukrayna 2025-ci ildə, ümumilikdə, təxminən, 30 milyard avro alacaq. "Aİ Kiyevə "Ukrayna Facility" fondundan 13 milyard avro ayıracaq və yanvar ayından dondurulmuş Rusiya aktivlərindən əldə edilən gəlirlə maliyyələşdirilən G7 kreditinin bir hissəsi köçürüləcək. Bu məbləğ 18 milyard avro təşkil edəcək. Beləliklə, Aİ 2025-ci ilin yanvarından Ukraynaya ayda 1,5 milyard avro yardım edəcək. Bunu Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas 27 ölkənin xarici işlər nazirlərinin ilk görüşündən sonra keçirilən mətbuat konfransında deyib. Bundan əlavə, Aİ qışın sonuna qədər 75 min ukraynalı əsgərə təlim keçmək niyyətindədir. Kallas bir daha qeyd edib ki, Ukraynaya yardım Aİ üçün prioritet olaraq qalır. Bu yardım Ukraynanı "2025-ci ilin sonuna qədər iqtisadi və maliyyə sabitliyi ilə təmin edəcək, həmçinin hərbi texnikanın alınması üçün büdcəni əlavə yükdən azad edəcək: "Brüssel Rusiya ilə gələcək danışıqlarda Kiyevin mövqeyinin güclü olması üçün mümkün olan hər şeyi etməlidir".

Bu, Brüsselin Ağ evdə gözlənilən kadr dəyişikliyinə baxmayaraq, Kiyevə dəstəyinin davam edəcəyinin, eyni zamanda, Donald Trampın münaqişənin tez bir zamanda dayandırılmasının zəruriliyi ilə bağlı bəyanatlarından narahatlığının göstərcisidir. "Newsweek" qəzetinin Aİ-dəki mənbəyə istinadən verdiyi məlumata görə, ABŞ-ın yeni prezidenti ilə telefon danışıqlarında blok ölkələrinin liderləri "Amerikanın Kiyevə yardımının davam etdirilməsində təkid edirlər".

Bəs Aİ maliyyə və silah dəstəyində ABŞ-ı əvəz edə bilərmi? Ekspertlər birliyi qeyd edir ki, Aİ ABŞ-dan göndərilən müəyyən silahları əvəz etmək iqtidarında deyil. Bu barədə hərbi ekspert Vadim Koroşçupov "İzvestiya"ya deyib: "Ukraynadakı münaqişənin ABŞ-ın hərbi sənaye kompleksinə gətirdiyi gəliri nəzərə alsaq, Vaşinqtonun Ukraynanı silahla təchiz etməkdən tamamilə imtina etməsi çətin ki mümkün olsun. Birbaşa silah tədarükü haqqında danışsaq, avropalılar Amerikanın hərbi yardımını, ancaq qismən əvəz edə bilər. Çünki Aİ Kiyevi kifayət qədər yüksək dəqiqlikli uzaqmənzilli raketlərlə təmin edə bilməz. Bunlar əsasən qanadlı, ballistik raketlər, çoxsaylı buraxılış raket sistemləridir. Belə məhsullar milyonlarla deyil, ildə yüzlərlə, bəzən onlarla istehsal olunur. ABŞ 1990-cı illərdən bu yana xeyli sayda belə silah toplayıb, lakin Avropa hələ də bu silahlardan yığmayıb. Son 20–30 ildə avropalılar yüksək dəqiqlikli uzaqmənzilli sistemlər sektorunu inkişaf etdirməyə başlayıblar, lakin bu, hələ başlanğıc mərhələsindədir".

Bəs Tramp Kiyevi dəstəkləməkdən imtina edəcəkmi? 2022-ci ilin fevralından bəri ABŞ-ın Kiyevə hərbi dəstəyinin həcmi 62 milyard dollardan çox olub. Bu böyük rəqəmdir. Ona görə də Aİ-nin narahatlığı başa düşüləndir və bütün bunlara baxmayaraq, Ukrayna əsas bölgələrdən tədricən geri çəkilir.

Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun dekabrın 18-də verdiyi məlumata görə, rus qoşunları 2024-cü ildə 190 yaşayış məntəqəsini və təxminən 4,5 min kvadratkilometr ərazini "azad" edə bilib. O deyib ki, hazırda Kiyevə hərbi təyinatlı məhsullar 30-dan çox ölkə tərəfindən tədarük edilir. Bu sahədə ən çox ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və Danimarka fərqlənir. Onun sözlərinə görə, xarici dövlətlər Rusiya xüsusi əməliyyata başlayandan bəri Ukrayna Silahlı Qüvvələrinin hərbi ehtiyaclarına, təxminən, 170 milyard dollar xərcləyiblər, halbuki onların Ukraynaya ümumi maliyyə yardımı, təxminən, 350 milyard dollar təşkil edib. Yardımlar isə davam edir.

...Trampın özü hələ heç yerdə deməyib ki, ABŞ Kiyevi maliyyəsiz qoymağa hazırlaşır. Üstəlik, o, "Tayms" qəzetinə verdiyi son müsahibəsində vurğulayıb ki, Ukrayna ilə bağlı razılaşma əldə etmək istəyir və bunun yeganə yolu Kiyevi yardımsız qoymamaqdır. Trampın fikrincə, Amerikanın Ukrayna Silahlı Qüvvələrinə gələcək yardımı nizamlanma danışıqları zamanı Rusiyaya təzyiq rıçaqları rolunu oynamalıdır. Yenə ABŞ-ın yeni prezidenti Ukrayna ilə bağlı planının təfərrüatlarını açıqlamayıb.

Fransız geosiyasət və strategiya analitiki Ciril de Lattre isə deyib ki, Tramp Kiyevə dəstəkdən tamamilə imtina etməyəcək: "Ölkəsini Ukraynada yaranmış dalandan çıxarmağa çalışmaq Trampın ruhuna uyğundur. Amma Tramp yaxşı başa düşür ki, hərbi sənaye kompleksi çox güclü gəlir generatorudur, heç bir dövlət ondan imtina edə bilməz. Deməli, əgər Vaşinqton birbaşa yardımdan imtina etmək qərarına gəlsə, o, çox güman ki, Rusiyaya qarşı dost olmayan ölkələr, məsələn, Polşa vasitəsilə daxil olacaq".

Ukrayna Prezidenti Volodimir Zelenski isə deyib: "ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp Ukraynadakı müharibəni tez bir zamanda başa çatdırmaq istəyir, lakin Kiyev danışıqlar naminə təslim olmaq və hərbi əməliyyatları dondurmaq niyyətində deyil". Eyni zamanda, Zelenski ümid etdiyini bildirib ki, Trampın hakimiyyətə gəlməsi ilə ABŞ-da baş verən dəyişikliklər Ukraynaya fayda verəcək: "Biz yeni administrasiya ilə əlaqələr quracağıq, bu bizim prioritetimiz olacaq. ABŞ bu müharibədə bizim aparıcı donorumuz olub və elə də qalır".

İstənilən halda, ABŞ-ın gələcək administrasiyası Trampın seçki kampaniyası zamanı münaqişəyə ən qısa zamanda son qoymaq vədini yerinə yetirmək niyyətini müxtəlif üsullarla nümayiş etdirir. "The New York Times" qəzeti yazır ki, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp Ukraynada 40 min avropalı hərbçinin patrulluq edəcəyi bufer zonası yaratmaq istəyir. Belə planın mümkünlüyünə şübhə edən ekspertlərin fikrincə, Donald Tramp bu yolla Ukraynada müharibənin sona çatdırılması üçün real şərtlər irəli sürmək əvəzinə "siyasi teatr" təşkil edir. Hər halda Tramp tərəfindən münaqişənin həlli üzrə xüsusi elçi təyin edilmiş, istefada olan general-leytenant Keyt Kelloqun yanvarın əvvəlində Kiyevə səfəri planlaşdırılır.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun vurğuladığı kimi, Kremlin "bu məsələdə Tramp komandası ilə heç bir əlaqəsi olmayıb". Kreml dəfələrlə vurğulayıb ki, Ukraynadakı münaqişənin səbəblərini Rusiyanın hərəkətlərində deyil, məhz Qərbin siyasətində axtarmaq lazımdır. Moskva hesab edir ki, hazırkı böhran NATO-nun Ukrayna ərazisində anti-Rusiya plasdarmı yaratmağa yönəlmiş uzun illər davam edən təcavüzkar siyasətinin birbaşa nəticəsidir.

***Hazırladı:***
***P.ƏFƏNDİYEV***
***XQ***

# İlon Mask indi də Britaniyada siyasətə qoşulur



**Amerikalı iş adamı İlon Mask ilə Reform UK partiyasının rəhbəri Naycel Faraj və islahatçıların xəzinədarı Nik Kendi arasında son günlərdə görüş keçirildiyi bildirilir. Mətbuatda yayılan məlumatlara görə, bu sağçı siyasi qüvvənin Maskdan külli miqdarda maliyyə yardımı alacağına dair hələ hüquqi cəhətdən rəsmiləşdirilməmiş razılaşma var. Faraj həm də amerikalı iş adamının təşkilati dəstəyinə ümid edir. Amma Britaniya mətbuatında Maska qarşı tənqidlər yer alır, onun ölkənin daxili işlərinə qarışdığını vurğulayırlar.**

Naycel Farajın partiyasının dəqiq nə qədər maddi yardım alacağı məlum deyil. Mətbuat mənbələrə istinadən böyük məbləğlərdən bəhs edir: 78 milyon funt sterlinq (100 milyon ABŞ dolları). Əslində, Donald Trampın ən mühüm müşaviri olan İlon Mask ilə Faraj arasındakı əlaqələrin yeni yaradılmadığını vurğulayırlar Buna görə də, mütəxəssislər Mar-a-Laqodakı görüşdən sonra İlon Mask ilə Britaniya avroskeptiki arasında əməkdaşlığın yeni mərhələyə keçdiyinin sürpriz olmadığını bildirirlər. Onlar indi təkcə ideoloji cəhətdən yaxın deyillər, həm də siyasi müttəfiqdirlər.

Maraqlıdır ki, bundan öncə Naycel Farajın özü başqa dövlətin işlərinə qarışmaqda ittiham olunurdu. İlin əvvəlində o, Donald Trampın prezident seçkilərində qalib gəlməsi üçün hər şeyi edəcəyini bildirmişdi. Ancaq iyulun əvvəlində Böyük Britaniyada keçirilən parlament seçkiləri onun planlarını dəyişdi. Farajın rəhbərlik etdiyi islahatçılar nisbətən yaxşı çıxış edərək 14 faiz səs topladılar ki, bu da partiyanın 6 illik tarixində ən yaxşı nəticə idi. Britaniya siyasi sisteminin özəlliklərinə görə, (majoritardır, yəni səslərin ümumi sayı deyil, konkret seçki dairəsində qələbə vacibdir – red.) hazırda avroseptiklər parlamentdə beş nümayəndə ilə təmsil olunurlar. Əvvəlki seçkilərdə Reform UK partiyasının parlamentdə cəmi bir üzvü var idi. Həmin yeri də London meri Sadiq Xanı "islamçıların nəzarəti altında olan biri" adlandırdığı üçün Mühafizəkarlar Partiyasından qovulmuş Li Anderson tuturdu. İyul seçkilərindən sonra isə sağçı partiyanın mühafizəkarların əvəzinə əsas müxalifət qüvvəsinə çevrilmək şansı var. Britaniyalı ekspertlərin fikrincə, bu, hazırda Farajın əsas prioritetidir.

Yerli KİV yazır ki, İlon Maskın maliyyələşməsi avroskeptiklərin liderinə gələn il keçiriləcək yerli seçkilər ərəfəsində kampaniya aparmağa kömək edəcək. Onun rəqiblərinin vəziyyətinin daha pis olduğu bildirilir. Mühafizəkarlar Partiyasının da seçkilərdə şansının yüksək olmadığı iddia edilir. Eyni vəziyyətlə leyboristlərin üzləşdikləri bildirilir və burada yeganə fərq ondadır ki, onların reytinqi torilərdən daha sürətli düşür. Məhz bu anda İlon Maskın Britaniya siyasətinə qarışmağa qərar verməsi diqqəti çəkir. Belə ki, noyabr ayında o, Britaniyada erkən seçkilərin keçirilməsini tələb edən petisiyanı imzalayaq, ifrat sağçı fəalları təqib etdiyinə görə ölkəni "tiran polis dövləti" adlandırmışdı.

İndi iki əsas partiyanın zəifləməsi ilə Farajın Britaniya siyasətinin ən yüksək eşelonuna adlamaq inkanı var. O, bu yaxınlarda seçilmiş mühafizəkarların lideri Kemi Badenokdan daha çox siyasi təcrübəyə malikdir. Syasi analitiklərin sözlərinə görə, İlon Mask bütün bunları diqqətlə izləyir. Faraj da onu çox tərifləyir. O, X sosial şəbəkəsinin rəhbərinin Amerika seçkilərinə təsir səviyyəsindən məmnun olduğunu gizlətmir. Bundan əlavə, o, mövcud vəziyyəti "Qərbi xilas etmək şansı" adlandırır və ehyam vurur ki, miqrantlar sivilizasiyaya təhlükə yaradırlar.

Ekspertlər iddia edirlər ki, İlon Maskın Britaniya siyasətinə təsiri həqiqətən də çox böyük ola bilər. "The Washington Post"un yazdığına görə, onun sosial şəbəkələrdəki mətnlərinə Donald Tramp, Kamala Harris və bütün ABŞ senatorlarının mesajlarından qat-qat çox baxılır. Britaniyanın liberal mediası yazır ki, İlon Mask ölkə siyasətinə müdaxilə edir. Qanunvericilik maneələri də var: Britaniya siyasətçilərinə xaricdən 500 funt sterlinqdən artıq hər hansı ianə qəbuledilməz hesab olunur. Düzdür, nə Mask, nə Faraj, nə də Kendi 78 milyonun birbaşa köçürüləcəyini demirlər. Onlar, məsələn, iş adamının şirkətlərindən birinin Britaniya filialı vasitəsilə köçürülə bilər.

Bundan əlavə, Maskın nənəsi ingilisdir, həm də o, Britaniya Birliyinin bir hissəsi olan Cənubi Afrika dövlətinin vətəndaşıdır. Buna görə də, amerikalı milyarderin "Dumanlı Albion"da deputat olmaq şansı böyükdür. Düzdür, onun Britaniya siyasətində uğur qazanacağına şübhə ilə yanaşırlar. Amma belə iddia edirlər ki, iş adamının təsiri birbaşa yox, yalnız dolayı yolla ola bilər.

***S.ELAY***
***XQ***


## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının

*balansındakı aktiv üzrə borcun tələb hüququnun 28 dekabr 2024-cü il saat 16.00- da müsabiqə yolu ilə satışının keçirilməsi barədə*

## BİLDİRİŞİ

Satılacaq əmlak barədə məlumat

Satışa çıxarılmış aktivin adı- Quba rayonunun Vəlvələ kəndində yerləşən əmlak kompleksi üzrə "Riyad-Farm" MMC-nin borcunun tələb hüququ,

İlkin satış qiyməti: 4,750,000.00 (dörd milyon yeddi yüz əlli min manat) manat.

Ərizə və sənədlərin qəbulunun başlanması və bitməsi tarixi- 23 dekabr 2024-cü il - 25 dekabr 2024-cü il.

Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı- 27 dekabr 2024-cü il saat 16.00-da.

Müsabiqənin keçirildiyi ünvan- AZ-1022 ,Bakı şəhəri ,S.Vurğun küçəsi 135.

Aktivn növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydasına və müddətinə – 23 dekabr 2024-cü il tarixdən 25 dekabr 2024-cü il tarixədək, həftənin hər günü, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

Əlaqələndirici şəxs- Şahin Seyidov. Tel-050-235-99-90.

**İddiaçılar qarşısında irəli sürülən şərtlər.**

1. İddiaçı tərəfindən əmlakın dəyərinin 5% faizi həcmində beh məbləğinin ödənişi.
2. Müsabiqənin qalibinin əmlakın dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanəti.
3. Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.
4. Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir.
5. İddiaçılar tərəfindən bağlı zərfdə təqdim edilmiş təkliflər bərabər olduqda həmin iddiaçılar yeni məbləği və əmlakın dəyərinin tam ödənilməsi müddəti göstərilməklə yenidən təklif təqdim etməlidirlər. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.
6. İddiaçılar tərəfindən təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılacaqdır.
7. Müsabiqə zamanı təqdim edilən təkliflərdə göstərilən məbləğ, onun ödənilmə şərtləri və müddəti qiymətləndirilir və müsabiqənin keçirildiyi gün qalib elan olunur.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:**

-iddiaçının ərizəsi (iddiaçı özü və iddia etdiyi aktivin məlumatlarını tam əks etdirməklə):

-iddiaçının şəxsiyyətini təsdiq edən sənəd:

-təklif (bağlı və möhürlənmiş zərfdə ,qiymət rəqəmlə və sözlə göstərilməklə, onun ödənilmə şərtləri və müddəti):

-iddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz:

-iddiaçının müsabiqədə nümayəndəsi olduğu halda etibarnaməsinin və şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Beh ödənilməsi üçün bank revizitləri:**

**Kod** - 501587
**VÖEN** - 1300025711
**SWIFT BIC** - ACJTAZ22
**Ünvan** - AZ 1006, Bakı şəhəri, Qədirli küçəsi 125.
**Mərkəzi Bankda müxbir hesab** - AZ45NABZ 01350100000000035944
**Beh məbləği köçürülür:**
"Aqrarkredit" QSC-nin Maliyyə Departamentinin Əməliyyat Şöbəsi
Hesab - AZ67ACJT45019192794010094401

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 282 (30686) 21 dekabr 2024-cü il, şənbə

İdman

# Boksçularımız bu il 160 medal qazanıblar

**"Növbəti dəfə boks üzrə Azərbaycan çempionatını izləmək çox xoş hissdir". Bu sözləri gənclər və idman naziri Fərid Qayıbov kişi boksçular arasında təşkil olunan Azərbaycan çempionatının bağlanış mərasimi zamanı deyib.**



O bildirib ki, 2024-cu il Azərbaycan boksu üçün uğurlu olub: "Yüksək nailiyyətlər əldə olundu. "Paris-2024" Yay Olimpiya Oyunlarında gümüş medal qazandıq. Ölkəmizdə boks inkişaf edir. Artıq paytaxt və bölgələrdə boks zalları istifadəyə verilib. Federasiyanın bu idman növünə olan dəstəyi yüksək səviyyədədir. Kiçik yaşlı uşaqlarımızın da boksa olan marağı böyükdür. Bu bizi xoşbəxt edir".

Qeyd edək ki, Azərbaycan boksçuları 2024-cü ildə 160 medal qazanıblar.

Beynəlxalq dərəcəli boks hakimlərinin sayı isə 8-dən 21-ə yüksəlib.

# AFFA "Qarabağ" və "Şamaxı"nı cərimələdi

**AFFA-nın İntizam Komitəsi "Şamaxı" və "Qarabağ" klublarını cərimələyib. Bu barədə qurumun İntizam Komitəsinin iclasında qərar qəbul olunub.**



Bildirilib ki, Azərbaycan Premyer Liqasında III turun "Şamaxı" - "Qarabağ" oyunu bitdikdən sonra meydançaya kənar şəxslər daxil olduğuna görə "Şamaxı" klubu 800 manat cərimələnib. Həmçinin sözügedən görüşdə azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyinə görə, "Qarabağ" klubu 1500 manat cərimələnib. "Qarabağ" klubu artıq neçənci dəfədir azarkeşlərin pirotexniki vasitədən istifadə etməsi səbəbindən cəzalandırılır.

Qeyd edək ki, Şamaxı şəhər stadionunda keçirilən oyun "Qarabağ"ın 1:0 hesablı qələbəsi ilə başa çatıb.

# Messi "Mançester Siti"yə gələcəkmi?

**"İnter Mayami"nin hücumçusu Lionel Messi İngiltərə çempionatında oynaya bilər. 37 yaşlı argentinalı "Mançester Siti"yə transfer olmaq üçün klub qeydiyyatını dəyişməyə hazırdır.**



İtaliyanın "Tuttosport" nəşrinin məlumatına görə, Messinin "Mançester Siti"yə keçməsinə İngiltərə klubunun baş məşqçisi Pep Qvardiola maraq göstərir. Mənbə qeyd edir ki, ispaniyalı mütəxəssis Messinin köməyi ilə komandasının nəticələrini yaxşılaşdırmaq istəyir. Bu məqsədlə onu 2024/2025 mövsümünün sonuna qədər icarəyə götürməkdə maraqlıdır. İddia olunur ki, "İnter Mayami"nin sahibi Devid Bekhem bu məsələyə müsbət yanaşır. O, Messini 6 ay müddətinə icarəyə verməyə hazırdır.

Lionel Messi 2023-cü ilin iyulunda "İnter Mayami"yə keçib. Leo Amerika klubunda 39 oyun keçirib, 34 qol vurub və 19 məhsuldar ötürmə edib. Bundan əvvəl, 2 il "Pari-Sen Jermen"də oynayıb. 21 il isə "Barselona"nın aparıcı futbolçusu olub.

Hazırda "Mançester Siti" 16 turda 27 xal toplayıb və Premyer Liqanın turnir cədvəlində 5-ci yerdədir.

*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Aranda yağmursuz, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağıntı olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Gecə 5-8°, gündüz 9-11° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək – 766 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi şərq rayonlarında arabir yağıntılı olacağı gözlənilir.

Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 10-15° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Süni zəka insan beyni ilə rəqabət aparır

**Böyük dil modellərindən (LLM) ən məşhuru ChatGPT sürətlə inkişaf edir. O, dil emalı alqoritmidir, geniş çeşidli sualları başa düşmək və cavablandırmaq, mövzular üzrə dəqiq və faydalı məlumat çatdıra bilmək gücündədir. Alqoritm təbii dili emal etmək və anlamaq üçün qabaqcıl neyron şəbəkəsindən istifadə edir, istifadəçilərlə əlaqə saxlamağa və faydalı cavablar təqdim etməyə imkan verir.**



Son bir neçə ildə bu alqoritm insan dilini daha yaxşı emal edir və yaradır. Bu irəliləyişlərə baxmayaraq, onların sinir proseslərini nə qədər dəqiq simulyasiya etdikləri sualı açıq qalıb. Kolumbiya Universiteti və Feinstein Tibb Tədqiqatları İnstitutunun alimlərinin apardıqları araşdırmalar göstərdi ki, dil nümunələri inkişaf etdikcə, onlar nəinki daha yaxşı göstəricilər nümayiş etdirir, həm də insan beyninə daha çox bənzəyir.

Araşdırmalar zamanı LLM-nin hansı xüsusi təbəqələrinin dilin işlənməsi üçün cavabdeh olan müxtəlif beyin bölgələri ilə daha sıx əlaqəli olduğuna xüsusi diqqət yetirilib. Məlumdur ki, beynimizdə nitqin işlənməsi səsin akustik xüsusiyyətlərini təhlil etməklə bərabər, fonemləri tanımağa və nəhayət, sözlərin və cümlələrin mənasını başa düşməyə qədər mərhələlərlə baş verir.

Araşdırmaların nəticələri onu da göstərdi ki, chatbotlar təkmilləşdikcə suallara daha yaxşı cavab verir, onlar beynin sinir reaksiyalarına daha çox bənzəyir. Ən qabaqcıl modellərdə bu oxşarlıq qabarıq şəkildə özünü göstərir. Onların strukturu getdikcə beyində baş verən proseslərin iyerarxiyasına uyğun gəlir. ChatGPT geniş çeşidli sualları cavablandıra və müxtəlif mövzularda ətraflı məlumat verə bilir. Bildirilib ki, dəqiq və faydalı cavab almaq üçün sualların aydın, konkret və birmənalı şəkildə tərtib edilməsi vacibdir. Bir sözlə, ChatGPT müxtəlif mövzular və sahələr üzrə dəqiq və müvafiq məlumat əldə etməyə kömək edən inanılmaz dərəcədə faydalı və güclü vasitədir.

Alimlərin fikrincə, beynin işləmə mexanizmi hələ də sirr olaraq qalır. Süni intellekt tədqiqatları nəinki sinir proseslərini daha yaxşı başa düşməyə kömək edə, həm də onun təkmilləşdirilməsi üçün beynin necə işlədiyinə dair biliklərdən istifadə edə bilər.

***PÜNHAN***
***XQ***

Sağlamlıq



# Dərman əmanəti...

**Dərmanları evdə ayrıca yerdə, xüsusi şəraitdə saxlamaq lazımdır. Kimsə onu mətbəx, bəziləri hamam şkaflarına yığır, bəziləri soyuducuya qoyur. Rusiyalı kimya elmləri namizədi Aleksey Panov dərmanları düzgün saxlamaq barədə tövsiyələrini açıqlayıb. O bildirib ki, dərmanların saxlanması şəraiti onların keyfiyyətinə təsir edir.**

Belə ki, dərmanları hamam otağında saxladıqda yüksək rütubət onların formalarını dağıda bilər. Mətbəxdə isə istiliyin təsirindən dərmanın tərkibi dəyişir.

Optimal yer soyuducudur, amma orada da dərmanlar xüsusi konteynerdə saxlanmalıdır. Onlar xüsusi ətri olan və rütubətli ərzaq məhsulları ilə də təmasda olmamalıdır. Diqqət edilməlidir ki, dərmanın qutusu, qablaşması pozulmasın, əzilməsin, qapaq açıq qalmasın.

Elə dərmanlar da var ki, tərkibindəki maddələr işıq, hərarət, rütubətə həssasdır. Bəzi vitamin və antibiotiklər UVÇ şüalarının təsirindən parçalanır. Ona görə onları qaranlıq, quru, sərin yerdə saxlamaq lazımdır.

Aleksandr Panov açıqlamasının sonunda deyib: "Dərmanları soyuducuda saxlasanız da, müddəti bitmiş dərmanı heç vaxt içməyin".

***Z.HÜSEYNLİ***
***XQ***

# Çinlə turizm əməkdaşlığı genişlənir

**Azərbaycan Turizm Bürosu "Trip.com Group"un Birləşmiş Ərəb Əmirliklərinin Əbu Dabi şəhərində keçirilən Qlobal Tərəfdaşlar Sammitində 60 müxtəlif turizm məkanı arasında "Ən yaxşı qlobal partnyor" və "İlin ələ partnyoru" mükafatlarına layiq görülüb.**



Beynəlxalq sammitdə dünya üzrə 2 mindən çox turizm sahəsi mütəxəssisi iştirak edib.

Dövlət Turizm Agentliyindən aldığımız məlumata görə, 1990-cı ildə təsis edilmiş "Trip.com Group" Çinin səyahət üzrə ən böyük holdinqidir. Onun "Ctrip", "Qunar", "Trip. com" və "Skyscanner" kimi bir sıra səyahət xidməti markaları var və qlobal miqyasda turistlərə xidmət göstərir.

Bu ilin sentyabr ayında turizm sahəsində əməkdaşlığı gücləndirmək məqsədilə "Azərbaycan Hava Yolları" QSC, Azərbaycan Turizm Bürosu və "Trip.com Group" arasında Anlaşma Memorandumu imzalanıb. Sənəddə Azərbaycanı çinli səyahətçilər üçün cəlbedici istiqamət kimi tanıda biləcək "Trip.com ", "Ctrip", "Qunar" və digər platformalardan aktiv şəkildə istifadə edilməsi nəzərdə tutulub.

Çin turizm sənayesinin Azərbaycanda məlumatlılığını genişləndirmək və bu ölkənin bazarında iştirakı gücləndirmək məqsədilə Azərbaycan Turizm Bürosunun Təşkilatçılığı ilə 18–24 sentyabrda Şençjen, Şanxay, Çenqdu və Pekin şəhərlərində silsilə təqdimat tədbirləri keçirilib.

2024-cü ilin yanvar–noyabr ayları ərzində Çindən Azərbaycana səfər edənlərin sayı 42 min 374 nəfər təşkil edib ki, bu da 2023-cü illə müqayisədə iki dəfəyə yaxın artım deməkdir.

***Qəzənfər QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2855
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00